# AZƏRBAYCAN RESPUBLİKASININ HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ KOMİSSİYASI

**Hasilat Sənayesində Şəffaflıq üzrə**
**Müstəqil Auditorun Hesabatı**
31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə

Səhifə

**1. İCMAL** ..... **5**
1.1. Giriş ..... 5
1.2. İşin məzmunu ..... 6
1.3. Məlumatların məxfiliyi ..... 6
1.4. Yanaşma və metodologiya ..... 6
1.5. Mühasibatlıq siyasəti ..... 7
1.6. HSŞ hesabatın hazırlanması və vətəndaş cəmiyyətinin iştirakı ..... 7
**2. HASİLAT SƏNAYESİ, HÜQUQ VƏ FİSKAL REJİM** ..... **8**
2.1 Kəşfiyyat və hasilat ..... 8
2.1.1 Hasilat sənayesinin icmalı ..... 8
2.2 Hüquqi və fiskal rejim ..... 10
2.2.1 Hüquqi rejim ..... 10
2.2.2 Fiskal rejim ..... 16
2.2.3 Dövlət büdcəsinin strukturu ..... 18
2.2.4 Müvafiq dövlət orqanlarının rolu və vəzifələri ..... 22
2.2.5 Hasilat sənayesi üzrə əsas fəaliyyətlər ..... 26
2.3 Hasilat sənayesində lisenziyaların verilməsi ..... 28
2.4 Hasilat sənayesində lisenziyaların reyestri ..... 29
2.5 Müqavilələrin açıqlanması ..... 30
2.6 Benefisiar sahiblik ..... 30
2.7 Hasilat sənayesində dövlətin iştirakı ..... 31
2.7.1 Ümumi məlumat ..... 31
2.7.2 Dövlət müəssisələrinin müvafiq dövlət qurumları ilə münasibəti ..... 32
2.7.3 Dövlət müəssisələri ilə dövlət arasında maliyyə axınları ..... 34
2.7.4 Dövlət müəssisələrinin maliyyə göstəriciləri və hasilat məlumatları ..... 38
2.7.5 Dövlət müəssisələrinin birgə, asılı və törəmə müəssisələri ..... 41
2.7.6 Dövlət müəssisələrinə aid olan əməliyyatlar ..... 43
2.7.7 Xarici bazarlarda fəaliyyətin genişləndirilməsi ..... 44
2.7.8 Dövlət müəssisələri tərəfindən əldə olunan kreditlər və zəmanətlər ..... 48
**3. HASİLAT SƏNAYESİNƏ BAXIŞ** ..... **50**
3.1. Mədən sənayesinin icmalı ..... 50
3.2. İstehsalın həcmi ..... 59
3.3. İxracatda hasilat sənayesinin payı ..... 61
3.4. 2017-ci ildə Azərbaycanın enerji balansı ..... 62
4. HSŞ HESABATINDA ƏHATƏ OLUNMUŞ VERGİ VƏ GƏLİRLƏR ..... 62
4.1. Əhəmiyyətli sayılan ödənişlər ..... 62
4.2. Dövlətə edilən ayırmalar, ödənişlər və onların təsviri ..... 64
4.3. Üzləşmə prosesinin nəticələri ..... 65
4.4 Hasilatın pay bölgüsü sazişləri üzrə pul vəsaitləri şəklində dövlətə köçürülən gəlirlər ..... 68
4.5. Hasilat sənayesi şirkətləri ..... 70
4.6. Hasilatda dövlət payının satışı və digər natura şəklində gəlirlər ..... 76

4.7. İnfrastruktur təchizi və barter razılaşmaları ..... 77
4.8. Nəqletmə gəlirləri ..... 78
4.9. Sub-milli köçürmələr ..... 82
4.10. Fərdi hesabatlılıq ..... 82
4.11. Məlumatların etibarlılığı, tamlığı və əminlik prosedurları ..... 82
**5. HASİLAT SƏNAYESİ GƏLİRLƏRİNİN VƏ XƏRCLƏRİNİN BÖLGÜSÜ ..... 83**
5.1. Dövlət büdcəsi və ARDNF-in gəlir və xərclər bölgüsü ..... 83
5.2. Gəlirlərin idarə edilməsi və xərclər ..... 85
**6. AZƏRBAYCAN İQTİSADİYYATINA HASİLAT SƏNAYESİNİN TÖHFƏSİ ..... 86**
6.1. Sosial xərclər ..... 86
6.2. Kvazi-fiskal xərclər ..... 88
6.3. ÜDM–nin istehsal və sahə strukturları ..... 89
6.4. Hasilat sənayesindən əldə edilən dövlət gəlirləri ..... 90
6.5. Hasilat sənayesində məşğulluq ..... 94
6.6. Ümumi hasilatın həcmi və cəmləşdiyi əsas rayonlar (ərazilər) ..... 95
6.7. Digər məlumatlar ..... 96
6.7.1. Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə ..... 97
6.7.2 Alternativ enerji mənbələri ..... 98
**7. ÜZLƏŞDİRMƏ ..... 101**
7.1. Gəlir növləri üzrə üzləşmə prosesi (xarici şirkətlər) ..... 101
7.2. Gəlir növləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə) ..... 102
7.3. Düzəlişlər ..... 103
7.3.1 Pul şəklində edilən köçürmələrə dair düzəlişlər ..... 103
7.3.2 Natura şəklində edilən köçürmələrə dair düzəlişlər ..... 107
**8. XÜSUSİ YOXLAMA PROSEDURLARI ..... 108**
**9. TÖVSİYƏLƏR VƏ NƏTİCƏLƏR ..... 109**
9.1. 31 dekabr 2017-ci il başa çatmış il üzrə HSŞ Hesabatının hazırlanması və tərtibatı üzrə Müstəqil Auditorun tövsiyələri ..... 109
9.2. 2016-cı il üzrə HSŞ hesabatına dair müvafiq tövsiyələrin icrası ..... 112
**ƏLAVƏLƏR ..... 116**
Əlavə 1. Azərbaycan Respublikası HSŞ üzrə Komissiyanın bəyannaməsi ..... 116
Əlavə 2. Hesabat şablonları ..... 117
Əlavə 3. 2017-ci il üçün enerji balansı (min NET) ..... 119
Əlavə 4. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə cədvəlləri ..... 121
Əlavə 4. Hesabatın tərtibi zamanı istifadə olunmuş ədəbiyyat siyahısı ..... 161

| İXTİSARLARIN SİYAHISI | |
|---|---|
| **ABƏŞ** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| **ABŞ dolları** | Amerika Birləşmiş Ştatları dolları |
| **AÇG** | Azəri–Çıraq–Günəşli |
| **AQTŞ** | Azərbaycan Qaz Təchizatı Şirkəti |
| **ARDNF** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **ARMB** | Azərbaycan Respublikası Mərkəzi Bankı |
| **A.S** | Aksjeselskap–Norveçdə aksiya və opsiyon tipli şirkətlər üçün termin |
| **AZN** | Azərbaycan manatı |
| **BM** | Birgə Müəssisə |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **BOTAŞ** | Boru Hatları İle Petrol Taşıma A.Ş. |
| **BTC** | Bakı–Tbilisi–Ceyhan |
| **CQBK** | Cənubi Qafqaz Boru Kəməri |
| **CQD** | Cənub Qaz Dəhlizi |
| **DSMF** | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu |
| **DM** | Dövlət Müəssisəsi |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **ƏİBK** | Əsas İxrac Boru Kəməri |
| **HPBS** | Hasilatın Pay Bölgüsü Sazişləri |
| **HSŞ** | Hasilat Sənayesində Şəffaflıq |
| **İN** | İqtisadiyyat Nazirliyi |
| **Komissiya** | Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya (HSŞ Komissiyası) |
| **Katiblik** | HSŞ Komissiyasının Katibliyi |
| **KBİHPBS** | Blokun Kəşfiyyatı, Bərpası, İşlənməsi və Hasılatın Pay Bölgüsü haqqında Sazış |
| **Kq** | Kiloqram |
| **NBSS** | Neftin Birgə Satışı haqqında Sazış |
| **QHT** | Qeyri–Hökumət Təşkilatı |
| **QİBK** | Qərb İxrac Boru Kəməri |
| **QSC** | Qapalı Səhmdar Cəmiyyəti |
| **M** | Metr |
| **$m^3$** | Kub metr |
| **HSŞ** | Hasilat Sənayesində Şəffaflıq |
| **Mln** | Milyon |
| **Mlrd** | Milyard |
| **MMBTU** | 1 milyon Britaniya İstilik Vahidi |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |
| **$nm^3$** | Normal kub metr |
| **ONŞ** | SOCAR-ın Ortaq Neft Şirkəti |
| **$sm^3$** | Standart kub metr |
| **SOCAR** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| **STYAŞ** | SOCAR Turkey Yatırım A.S |
| **Şirkətlər** | Hasilat sənayesi şirkətləri |
| **TAP** | Trans Adriatik Boru Kəməri |
| **TANAP** | Trans Anadolu Boru Kəməri |
| **TƏMÖHS** | Tranzit Əraziyə Malik Ölkə Hökuməti Sazişi |
| **TPAO** | Türkiyə Petrolleri Anonim Ortaqlığı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **VÖEN** | Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi |

| ANLAYIŞLAR | |
|---|---|
| Neft və qaz | Bu hesabatda karbohidrogen ehtiyatları – neft, qaz, neft kondensat, qaz-kondensat nəzərdə tutulur. |
| Əlvan metal | Bu hesabatda əlvan metallar – qızıl, gümüş, mis konsentratında qızıl, mis konsentratında gümüş və digər əlvan metallar nəzərdə tutulur. |
| Müstəqil Auditor | Hasilat sənayesi şirkətlərinin və dövlətin HSŞ üzrə fərdi hesabatlarını üzləşdirən və ümumi HSŞ hesabatını hazırlayan müstəqil audit şirkəti. |
| Dövlət büdcəsi | Müvafiq hakimiyyət orqanları vasitəsi ilə dövlətə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi formasıdır.[1] |
| Podratçı şirkətlər | Azərbaycan Respublikasının qanunvericiliyi əsasında yaradılmış, Azərbaycan Respublikasında müvafiq ərazi, infrastruktur, texniki vasitələr, işçi qüvvəsi, zəruri texniki, texnoloji, inzibati və idarəetmə biliklərinə və təcrübəsinə, maliyyə ehtiyatlarına malik olan, ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının hüdudlarından kənarda bu cür layihələri həyata keçirən, xarici sifarişçi ilə birbaşa müqaviləsi olan hüquqi şəxslər, o cümlədən xarici sərmayəçilərin iştirakı ilə yaradılmış hüquqi şəxslər.[2] |

[1]Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Nomrativ hüquqi aktların vahid internet elektron bazası http://www.e-qanun.az/framework/4756
[2] Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsi, İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında AR-nın qanunu http://www.taxes.gov.az/modul.php?name=qanun&news=287

BAKER TILLY
AZERBAIJAN

Demirchi Tower, 16th fl.
37 Khojaly Avenue
AZ 1025
Baku, Azerbaijan
Tel: +994 (12) 404 76 66
Fax: +994 (12) 404 76 67

Azərbaycan Respublikası Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiyaya

**Müstəqil Auditor Hesabatı**

***Faktiki tapıntılar haqqında hesabat - Azərbaycan Respublikasında təbii ehtiyatların istismarı ilə əlaqədar dövlətin daxilolmalarının və hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin ödənişlərinin (ayırmalarının) üzləşdirilməsi***

Biz, 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə Azərbaycan Respublikasında hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin ("Şirkətlər") dövlətə ödənişlərinin (ayırmalarının) və dövlətin Şirkətlərdən daxilolmaları üzrə ümumi məlumatların toplanması, üzləşdirilməsi və tərtibatı nəticəsində yaranmış faktiki tapıntılar hesabatını ("HSŞ hesabatı") təqdim edirik.

HSŞ Hesabatı doqquz bölmədən və əlavələrdən ibarətdir:

- Birinci bölmə əsasən, Hasilat Sənayesində Şəffaflıq Hesabatının qısa icmalı, hesabatlılığın məqsədi, görülmüş işlərin məzmunu, yanaşma və HSŞ Hesabatının necə hazırlanmasından ibarətdir;

- İkinci və Üçüncü bölmələrdə əsasən hasilat sənayesinin icmalı, Azərbaycan Respublikasında olan hüquqi və fiskal rejim, dövlət müəsisələrinə aid olan əməliyyatlar, daxili və xarici bazarda fəaliyyətlərin genişləndirilməsi, ixracatda hasilat sənayesinin payı və s. haqqında məlumatlar və faktlar əks etdirilmişdir;

- Dördüncü bölmədə əsasən Hasilat sənayesi şirkətləri, əhəmiyyətli sayılan ödənişlər, üzləşmə prosesinin nəticələri, eyni zamanda məlumatların etibarlılığı, tamlığı və əminlik prosedurları əks etdirilmişdir;

- Beşinci bölmədə hasilat sənayesi gəlirlərinin və xərclərinin bölgüsü və idarə edilməsi haqqında məlumatlar öz əksini tapmışdır;

- Altıncı bölmədə əsasən hasilat sənayesinin Azərbaycan iqtisadiyyatına töhfəsi və müvafiq göstəriciləri əks etdirilmişdir;

- Yeddinci bölmədə əsasən üzləşmə prosesinin nəticələri və edilən düzəlişlərin xülasəsi və izahları göstərilmişdir;

- Səkkizinci bölmə hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlər arasında seçilən Şirkətlərdə aparılan xüsusi yoxlama prosedurları və nəticələrini əhatə edir;

- Doqquzuncu bölmədə isə hesabat dövrü üzrə edilən tövsiyələr və nəticələr öz əksini tapmışdır.

Üzləşdirmənin məqsədi 2017-ci il ərzində Azərbaycan Respublikasında Hasilat Sənayesində Şəffaflığın həyata keçirilməsi ilə əlaqədar dövlətə hasilat sənayesindən daxil olmuş ödənişlər/daxilolmalar barədə məlumatların tamlığı, etibarlılığı və mümkünlüyünü (əlçatanlığını) təmin etməkdir.

Biz işimizi yerinə yetirərkən Beynəlxalq Mühasiblər Federasiyası tərəfindən dərc olunmuş 4400 saylı "Maliyyə Məlumatlarına dair razılaşdırılmış prosedurları yerinə yetirmək üçün razılaşmalar ilə Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart"-a istinad etmişik.

Üzləşmə zamanı əldə olunan nəticələr, müvafiq düzəlişlər və faktiki tapıntılar HSŞ Hesabatının dördüncü və yeddinci bölmələrində, eləcə də müvafiq əlavələrdə qeyd edilmişdir.

Razılaşdırılmış prosedurlar Beynəlxalq Audit Standartları və ya Beynəlxalq Təhlil Standartları əsasında həyata keçirilmiş audit yoxlaması və ya təhlil tapşırığının tərkib hissəsini təşkil etmədiyindən, biz bu hesabatdakı şirkətlər və dövlət institutları tərəfindən ödənişlər də daxil olmaqla, maliyyə məlumatları üzrə hər hansı bir əminlik təqdim etmirik. Bizim hesabatda göstərilmiş məlumatların, eləcə də lisenziya sahibləri və dövlət institutları tərəfindən təqdim edilmiş məlumatların, hesabatda əksi göstərilmədiyi təqdirdə, yoxlanılmasına və ya təsdiqlənməsinə ehtiyac yoxdur. Beynəlxalq Audit Standartları və ya Beynəlxalq Təhlil Standartları əsasında audit və ya təhlil prosesləri, eləcə də əlavə prosedurlar tərəfimizdən həyata keçirildiyi halda, hesabatda digər məsələlər də öz əksini tapmış olacaqdır.

Bu hesabatın məqsədi neft, qaz və dağ-mədən sənayesi daxilində şəffaflığın artırılmasıdır. Bizim prosedurlar lisenziya sahibləri və dövlət orqanları tərəfindən edilmiş saxtakarlıq və ya xətaları müəyyənləşdirmək üçün nəzərdə tutulmamışdır.

26 noyabr 2018-ci il
Bakı, Azərbaycan Respublikası

# AZƏRBAYCAN RESPUBLİKASININ HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ KOMİSSİYASI

**Hasilat Sənayesində Şəffaflıq üzrə Ümumiləşdirilmiş Hesabat**
31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə

## 1.İCMAL

### 1.1. Giriş

Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 saylı Fərmanına əsasən ölkənin hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının tətbiqi aşağıda göstərilmiş beynəlxalq prinsiplər əsasında davam etdirilir:

1. Təbii ehtiyatlardan əldə olunan gəlirlərin vətəndaşların rifahı və ölkənin milli maraqları naminə idarə olunması suveren dövlətlərin səlahiyyətlərinə aiddir;
2. Təbii ehtiyatlardan əldə olunan gəlirlərdən qənaətli istifadə yoxsulluğun azaldılmasına və davamlı iqtisadi inkişafa təkan verən mühüm vasitədir;
3. Dövlət orqanlarının fəaliyyətində, özəl sektorda və ictimai münasibətlərdə şəffaflıq və hesabatlılıq standartları təşviq edilməlidir;
4. Dövlət hasilat sənayesindən əldə olunan gəlirlərin idarə olunması ilə bağlı vətəndaşlar qarşısında hesabat verməlidir;
5. Şəffaflığın artırılmasına müvafiq müqavilə və qanunlara əməl etməklə nail olunmalıdır;
6. Hasilat sənayesində fəaliyyət göstərən dövlət və özəl şirkətlər tərəfindən şəffaflığın, o cümlədən dövlətin maliyyə idarəetməsinin və hesabatlılığın gücləndirilməsi təmin olunmalıdır;
7. Ölkənin maliyyə şəffaflıq standartları hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərə şamil edilməlidir;
8. Bu sahədə şəffaflığın tətbiqində dövlət orqanları, hasilat sənayesində fəaliyyət göstərən şirkətlər, beynəlxalq təşkilatlar, maliyyə qurumları, investorlar və qeyri-hökumət təşkilatları da daxil olmaqla, bütün maraqlı tərəflərin iştirakı təmin edilməlidir.

Sözügedən Fərmanın 2-ci bəndinə əsasən Azərbaycanın hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədilə, Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiya (bundan sonra "Komissiya") yaradılmışdır.[3] Komissiya öz fəaliyyətini illik fəaliyyət planı əsasında həyata keçirir.

Komissiya Hasilat Sənayesində Şəffaflıq üzrə ümumiləşdirilmiş hesabatların (bundan sonra "HSŞ hesabatı") müfəssəlliyinin və gəlirlər üzrə ictimai məlumatlılığın artırılması məqsədilə, HSŞ-nin icra edilməsinin genişləndirilməsini təşviq edir və ictimai həyatda, dövlət əməliyyatlarında və biznes sahəsində yüksək şəffaflıq və hesabatlılıq standartlarının həyata keçirilməsini həvəsləndirir.

Fərmana əsasən Komissiyanın cari fəaliyyətinin təşkili məqsədilə Komissiyanın Katibliyi funksiyasını Azərbaycan Respublikasının Dövlət Neft Fondu həyata keçirir.

Hasilat gəlirlərinin şəffaflığının təmin olunması, Şirkətlərin dövlətə ödənişlərinin və dövlətin müvafiq gəlirlərinin açıqlanaraq üzləşdirilməsi üsulu ilə həyata keçirilir. Bu üsul 3 əsas elementdən ibarətdir:

- **Şəffaflıq:** neft, qaz və mədən sənayesində fəaliyyət göstərən şirkətlər dövlətə ödənişləri, dövlət isə qeyd edilən şirkətlərdən daxilolmaları və hasilat sənayesi ilə bağlı digər aidiyyatı məlumatları açıqlamalıdır. Açıqlanan rəqəmlər müstəqil audit şirkəti tərəfindən üzləşdirilir və hasilat sənayesi ilə bağlı digər məlumatlar ilə birlikdə illik HSŞ hesabatlarında dərc olunur.

- **Hesabatlılıq:** Komissiya ölkənin hasilat sənayesində hesabatlılığın artırılmasını təmin edir və HSŞ hesabatının məlumatlarının yayılmasını, əhalinin hasilat gəlirləri barədə maarifləndirilməsini və təbliğatını həyata keçirir, eləcə də HSŞ-nin ölkədə həyata keçirilən daha geniş şəffaflıq səylərinə inteqrasiya edilməsini təşviq edir.

- **Etibarlılıq:** Etibarlılığın təmin edilməsi həm hesabatın keyfiyyətli hazırlanmasına, həm də vətəndaş cəmiyyəti təmsilçilərinin HSŞ prosesində iştirakına əsaslanır. Bu iştirakı təmin etmək məqsədilə HSŞ Komissiyası Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixli 1315 nömrəli "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanında tapşırıldığı kimi hesabatlılığın təşkil olunmasının bütün mərhələlərində qeyri-hökumət təşkilatları, özəl sektorun nümayəndələri və müstəqil ekspertlər ilə əməkdaşlıq edir. Komissiya müvafiq elanla maraqlı olan vətəndaş cəmiyyəti təmsilçilərini prosesdə iştirak

[3] Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanının tam mətni ilə http://www.president.az/articles/23288 keçidində tanış ola bilərsiniz.

etməyə dəvət etmiş və 44 nəfər vətəndaş cəmiyyəti təmsilçisi öz marağını ifadə edərək müvafiq qeydiyyatdan keçmiş və illik HSŞ Hesabatının hazırlanmasında iştirak etmişdir.

İndiyədək görülmüş işlər və hesabatlarla daha ətraflı www.eiti.az və www.oilfund.az internet səhifələrində tanış olmaq mümkündür.

## 1.2. İşin məzmunu

31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə HSŞ hesabatının tərtib olunması məqsədilə, maraqlı tərəflərin iştirakı ilə HSŞ Komissiyası tərəfindən keçirilmiş "Müstəqil Auditor xidmətinin alınmasına dair "Xidmət və Təkliflər Sorğusuna" əsasən Baker Tilly Azərbaycan şirkəti qalib elan edilmişdir.

Müstəqil Auditorun görəcəyi işlər, Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin dövlətə ödənişləri və dövlətin yerli və xarici şirkətlərdən daxilolmaları barədə 2017-ci ili əhatə edən hesabatların 4400 saylı "Maliyyə Məlumatlarına dair razılaşdırılmış prosedurları yerinə yetirmək üçün razılaşmalar ilə Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standart" əsasında üzləşdirilməsi və təhlili, Azərbaycanın hasilat sənayesi üzrə ümumi məlumatların toplanması və strukturlaşdırılmasından ibarətdir.

31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə HSŞ hesabatının tərtib olunmasında öncəki illərin hesabatlarına və həmin hesabatlara edilən tövsiyə və rəylərinə istinad edilmişdir.

## 1.3. Məlumatların məxfiliyi

Müstəqil Auditor 3 may 2018-ci il tarixində Azərbaycan Respublikası Dövlət Neft Fondu ("ARDNF") ilə imzalanmış AUD_029/2018 nömrəli müqaviləyə əsasən məxfilik haqqında müddəaya uyğun olaraq işlərin icrasını həyata keçirir.

Müstəqil Auditor imzalanmış müqaviləyə əsasən görüləcək işlərin məxfiliyinin qorunmasını təmin etməli və üzləşdirmə prosesi zamanı əldə olunacaq təsdiqedici sənədləri tərəflərin icazəsi olmadan, heç bir üçüncü tərəfə verməməli və onunla müzakirə etməməlidir.

## 1.4. Yanaşma və metodologiya

HSŞ hesabatının hazırlanması aşağıdakı mərhələlərdən ibarət olmuşdur:

- *Məlumatların toplanması.*

Bu mərhələdə Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən şirkətlər və müvafiq dövlət qurumları Komissiya tərəfindən təsdiq olunmuş formalara uyğun hesabatlar təqdim edirlər (bax – "4.5. Hasilat sənayesi şirkətləri"). Təqdim edilən hesabatlar Müstəqil Auditor tərəfindən əldə edilir, toplanılır və Beynəlxalq Audit Prinsipləri əsasında bütün aspektlərdə üzləşmə prosesi üçün nəzərdən keçirilir.

Hasilat sənayesində idarəetmə tədbirləri və vergi siyasəti, ilkin araşdırmanın nəticələri, əvvəlki illər üzrə hasilat sənayesində şəffaflıq üzrə hesabatların nəticələri və tövsiyələri daxil olmaqla müvafiq məlumatlar nəzərdən keçirilir. Ümumi məlumatlar sorğular və müraciətlər əsasında, həmçinin açıq mənbələrdən istifadə edilərək toplanılır.

- *İlkin üzləşdirmə, fərqlərin araşdırılması və ümumi məlumatların toplanması.*

Bu mərhələdə Müstəqil Auditorun məqsədi təqdim olunan hesabatların üzləşdirilərək fərqlərin aşkar olunması və yaranan fərqlərin araşdırılaraq lazımi düzəlişlərin edilməsidir. Üzləşdirmə prosesi zamanı yaranan fərqlərin izahını əldə etmək məqsədilə Müstəqil Auditor müvafiq şirkət və dövlət qurumları ilə əlaqə saxlayıb bu uyğunsuzluqların səbəbini müəyyənləşdirmək üçün təsdiqedici sənədlər tələb edir.

Eyni zamanda ümumi məlumatların mühüm hissəsinin toplanması və strukturlaşdırılması təşkil olunur. Həmin ümumi məlumatlar dövlət orqanları və şirkətlərin rəsmi internet səhifələrinə, açıq mənbələrə və rəsmi məktublara istinad edilərək hesabata daxil edilir.

- *Layihə HSŞ hesabatının tərtib edilməsi.*

Bu mərhələdə aşağıda qeyd olunan bütün məlumatlar hesabatda əks olunur:

- Müstəqil Auditorun izahedici paraqrafı;
- Üzləşdirmə üsulunun təsviri;
- Üzləşdirmə və xüsusi yoxlama prosedurları;
- Üzləşdirmə prosesinin ilkin nəticələri və yaranan fərqlərin izahı;
- Ümumi məlumatların açıqlanması;
- HSŞ hesabatın ilkin strukturlaşdırılması üzrə təsvir.

- *Yekun HSŞ hesabatının təqdim edilməsi.*

Bu mərhələdə HSŞ hesabatının layihəsi bütün maraqlı tərəflərə təqdim edilir, bütün maraqlı tərəflər və İşçi qrup tərəfindən hesabata dair verilmiş göstərişlər yerinə yetirilir, gələcəkdə HSŞ hesabatlarının keyfiyyətinin artırılması məqsədilə növbəti hesabatlılıqlar üçün tövsiyələr, yekun HSŞ hesabatı ilə birlikdə dərc edilə bilən və hesabatda əks olunmuş bütün cədvəllərin daxil olduğu elektron məlumat faylları hazırlanır və yekun HSŞ hesabatı HSŞ Komissiyası daxil olmaqla bütün maraqlı tərəflərə təqdim edilir. Müstəqil Auditor hesabatlılıq dövrünün sonunda əldə edilmiş nəticələrə həsr olunmuş ictimai məlumatlandırma tədbirlərində iştirak edir.

## 1.5. Mühasibatlıq siyasəti

***Mühasibatlıq uçotu prinsipləri***

31 dekabr 2017-ci il tarixində başa çamış il üzrə hasilat sənayesi şirkətləri tərəfindən edilən ödənişlər və dövlətin daxilolmalarına dair üzləşdirmə prosesində mühasibat uçotunun kassa metodundan istifadə edilmişdir.

***Xarici valyuta əməliyyatları***

Xarici şirkətlər tərəfindən təqdim olunan hesabatlarda ödənişlər xarici valyuta ilə əks olunmuşdur. Yerli şirkətlərin təqdim etdiyi hesabatlarda isə ödənişlər milli valyuta ilə göstərilmişdir.

Üzləşdirmə zamanı xarici valyuta ilə edilən ödənişlər müvafiq şirkətlərdən və dövlət qurumları tərəfindən əldə edilmiş ödəniş tarixi və məbləği əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq ödəniş gününün məzənnəsinə uyğun olaraq Azərbaycan manatına (“AZN”) çevrilmişdir.

2017-ci il üzrə Azərbaycan manatının müvafiq xarici valyutalarla müqayisədə orta illik və ilin sonuna olan məzənnəsi aşağıdakı dəyərdə olmuşdur:[4][5]

| | **2017-ci il üzrə orta illik məzənnə** | **31 dekabr 2017-ci il tarixində** |
|---|---|---|
| | | |
| AZN/1 ABŞ dolları | 1,7000 | 1,7001 |

## 1.6. HSŞ hesabatın hazırlanması və vətəndaş cəmiyyətinin iştirakı

İllik Hesabatın hazırlanması və açıqlanması prosesi əsasən aşağıdakı mərhələlərdən ibarət olur:

- Hesabatlılığa cəlb ediləcək şirkətlərin əhatə dairəsinin müəyyən edilməsi;
- Müstəqil Auditorun seçilməsi;
- Müstəqil Auditor tərəfindən ilkin hesabat layihəsinin hazırlanması və müzakirəsi;
- Hesabatın layihəsinin ilkin rəylərinin alınması məqsədilə bütün tərəflərə təqdimatı;
- Hesabatın HSŞ Komissiyası üzvlərindən, vətəndaş cəmiyyəti və hasilat şirkətlərinin nümayəndələrindən ibarət yaradılmış İşçi Qrup tərəfindən verilmiş tövsiyələr əsasında təkmilləşdirilməsi və yekunlaşdırılması;
- Hesabatın yekun versiyasının ictimai təqdimatı və müzakirəsi;
- Açıqlanmış hesabata dair vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən rəyin verilməsi.

[4] Azərbaycan Respublikası Mərkəzi Bankı, https://www.cbar.az/other/azn-rates
[5] Azərbaycan Respublikasının Dövlət Statistika komitəsi https://www.azstat.org/MESearch/details

Vətəndaş cəmiyyəti nümayəndələrinin yuxarıda sadalanan, yəni hesabatlılığın bütün mərhələlərində iştirakı Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixli 1315 nömrəli "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən təmin edilir.

# 2. HASİLAT SƏNAYESİ, HÜQUQ VƏ FİSKAL REJİM

## 2.1 Kəşfiyyat və hasilat

### 2.1.1 Hasilat sənayesinin icmalı

Hasilat sənayesi əsas faydalı qazıntı yataqlarını kəşf edən, faydalı qazıntıları hasil və ilkin emal edən istehsal sahələrini özündə cəmləşdirir. Azərbaycan neft və qaz başda olmaqla müxtəlif mineral ehtiyatlarla zəngindir. Mədən sənayesinin icmalı, dənizdə və quruda olan yataqlar, kəşfiyyat fəaliyyətləri, istehsalat həcmi, ixracatda hasilat sənayesinin payı və s. məlumatlar bu hesabatın 3-cü bölməsində daha geniş formada izah edilmişdir.

- **Neft və qaz**

***Neft və qaz sənayesi*** – neft və qaz yataqlarının kəşfiyyatını, neft-qaz quyularının qazılmasını, neft və qaz yataqlarının işlənməsi və istismarını, neft və qazın hasilatını, xam neft, neft məhsulları və qazın nəqlini əhatə edir.

- ***Kəşfiyyat*** – geoloji və geofiziki kəşfiyyat işlərinin aparılması, qazma üsullarının müəyyənləşdirilməsi, yatağın qiymətləndirilməsi və sənaye üsulu ilə istifadəyə hazırlanması kimi işləri əhatə edir;
- ***Qazma*** – yer qabığında süxurları qazma aləti ilə dağıtmaqla quyu, lağım və ya şaxta lüləsinin qazılması prosesindən ibarətdir;
- ***Neft və qaz yataqlarının işlənməsi və istismarı*** – neft-qaz quyularının işə salınması, dayanmış neft quyularının bərpası və istismara qaytarılmasını təmin etməkdir;
- ***Neft və qaz hasilatı*** – müxtəlif metodların tətbiqi ilə quruda və dənizdə neftin və qazın çıxarılması; və
- ***Neft və qazın yığılması və nəqli*** – xam neft-qazın borularla, tankerlərlə və müxtəlif vasitələrlə hasilat yerindən emal müəssisələrinə və ya digər məntəqələrə çatdırılmasıdır.

Azərbaycan dünyanın ən qədim neft hasil edən ölkələrindən biri hesab edilir. Azərbaycanın əsas neft və qaz ehtiyatları Abşeron yarımadasında və Xəzər dənizində yerləşir. Azərbaycanda neft və qaz çıxarılmasının tarixinə dair faktlar: [6]

- XIV əsr səyyahı Marko Polo Azərbaycan neftindən müxtəlif məqsədlər üçün istifadə edilməsi və yaxın ölkələrə daşınması barədə yazmışdır;
- Dünyada ilk dəfə olaraq mexaniki üsulla 1847-ci ildə Bibiheybətdə, sonra isə Balaxanıda neft quyuları qazılmışdır;
- 1901-ci ildə Azərbaycan 11,0 mln ton neft hasil edərək dünyada birinci yerə sahib olmuşdur;
- 1941-ci ildə Azərbaycanda 23,5 mln ton neft çıxarılmışdır ki, bu da bütün Sovet İttifaqında hasil olunan neftin 71,4%–ni təşkil etmişdir;
- Dənizdə neftin çıxarılması ilk dəfə olaraq Azərbaycanda başlamışdır. 1949-cu ildə, sonradan "Neft Daşları" adlandırılan yatağın aşkar edilməsi Azərbaycanı və Xəzəri bütün dünyada tanıtmışdır;
- 1970-ci illərin sonu 1980-ci illərin əvvəllərində dənizdə 80 metrdən 350 metr dərinliyi arası "Azəri", "Çıraq", "Kəpəz" və "Günəşli" kimi yataqlar aşkar edilmişdir. Hazırda SOCAR hasil etdiyi neftin 60%-dən çoxunu "Günəşli" yatağının hesabına əldə edir;
- 1994-cü ilin 20 sentyabr tarixində "Əsrin müqaviləsi" imzalanmışdır;

[6] Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, http://new.socar.az/socar/az/company/about-socar/oil-history-in-azerbaijan.

- Bu günə qədər Azərbaycan hökuməti xarici şirkətlərlə bir sıra HPBS imzalamışdır. Daha ətraflı məlumat HSŞ hesabatının 3.1. Mədən sənayesinin icmalı bölməsində olan neft və qaz sənayesi, qızıl və gümüş hasilatı bəndlərində əks etdirilmişdir.

  - **Qiymətli metallar**[7]

***Qiymətli metallar sənayesi***[8]– qiymətli və əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, hasilatı, emalı, satışı və nəqlini əhatə edir.

Mədən sənayesində qiymətli metal emalında son məhsulun əldə edilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

- ***Mədən Ərazisi*** - geoloji kəşfiyyat işlərinin aparılması, qiymətləndirilməsi və mədən sahəsində partlayış işlərinin həyata keçirilməsi;
- ***Tərəzi*** - mədən sahəsindən partladılmış filiz və tullantının aidiyyatı avtomobil tərəzilərindən keçirilərək tullantı və filiz anbarlarına daşınması;
- ***Qırıcı Sahə*** - filiz anbarından yükləyici texnikası vasitəsi ilə müxtəlif filizləri Qırıcı sahəsinə yüklənilməsi;
- ***Aqlomerasiya*** - yüklənmiş filizlərin Qırıcı sahəsində avadanlıqlardan, ələklərdən və Aqlomerator qurğusundan keçirilməsi;
- ***Topa Aşındırma Sahəsi*** - Aqlomerator qurğusunun son nöqtəsindən konveyer vasitəsi ilə Topa Qələviləşdirmə sahəsinə ötürülür və kimyəvi tərkibi olan məhlul ilə suvarılır;
- ***Sianid Zavodu*** - suvarıldıqdan sonra qızıl və gümüş məhlul vasitəsi ilə absorbsiya olunur və drenaj sistemi vasitəsi ilə süzülərək mövcud hovuza yığıldıqdan sonra dalğıc nasosları ilə emal sahəsinə ötürülür;
- ***Absorbsiya-Desorbsiya-Bərpası Zavodu*** - emal sahəsində aktiv kömür ilə dolu çənlərdə məhlul desorbsiya olunur və elektroliz prosesinə ötürülür. Filtirlənmiş məhlul (qızıl/gümüşsüz boş məhlul) isə hovuzun digər hissəsinə - təkrar topa qələviləşdirmə sahəsinə ötürülür;
- ***Elektroliz*** - elektroliz prosesində məhlulun tərkibində olan qiymətli metallar ayrılır və qurudulur;
- ***Əritmə*** - qurudulmuş yarımfabrikat formasında qiymətli metallar əritmə prosesinə ötürülür;
- ***Son Məhsul*** - əritmə prosesi nəticəsində son məhsul əldə edilir.

7 “Azergold” QSC-nin rəsmi internet səhifəsi və Müstəqil Auditor tərəfindən “Azergold” QSC-dan alınan rəsmi məktub
[8] Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Azərbaycanın faydalı qazıntıları”, http://eco.gov.az/az/148-faydali-qazintilari




Azərbaycan davamlı və uzunmüddətli qızıl və gümüş hasilatı sənayesinin yaradılması üçün zəngin potensiala malikdir. Qızıl və gümüş yataqları əsasən Azərbaycanın cənub-qərbində Gədəbəy, Qoşa, Qızılbulaq, Çovdar, Dağkəsəmən, Vejnəli, Söyüdlü, Naxçıvan MR-da Ordubad qrupu (Ağyurd Piyazbaşı, Şəkərdərə, Kələki) yataqlarında cəmlənmişdir.

Respublikanın mis ehtiyatları əsasən Balakən–Zaqatala, Gədəbəy, Qarabağ və Ordubad filiz rayonlarında cəmlənmişdir. Balakən-Zaqatala filiz rayonunda misin əsas ehtiyatları mis-kolçedan, kolçedan-polimetal tipli, Kiçik Qafqaz və Naxçıvan qırışıqlıq zonasının filiz rayonlarında isə əsasən mis–porfir, molibden–mis–porfir və qızıl–mis–kolçedan tipli yataq və təzahürlərdə cəmlənmişdir.

## 2.2 Hüquqi və fiskal rejim

### 2.2.1 Hüquqi rejim

Azərbaycanın mədən sənayesində fəaliyyətin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından ibarət olan Azərbaycan Respublikasının qanunvericilik sistemi və o cümlədən Konstitusiyaya əsasən bu sistemin ayrılmaz tərkib hissəsi hesab edilən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

[9] Təsvir 1 "Azergold" QSC tərəfindən təqdim edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyində bütün yeraltı faydalı qazıntıların dövlətə məxsus olduğu mineral resurslardan istifadə sahəsində dövlət siyasətinin iqtisadi və sosial əsasları, habelə onun həyata keçirilmə mexanizminin əsas istiqamətləri müəyyən edilir. Bu sahədə dövlət ilə hüquqi və fiziki şəxslər arasında münasibətlər, Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətlər, energetika materiallarının və məhsullarının (enerji resursları) kəşfiyyatı, işlənməsi, hasilatı, istehsalı, emalı, saxlanılması, nəqli, paylanması və istifadəsi üzrə münasibətlər, qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi ilə bağlı münasibətlər və digər məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Azərbaycanda mədən sənayesində fəaliyyəti tənzimləyən mövcud qanunvericilik bazasına daxil olan və aşağıdakılarla məhdudlaşmayan normativ hüquqi aktlar dövlət tərəfindən yaradılmış və ictimaiyyət üçün açıq olan rəsmi internet səhifələrində dərc edilmişdir. [10]

- **AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI;**
- **BEYNƏLXALQ MÜQAVİLƏLƏR:**

**“Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında” 1969-cu il tarixli Beynəlxalq Konvensiya:**

Azərbaycan Respublikası bu Konvensiyaya 691-IIQ nömrəli Qanunla 18 iyun 2004-cü il tarixində qoşulmuşdur. Konvensiya müqavilə bağlanmış dövlətin ərazisində, ərazi suları daxil olmaqla, istisnasız olaraq çirklənmədən dəymiş ziyana və həmin ziyanın azaldılmasına və ya aradan qaldırılmasına yönəlmişdir.

**“Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında” 1990-cı il tarixli Beynəlxalq Konvensiya:**

Azərbaycan Respublikası bu Konvensiyaya 690-IIQ nömrəli Qanunla 18 iyun 2004-cü il tarixində qoşulmuşdur. Konvensiyaya əsasən tərəflər neftlə çirklənməyə səbəb olan hadisələrə hazırlığı təmin etmək və bununla mübarizə üçün fərdi və yaxud birlikdə tədbir görmək məsuliyyətini öz üzərlərinə götürürlər.

**“Boru kəmərləri magistralları ilə neft və neft məhsullarının tranzit sahəsində razılaşdırılmış siyasətin aparılması haqqında” Saziş:**

1996-cı il aprelin 12-də Moskva şəhərində imzalanmış saziş 27 dekabr 1996-cı il tarixli 228-IQ nömrəli Qanunla təsdiq edilmişdir.

**“Dövlətlərarası neft və qaz nəqli sistemlərinin yaradılması üçün təşkilati prinsiplərə dair” Çərçivə Sazişi:**

1999-cu il iyulun 22-də Kiyev şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərtlə imzalanmış “Dövlətlərarası neft və qaz nəqli sistemlərinin yaradılması üçün təşkilati prinsiplərə dair” Çərçivə Sazişi 24 oktyabr 2000-ci il tarixli 938-IQ nömrəli Qanunla təsdiq edilmişdir. Sazişə əsasən tərəflər mövcud neft və qaz nəqli sistem(lər)inin bərpası, müvafiq hallarda yeni dövlətlərarası neft və qaz nəqli sistem(lər)inin tikintisi və bu nəqletmə sistem(lər)inin əməliyyat və texniki xidməti vasitəsilə bir və ya daha çox dövlətlərarası neft və qaz nəqli sisteminin qarşılıqlı məqbul şərt və müddəaları əsasında yaradılması məqsədilə bu Saziş çərçivəsində birgə fəaliyyət həyata keçirirlər.

**“Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" 2003-cü il tarixli Çərçivə Konvensiyası:**

Bu Konvensiya 4 aprel 2006-cı il tarixli 89-IIIQ nömrəli Qanunla təsdiq edilmişdir. Konvensiyanın məqsədi Xəzər dənizinin dəniz ətraf mühitinin çirklənmədən qorunması, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması, mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsindən ibarətdir.

**“Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası”-nın Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında” 2011-ci il tarixli Protokolu:**

[10] Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, “Normativ hüquqi aktların vahid internet elektron bazası”, http://e-qanun.az, http://www.president.az/, http://www.meclis.gov.az/ və http://www.cabmin.gov.az/

Bu Protokol 21 dekabr 2012-ci il tarixli 508-IVQ nömrəli Qanunla təsdiq edilmişdir. Bu Protokolun məqsədi Xəzər dənizini dəniz dibindəki fəaliyyətin və gəmilərin fəaliyyətinin səbəb olduğu neftlə çirklənmələrdən və torpaq əsaslı mənbələrdən törəyən dəniz neft çirklənmələrindən qorumaq məqsədi ilə hazırlıq, cavab tədbirləri və əməkdaşlıq üçün regional tədbirlər görməkdir.

**“Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyası”nın Xəzər dənizinin quruda yerləşən mənbələrdən və quruda həyata keçirilən fəaliyyət nəticəsində çirklənmədən mühafizəsi haqqında” 2012-ci il tarixli Protokolu:**

Bu Protokol 25 fevral 2014-cü il tarixli 911-IVQ nömrəli Qanunla təsdiq edilmişdir. Protokola əsasən, razılığa gələn tərəflər quruda yerləşən mənbələrdən və quruda həyata keçirilən fəaliyyət nəticəsində Xəzər dənizinin ətraf mühitini və sahilyanı ərazilərini çirklənmədən qorumaq, belə çirklənməyə nəzarət etmək, onu azaltmaq və mümkün olan maksimal həddə aradan qaldırmaq üçün Konvensiyanın müddəalarına əsasən fərdi və ya birgə bütün zəruri tədbirləri həyata keçirirlər. Tərəflər məlumat mübadiləsi aparacaq, ətraf mühitə təsirin qiymətləndirilməsi və monitorinqi istiqamətində birgə tədbirlər görəcəklər.

- **MƏCƏLLƏLƏR**

**28 dekabr 1999-cu il tarixli 779–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsi:**

Mülki Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir.

Eyni zamanda, Məcəllədə təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi və əlaqədar hüquqlar ilə bağlı münasibətlər mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr Mülki Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə (beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) birbaşa tətbiq edilir.

**11 iyul 2000-ci il tarixli 905–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsi:**

Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

Qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü və əsas boru kəməri haqqında, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda bu Məcəllədə və vergilər haqqında digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir.

**26 dekabr 1997-ci il tarixli 418–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Su Məcəlləsi:**

Su Məcəlləsi Azərbaycan Respublikasında su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı hüquq münasibətlərini tənzimləyir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində su obyektlərinin istifadəsi və mühafizəsi ilə əlaqədar müəyyən edilmiş qaydalar bu Məcəllədə nəzərdə tutulmuş qaydalara uyğun gəlmədikdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

**1 fevral 1999-cu il tarixli 618–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsi:**

Əmək Məcəlləsi müvafiq hüquq normaları ilə əmək münasibətlərində işçilərin və işəgötürənlərin əmək, sosial, iqtisadi hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatların minimum səviyyəsi və Azərbaycan Respublikası Konstitusiyasının ikinci bölməsində nəzərdə tutulan əmək, istirahət,

təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnun, habelə digər əsas insan hüquqlarının və azadlıqlarının təmin edilməsi prinsipləri və qaydalarını təsbit edir.

**25 iyun 1999–cu il tarixli 695–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsi:**

Torpaq Məcəlləsi Azərbaycan Respublikasında torpaq üzərində mülkiyyətin müxtəlif növlərinin tətbiqi əsasında yaranan torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılmasına, torpağın münbitliyinin bərpasına və artırılmasına, texnogen çirklənmə və dağılmadan korlanmış torpaqların rekultivasiyasına, təbii mühitin qorunub saxlanmasına və yaxşılaşdırılmasına yönəlmişdir.

- **QANUNLAR**

**30 may 1996-cı il tarixli 94-IQ nömrəli "Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu:**

Bu Qanun enerji resurslarından istifadə sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və sosial əsaslarını, habelə onun həyata keçirilmə mexanizminin əsas istiqamətlərini müəyyən edir, bu sahədə dövlət ilə hüquqi və fiziki şəxslər arasında münasibətləri tənzimləyir.

**02 fevral 2009-cu il tarixli 766–IIIQ nömrəli "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikasının Qanunu:**

Bu Qanun Azərbaycan Respublikasının hüdudlarından, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsindən kənarda həyata keçirilən neft-qaz əməliyyatları ilə əlaqədar Azərbaycan Respublikasında ixrac məqsədli neft-qaz fəaliyyəti üçün xüsusi iqtisadi rejimin yaradılmasının və tətbiqinin əsaslarını müəyyən edir, bu sahədə dövlət, hüquqi və fiziki şəxslər arasında yaranan münasibətləri tənzimləyir.

**30 iyun 1998-ci il tarixli 513-IQ nömrəli "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu:**

Bu Qanun qaz və maye halında enerji daşıyıcısı kimi işlədilən təbii qazın və digər qaz növlərinin istehsalı, emalı, nəqli, saxlanması, paylanması, satılması və istifadəsi üzrə fəaliyyətləri tənzimləyir.

**13 fevral 1998-ci il tarixli 439-IQ nömrəli "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu:**

Bu Qanun Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətləri tənzimləyir, yerin təkindən istifadədə dövlətin, yer təki istifadəçilərinin və vətəndaşların mənafelərinin qorunmasını təmin edir.

**10 iyun 2005-ci il tarixli 924–IIQ nömrəli "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu:**

Bu Qanun qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi ilə bağlı münasibətləri tənzimləyir.

**24 noyabr 1998-ci il tarixli Energetika haqqında Azərbaycan Respublikasının Qanunu:**

Bu Qanun energetikanın neft, qaz və elektroenergetika sahələrinin dövlət tənzimlənməsinin ən ümumi hüquqi əsaslarını özündə birləşdirir. Ayrı-ayrı sahələr üzrə qəbul edilmiş digər qanunlarda xüsusi qaydalar nəzərdə tutula bilər.

**2 noyabr 1999-ci il tarixli Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu:**

Bu qanun təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının hüquqi, iqtisadi və sosial əsaslarını müəyyənləşdirir, həmin obyektləri istismar edən hüquqi və fiziki şəxslərin bu obyektlərdə baş verə biləcək qəzaların qarşısını almağa və baş vermiş qəzaların nəticələrini aradan qaldırmağa yönələn fəaliyyətini tənzimləyir.

- **FƏRMANLAR:**

**"Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları" barəsində Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1994-cü il tarixli 206 nömrəli Fərmanı**

Bu fərmanla qərara alınmışdır:

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin məruzəsi və Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, ”Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə “Amoko Kaspian Si Petroleum Ltd.”, “Bi-Pi Eksploreyşn (Kaspian) Ltd.”, “Den Norske Stats Olyeselskap a. s”, “Lukoyl” Səhmdar Cəmiyyəti, “Mak-Dermot Azərbaycan, İNK”, “Pennzoyl Kaspian Korporeyşn”, “Remko Xəzər Enerji ltd”, “Türkiyə Petrolleri a. o.”, “Yunokal Xəzər Ltd.” şirkətləri arasında Sazişin layihəsi bəyənilsin.
2. Dövlət Neft Şirkətinin Prezidenti Natiq Əliyevə tapşırılsın ki, Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə “Amoko Kaspian Si Petroleum ltd”, “Bi-Pi Eksploreyşn (Kaspian Si) Ltd.”, “Den Norske Stats Olyeselskap a. s”, “LUKoyl” Səhmdar Cəmiyyəti, “MakDermott Azərbaycan İnk”, “Pennzoyl Kaspian Korporeyşn”, “Remko Xəzər Enerji Ltd.”, “Türkiyə Petrolleri a. o.”, “Yunokal Xəzər Ltd.” şirkətləri arasında Sazişi imzalasın.

**"Yerin təki haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13 fevral aprel 1999-cu il tarixli 102 nömrəli Fərmanı:**

Bu fərmanla “İstifadəyə verilən yer təki sahələri haqqında geoloji informasiyanın və faydalı qazıntı ehtiyatlarının dövlət ekspertizasının keçirilməsi Qaydaları” təsdiq edilmişdir.

**"Faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması Qaydaları”-nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 6 mart 2000-ci il tarixli 293 nömrəli Fərmanı:**

Bu Qaydalar “Yerin təki haqqında» Azərbaycan Respublikasının Qanununa və ««Yerin təki haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli 701 nömrəli Fərmanına müvafiq olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün), ona mənsub olan bölməsi daxilində sənaye əhəmiyyətli yataqlar üzrə faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması qaydasını müəyyən edir.

**“İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi” haqqında Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2002-ci il tarixli 685 nömrəli Fərmanı:**

Fərmanla xam neftin ixracı ilə bağlı obyektlərlə yanaşı Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin və qaz ixrac kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə ixrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi üzrə Komissiya yaradılmışdır.

**"Yerin təkindən istifadənin dövlət tənzimlənməsi” barədə Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2003-cü il tarixli 975 nömrəli Fərmanı:**

Bu Əsasnamə "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin “Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 27 aprel tarixli 701 nömrəli və "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 1999-cu il 13 fevral tarixli 102 nömrəli fərmanlarına uyğun olaraq hazırlanmışdır və yer təkinin istifadəyə verilməsi üzrə müsabiqə və hərracların keçirilməsi qaydalarını və şərtlərini müəyyən edir.

**“Faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi Qaydalarının təsdiq edilməsi” haqqında Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2003-cü il tarixli 973 nömrəli Fərmanı:**

Bu Qaydalar "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa və "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli 701 nömrəli Fərmanına müvafiq olaraq hazırlanmışdır və faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və çıxarılmış faydalı qazıntı ehtiyatlarının, habelə çıxarılma prosesində sənaye əhəmiyyətini itirmiş, sonrakı geoloji öyrənilmə işləri və ya yataqların istismarı zamanı təsdiq olunmayan ehtiyatların faydalı qazıntı ehtiyatlarının dövlət balansında müvafiq dəyişiklik edilməklə, istismar işlərini aparan subyektin hesabından silinməsi qaydalarını müəyyən edir.

**"Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"-nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli 128 nömrəli Fərmanı:**

Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya 2005-2025-ci illəri əhatə edir və bu müddət ərzində həmin gəlirlərdən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir. Bu strategiya aşağıda göstərilən mənbələrə uyğun olaraq neftin və qazın satışından Azərbaycan Respublikasının Dövlət Neft Fondunda və dövlət büdcəsində toplanan gəlirlərin idarə edilməsini nəzərdə tutur.

**“Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixli Fərmanı:**

Fərmana əsasən, beynəlxalq şəffaflıq və hesabatlılıq prinsiplərinə Azərbaycanın sadiqliyi vurğulanaraq, təbii ehtiyatlardan əldə olunan maddi sərvətlərin ölkə vətəndaşların rifahı üçün idarə edilməsinin davam etdirilməsi üçün Komissiya yaradılmışdır.

**“Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsində dövlətə məxsus payların idarə edilməsinin təkmilləşdirilməsi tədbirləri barədə” Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2011-ci il tarixli Sərəncamı:**

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsində iştirak edən "Azərbaycan BTC Limited" Şirkətinin Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyində saxlanılan dövlətə məxsus olan payları üzərində sahiblik hüququ Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə verilsin.

- **AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARLARI:**

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 02 noyabr 2004-cü il tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş “İstismar olunan ixrac neft boru kəmərlərinin “Mühafizə Zonası”nın müəyyənləşdirilməsi Qaydaları”:**

Bu Qaydalar Azərbaycan Respublikasının ərazisində Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərləri istisna olmaqla, istismar olunan neft ixrac boru kəmərlərinin qorunması, onların təhlükəsiz və etibarlı istismarı üçün normal şəraitin yaradılması və baş verə biləcək hadisələrin qarşısının alınması məqsədilə hazırlanmışdır.

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 may 2006-cı il tarixli 121 nömrəli qərarı ilə təsdiq edilmiş “Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi halları və Qaydaları”:**

Bu Qaydalar “Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının 1.17-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi hallarını və qaydalarını müəyyən edir.

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 may 2006-cı il tarixli 123 nömrəli qərarı ilə təsdiq edilmiş “Qiymətli metalların və qiymətli daşların nadir kateqoriyaya aid olunması Qaydaları və meyarları”:**

Bu Qaydalar “Qiymətli metallar və qiymətli daşlar haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanına əsasən hazırlanmışdır və qiymətli metalların və qiymətli daşların nadir kateqoriyaya aid olunmasının qaydalarını və meyarlarını müəyyən edir.

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 noyabr 2007-ci il tarixli 173 nömrəli qərarı ilə təsdiq edilmiş “Hüquqi şəxslərdə, o cümlədən hərbi hissələrdə və hərbi qurumlarda**

**qiymətli metalların və qiymətli daşların qırıntıları və tullantıları yarandıqda, həmin qırıntıların və tullantıların mütləq yığılması və onların uçotunun aparılması Qaydaları":**

Bu Qaydalar "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanına əsasən hazırlanmışdır və hüquqi şəxslərdə, o cümlədən hərbi hissələrdə və hərbi qurumlarda qiymətli metalların və qiymətli daşların qırıntıları və tullantıları yarandıqda, həmin qırıntıların və tullantıların mütləq yığılması və onların uçotunun aparılması qaydalarını, daşların nadir kateqoriyaya aid olunmasının qaydalarını və meyarlarını müəyyən edir.

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 noyabr 2007-ci il tarixli 174 nömrəli qərarı ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları":**

Bu Qaydalar "Qiymətli metallar və qiymətli daşlar haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanına əsasən hazırlanmışdır və qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi qaydalarını müəyyən edir.

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 dekabr 2007-ci il tarixli 197 nömrəli qərarı ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi zamanı onların kəmiyyətinin, keyfiyyətinin uçotunun və hesabatının aparılması Qaydası":**

Bu Qayda "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının 1.20-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi zamanı onların kəmiyyətinin, keyfiyyətinin uçotunun və hesabatının aparılması qaydasını müəyyən edir.

***E-qanun portalı*** [11]

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının bütün hüquqi və normativ aktlarının əldə edilməsini təmin etmək məqsədilə hüquqi sistemə dair internet portalını yaratmışdır. Mövcud portal hasilat sənayesinə dair bütün qanunvericilik məlumatlarını özündə əks etdirir. Portala daxil edilmiş bütün hüquqi və normativ aktlar mütəmadi olaraq yenilənir. E-qanun portalı lazımi qanunvericilik məlumatlarının əldə edilməsi məqsədilə ictimaiyyət üçün açıqdır.

### 2.2.2 Fiskal rejim

Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını Vergi Məcəlləsi müəyyən edir.

Hasilatın pay bölgüsü sazişləri (HPBS), habelə əsas boru kəməri sazişləri Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir. Bu sazişlər yataqlarda fəaliyyət göstərən əməliyyat şirkətlərinin, podratçı tərəflərin və bunların subpodratçılarının fəaliyyətlərini, mühasibatlıq və vergi rejimini tənzimləyir.

[11] Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, "Normativ hüquqi aktların vahid internet elektron bazası", http://www.e-qanun.az/

Vergi Məcəlləsi ilə hasilatın pay bölgüsü və əsas boru kəməri haqqında, digər bu qəbildən olan saziş və qanunlarla, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft–qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlar arasında vergilərə dair fərqli müddəalar müəyyən edildikdə, həmin saziş və qanunların müddəaları üstün götürülür.

İxrac olunan neftin və təbii qazın nəql edilməsi ilə bağlı fəaliyyətləri, münasibətləri və vergi rejimi qanun qüvvəsinə malik Əsas İxrac Boru Kəməri (Bakı–Tbilisi–Ceyhan), Qərb İxrac Boru Kəməri (Bakı-Supsa) və Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) sazişləri ilə tənzimlənir. Bu sazişlərlə fəaliyyət göstərən əməliyyat şirkətlərinin, ƏİBK iştirakçılarının və onların podratçılarının fəaliyyətləri, mühasibatlıq və vergi rejimi ilə tənzimlənir.

Azərbaycan Respublikası Vergi Məcəlləsi Azərbaycanda mövcud olan ümumi vergi sistemini təşkil edərək əsasən aşağıdakı vergi növlərini tənzimləyir:

- Mənfəət vergisi;
- Əmlak vergisi;
- Mədən vergisi;
- Aksiz vergisi;
- Sadələşdirilmiş vergi;
- Əlavə dəyər vergisi;
- Gəlir vergisi;
- Torpaq vergisi; və
- Yol vergisi.

Azərbaycan Respublikası Vergi Məcəlləsinə istinadən sadalanan vergi növlərinin əsasən aşağıdakı dərəcələri və hesablamaları mövcuddur:[12]

<table>
<tr><td rowspan="4">Gəlir vergisi</td><td rowspan="2">Aylıq gəlir</td><td colspan="2">< 2,500 AZN</td><td colspan="2">14%</td></tr>
<tr><td colspan="2">> 2,500 AZN</td><td colspan="2">350 AZN + 2,500 AZN-dən çox olan məbləğin 25%-i</td></tr>
<tr><td rowspan="2">İllik gəlir</td><td colspan="2">< 30,000 AZN</td><td colspan="2">14%</td></tr>
<tr><td colspan="2">> 30,000 AZN</td><td colspan="2">4,200 AZN + 30,000 AZN-dən çox olan məbləğin 25%-i</td></tr>
<tr><td>Əmlak vergisi</td><td colspan="5">Müəssisələr əsas vəsaitlərin dəyərindən 1 faiz dərəcəsi ilə əmlak vergisi ödəyirlər.</td></tr>
<tr><td rowspan="3">Mədən vergisi</td><td>Xam neft</td><td colspan="4">26%</td></tr>
<tr><td>Təbii qaz</td><td colspan="4">20%</td></tr>
<tr><td>Bütün növ metallar</td><td colspan="4">3%</td></tr>
<tr><td rowspan="3">Torpaq vergisi</td><td></td><td colspan="2">Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla)</td><td colspan="2">Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla)</td></tr>
<tr><td></td><td>10 000 $m^2$-dək</td><td>10 000 $m^2$-dən yuxarı</td><td>10 000 $m^2$-dək</td><td>10 000 $m^2$-dən yuxarı</td></tr>
<tr><td>Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri</td><td>10</td><td>20</td><td>0,6</td><td>1,2</td></tr>
</table>

[12] Vergilər nazirliyi rəsmi internet sehifəsi, http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=3

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndləri** | 8 | 16 | 0,5 | 1,0 |
| | **Digər şəhərlər və rayon mərkəzləri** | 4 | 8 | 0,3 | 0,6 |
| | **Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər** | 2 | 4 | 0,1 | 0,2 |
| **Sadələşdirilmiş vergi** | **Bakı şəhəri üzrə** | 4% | | | |
| | **Digər şəhər və rayonlarda, Naxçıvan Muxtar Respublikasında** | 2% | | | |
| **Mənfəət vergisi** | Müəssisələrin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur. | | | | |
| **ƏDV** | Hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir. | | | | |

Həmin vergi növləri üzrə daha detallı faiz dərəcələrini, onların hesablanmasını, ödəniş müddətlərini və digər məlumatları Azərbaycan Respublikası Vergi Məcəlləsindən əldə edilməsi mümkündür. [13]

Azərbaycan Respublikasında qanunla təsdiq olunmuş formada HPBS üzrə fəaliyyət göstərən müəssisə və şirkətlər üçün xüsusi vergi rejimi tətbiq edilir. SOCAR ilə bir sıra transmilli şirkətlər arasında HPBS-lər, habelə onların əsasında tərtib olunan və vergitutmanın müəyyən aspektlərini dəqiqləşdirən protokolları aşağıdakılar əhatə edir:

- Mənfəət vergisi haqqında protokol;
- Əlavə dəyər vergisi haqqında protokol;
- Xarici subpodratçıların vergiyə cəlb edilməsi haqqında protokol;
- Əməkdaşlar və fiziki şəxslərin vergiyə cəlb edilməsi haqqında protokol; və
- İdxal və ixrac vergiləri haqqında protokol.

Əsas İxrac Boru Kəməri Bakı–Tbilisi–Ceyhan (BTC), Qərb İxrac Boru Kəməri (Bakı-Supsa), və Cənubi Qafqaz Boru Kəməri (CQBK) sazişləri əsasında işləyən müəssisələr üçün xüsusi vergi rejimləri tətbiq edilir.

### 2.2.3 Dövlət büdcəsinin strukturu

***Dövlət büdcəsi*** - müvafiq hakimiyyət orqanları vasitəsi ilə dövlətə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi formasıdır. Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitlərinin toplanması və səmərəli istifadəsinin təmin edilməsi, iqtisadi, sosial və digər strateji məsələlərin həll edilməsindən ibarətdir.[14]

Dövlət büdcəsi layihəsinin tərtibi prosesinə növbəti büdcə ilinə 11 ay qalmış başlanılır və büdcə layihəsinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi günədək olan dövrü əhatə edir.

[13] Azərbaycan Respublikası Vergilər Nazirliyi, "Vergi Məcəlləsi", http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=3
[14] "Dövlət büdcəsi haqqında Azərbaycan Respublikasnın Qanunu", № 358-IQ, http://e-qanun.az/framework/1126

***Təsvir 2a:** Azərbaycan Respublikasının dövlət büdcəsinin strukturu*:[15]




- Dövlət büdcəsinin gəlirləri;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiəsi Fondunun büdcəsinin gəlirləri;
- Dövlət Neft Fondunu büdcəsinin gəlirləri;
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri.

- Dövlət büdcəsinin xərcləri;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi; yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri;
- Dövlət Neft Fondunun büdcəsinin xərcləri;
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri;
- Xarici kreditlər hesabına maliyyələşən layihələr üzrə xərclər.

- Xarici kreditlər;
- Özəlləşmədən daxilolmalar;
- Xarici qrantlar;
- Digər mənbələr hesabına (daxili və xarici borclanma, dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı).

***Təsvir 2b:** Azərbaycan Respublikasının dövlət büdcəsinin strukturu*[16]:




[15] Azərbaycan Respublikasının Maliyyə Nazirliyi – "Vətəndaşın büdcə bələdçisi" kitabı (səh. 6) http://maliyye.gov.az/sites/default/files/Binder1.compressed.protected.pdf
[16] Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, "Vətəndaşın büdcə bələdçisi" kitabı, http://maliyye.gov.az/sites/default/files/Binder1.compressed.protected.pdf

***İcmal büdcə*** - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədidir. [17]

***Təsvir 3:*** *Azərbaycan Respublikasının İcmal büdcəsinin strukturu*: [18]




Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarına əsasən yaradılmışdır.

Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini həyata keçirmək, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcə bələdiyyələrinin maliyyə vəsaitinin formalaşması 7 dekabr 1999-cu il tarixli 772-IQ saylı “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” qanunla tənzimlənir.

[17] “Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu”, № 452-IIQD, http://www.e-qanun.az/framework/2052
[18] Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, “Vətəndaşın büdcə bələdçisi” kitabı, http://maliyye.gov.az/sites/default/files/Binder1.compressed.protected.pdf

Yerli büdcənin gəlirləri aşağıda qeyd olunan vergilər vasitəsi ilə formalaşır:

- fiziki şəxslərdən torpaq vergisi;
- fiziki şəxslərdən əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;
- digər vergilər.

Yerli büdcə gəlirlərini formalaşdıran digər mənbələr haqqında məlumatı 772-IQ saylı "Bələdiyyələrin maliyyə əsasları haqqında" qanundan əldə etmək mümkündür.[19]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında neft, qaz və digər mineral ehtiyatların hasilatından əldə edilən gəlir bu yataqların yerləşdiyi ərazinin yerli-idarəetmə qurumlarının büdcələrinə birbaşa daxil olmur.

***Təsvir 4:*** *Hasilat sənayesi və Dövlət büdcəsi əlaqələri* [20]




*Yerli və xarici şirkətlər dedikdə HPBS podratçısı olan və bütün digər şirkətlər nəzərdə tutulur.

[19] "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasinin Qanunu", http://e-qanun.az/framework/5231
[20] Təsvir 4 Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya tərəfindən təqdim edilmişdir

### 2.2.4 Müvafiq dövlət orqanlarının rolu və vəzifələri

Azərbaycan Respublikasının dövlət orqanlarının rolu və vəzifələri aşağıda təsvir edilmişdir:

#### *Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycan Respublikasında bütün icra hakimiyyəti səlahiyyətləri Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. İcra hakimiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarından ibarət olub, əsas funksiyası qanunların icrasının həyata keçirilməsidir. Bu sistem geniş hüquqlara malikdir və dövlət qulluqçularının mühüm çoxluğunu əhatə edir.

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsi ilə tənzimlənir. [21]

#### *Azərbaycan Respublikasının Milli Məclisi*

Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyətini həyata keçirən orqandır. Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri, qanunları, o cümlədən HPBS–ləri Azərbaycan Respublikasının Milli Məclisi təsdiq (ratifikasiya) edir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının Üçüncü bölməsinin V fəslində təsvir edilmiş Qanunvericilik hakimiyyəti maddələri vasitəsi ilə tənzimlənir. [22]

#### *Azərbaycan Respublikası Nazirlər Kabineti*

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrası məqsədilə yaradılan, birbaşa Prezidentə tabe olaraq, onun qarşısında cavabdeh olan yuxarı icra orqanıdır. Nazirlər Kabineti səlahiyyətlərinə dövlət büdcəsi layihəsinin hazırlanması və prezidentə təqdim edilməsinin, onun icrasının, maliyyə-kredit və pul siyasətlərinin, dövlət və sosial təminat proqramlarının həyata keçirilməsinin təmin edilməsi daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasının 119-cu maddəsi ilə tənzimlənir. [23]

#### *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi*

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 senyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [24]

Qurumun əsas vəzifələrindən biri təbii sərvətlərin öyrənilməsi, onlardan istifadə edilməsi, bərpası və mühafizəsi, bu sahədə ekoloji təhlükəsizliyin təmin edilməsi və bioloji müxtəlifliyin qorunub saxlanılması üzrə dövlət siyasətini həyata keçirməkdən ibarətdir. Daha ətraflı məlumat hesabatın 3.1 “Mədən sənayesinin icmalı” adlı bəndində öz əksini tapmışdır.

[21] Azərbaycan Respublikasının Konstitusiyası, “Maddə 109”, http://www.e-qanun.az/framework/897
[22] Azərbaycan Respublikasının Konstitusiyası, “Maddə 81-98”, http://www.e-qanun.az/framework/897
[23] Azərbaycan Respublikasının Konstitusiyası, “Maddə 119”, http://www.e-qanun.az/framework/897
[24] “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər haqqında Əsasnamə”, http://eco.gov.az/az/6-haqqimizda

### *Azərbaycan Respublikası Energetika Nazirliyi*

Azərbaycan Respublikası Energetika Nazirliyi yanacaq-energetika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Bu sahə Energetika haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş fəaliyyətdən ibarətdir.

Energetika Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [25]

Azərbaycan Respublikası Energetika Nazirliyinin Əsasnaməsinə görə karbohidrogen ehtiyatları hasilatının pay bölgüsü və ya digər şərtlərə uyğun işlənməsi barədə sazişlərin layihələrini hazırlayır, bu sazişlər üzrə danışıqlar aparır, onları müəyyən olunmuş qaydada imzalayır, bağlanmış sazişlərin həyata keçirilməsinə nəzarət edir.

### *Azərbaycan Respublikası Maliyyə Nazirliyi*

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ölkənin maliyyə siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Maliyyə Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [26]

### *Azərbaycan Respublikası Vergilər Nazirliyi*

Vergilər Nazirliyi Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən, bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Hasilatın Pay Bölgüsü Haqqında Sazişlərə əsasən fəaliyyət göstərən yerli subpodratçı təşkilatların vergi öhdəlikləri Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə tənzimlənir.

Vergilər Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [27]

### *Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*

Azərbaycan Respublikasının iqtisadi siyasətini, iqtisadi və sosial proqnozlarını işləyib hazırlayan, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən sənayenin inkişafı, ölkə iqtisadiyyatında struktur və innovasiya, investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi, rəqabətin qorunması, inkişafı və təşviqi, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması, daxili ticarət, xarici iqtisadi və ticarət əlaqələri, regionların sosial-iqtisadi inkişafı və mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

### *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu məcburi dövlət sosial sığortası, əhalinin əmək pensiyaları, sosial müavinətlər, təqaüdlər, kompensasiyalar və sosial yardımlarla təmin edilməsi, ahılların, əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasını, çətin həyat şəraitində olan şəxslərə sosial xidmət sahəsində tədbirləri həyata keçirən icra hakimiyyəti orqanıdır.

[25] "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə", http://www.minenergy.gov.az/db/EN_Esasname.pdf
[26] "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə", http://www.maliyye.gov.az/node/8
[27] "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə", http://www.taxes.gov.az/modul.php?name=qanun&news=369

Dövlət Sosial Müdafiə Fondu öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [28]

***Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi***

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi statistika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən və ölkədə sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyət ilə bağlı rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdıran mərkəzi icra hakimiyyəti orqanıdır. Bu sahə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş fəaliyyətdən ibarətdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi hasilat sənayesi şirkətlərindən müəyyən edilmiş qaydada, həcmdə və müddətlərdə dolğun və etibarlı statistik məlumatları alır və onları ümumiləşdirərək icmal-statistik məlumatları ictimaiyyətə açıqlayır.

***Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)***

SOCAR Azərbaycan ərazisindəki neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neftin, qazın və qaz kondensatının hasilatı, emalı və nəqli, neft və neft-kimya məhsullarının, qazın daxili və xarici bazarlarda satışı, habelə ölkə ərazisində sənayenin və əhalinin təbii qazla təchizatı ilə məşğul olur. Daha ətraflı məlumat hesabatın 2.6 "Hasilat sənayesində dövlətin iştirakı" adlı bəndində öz əksini tapmışdır.

SOCAR öz fəaliyyətini 18 sentyabr 2004-cü il tarixli 127 nömrəli Fərmana əsasən dəyişikliklərlə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnaməsinə uyğun olaraq həyata keçirir. [29]

***Azərbaycan Respublikası Dövlət Neft Fondu***

Azərbaycan Respublikası Dövlət Neft Fondu ("ARDNF") Azərbaycan Respublikası vətəndaşlarının bu günkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişləri həyata keçirən və Fondun öz fəaliyyətindən əldə olunan valyuta və digər vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin edən dövlət təsisatıdır. ARDNF, büdcədənkənar fond kimi təsis edilmiş, Hökumət və ya Azərbaycan Respublikası Mərkəzi Bankından ayrıca idarəetmə strukturuna malik hüquqi şəxs qismində fəaliyyət göstərir. Daha ətraflı məlumat hesabatın 4.5 "Dövlət təşkilatlarına aid olan əməliyyatlar" adlı bəndində öz əksini tapmışdır.

ARDNF öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [30]

Aşağıdakı təsvirdə Azərbaycan Respublikasının dövlət qurumları ilə hasilat sənayesi şirkətləri arasındakı münasibətlərin strukturu göstərilmişdir.

[28] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə http://president.az/articles/20454
[29] "SOCAR-ın Nizamnaməsi", http://socar.az/socar/az/company/regulations/socar-charter
[30] "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə", http://www.oilfund.az/uploads/esas.pdf

***Təsvir 5**: Hasilat sənayesi şirkətləri ilə dövlət qurumları arasında əlaqə*




Hasilat şirkətləri Azərbaycan Respublikasının payını HPBS–ə uyğun olaraq məhsul şəklində neft, təbii və səmt qaz, dövləti təmsil edən SOCAR-a təhvil verir. SOCAR öz növbəsində neftin və qazın satışını həyata keçirir və əldə edilmiş gəlirlər Neft Fonduna köçürülür.

Dövlət büdcəsinə vergilərin və digər daxilolmaların yığılmasını təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır. Şirkətlər tərəfindən dövlət büdcəsinə mənfəət, mədən, əmlak, torpaq vergiləri, ƏDV, qiymət fərqi üzrə yığımlar və sair vergilər ödənilir.

ARDNF-in əsas rolu tükənən təbii sərvətlərdən əldə olunan gəlirlərin toplanmasından ibarətdir. Neft və qaz hasilatı üzrə gəlirlər, bonuslar, tranzit haqları, akrhesabı ödənişləri ARDNF-in hesabına köçürülür.

Təbii sərvətlərin öyrənilməsi, onlardan istifadə edilməsi, bərpası və mühafizəsini təmin edilməsindən ibarətdir.

Hasilat sənayesi ilə birbaşa əlaqəsi olan digər dövlət qurumları Hasilat sənayesi şirkətlərinin qanunvericiliklə müəyyən olunmuş şəkildə fəaliyyətinə nəzarət edir.

### 2.2.5 Hasilat sənayesi üzrə əsas fəaliyyətlər

HSŞ hesabatının əhatə etdiyi ildə Azərbaycanın hasilat sənayesinə dair bir sıra yeniliklər tətbiq edilmişdir:

14 senytabr 2017-ci ildə Azərbaycan hökuməti və tərəfdaşlar Azəri, Çıraq və dərinsulu Günəşli üzrə dəyişdirilmiş və yenidən işlənmiş hasilatın pay bölgüsü sazişini imzalanmışdır.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə "BP", "Chevron", "İNPEX", "Statoil", "ExxonMobil", "TP", "İTOCHU" və "ONGC Videsh" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalanmışdır.

Saziş Bakıda Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin və bir qrup yüksək səviyyəli xarici hökumət və dövlət rəsmilərinin iştirak etdiyi tədbirdə Azərbaycan hökuməti adından SOCAR-ın prezidenti Rövnəq Abdullayev və tərəfdaş şirkətlərin nümayəndələri tərəfindən imzalanmışdır.

"Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiye Petrolleri A.O. arasında 2017-ci il sentyabrın 14-də imzalanmış Saziş Azərbaycan Respublikası Milli Məclisinin 31 oktyabr 2017-ci il tarixli 818-VQ nömrəli Qanunu ilə qəbul və təsdiq edilmiş, onun həyata keçirilməsinə icazə verilmişdir.

Hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişə əsasən BP layihənin operatorudur.

Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65%-dən 25%-ə qaldırılacaq və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard ABŞ dolları bonus ödəyəcəklər. Növbəti 32 il müddətində AÇG-yə 40 milyard ABŞ dollarından artıq sərmayə qoyulması potensialı var.

Saziş təsdiqləndikdən sonra AÇG-də tərəfdaşların yeni iştirak payları bu nisbətdə olacaq:

BP- 30,37%; AzACG (SOCAR)- 25,00%; Chevron- 9,57%; INPEX- 9,31%; Statoil- 7,27%; ExxonMobil- 6,79%; TP- 5,73%; ITOCHU- 3,65% və ONGC Videsh Limited (OVL)- 2,31%.

Bu sazişin ardınca, SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirməsi məqsədi ilə mühəndis-layihə işlərinin irəli aparılması haqqında razılaşma əldə olunmuşdur.

17 aprel 2017-ci ildə Yeni bitum qurğusunun tikintisi ilə əlaqədar müqavilə imzalanmışdır.

Heydər Əliyev adına Neft Emalı Zavodunda "Azfen" şirkəti ilə yeni bitum istehsalı qurğusunda tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə dair müqavilə imzalamışlar.

Qeyd edək ki, H. Əliyev adına NEZ-də aparılan yenidənqurma tədbirlərinin ilkin mərhələsi çərçivəsində inşa ediləcək yeni bitum qurğusunun illik istehsal gücü 400 min ton olacaq və qurğuda "EN 40/60" markalı yüksək keyfiyyətli yol bitumu istehsal olunacaqdır. Qurğunun 2018-ci ilin ikinci yarısında istismara verilməsi nəzərdə tutulur. Bununla da keçmiş "Azərneftyağ" neft emalı zavodunun tamamilə istismardan çıxarılması və dənizkənarı ərazilərin boşaldılaraq "Ağ şəhər" layihəsinə təhvil verilməsi təmin ediləcək, zavodun istismar xərcləri optimallaşdırılacaq, nəticədə Bakı şəhərində ekoloji durumunun yaxşılaşdırılmasına və ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verəcəkdir.

15 may 2017-ci ildə Pekində "SOCAR GPC" layihəsinə dair mühüm sənədlər imzalanmışdır.

Mayın 14-də Pekində işə başlamış "Bir kəmər- bir yol" strategiyası çərçivəsində beynəlxalq forumda Azərbaycanın nümayəndə heyəti də iştirak etmişdir. Forum çərçivəsində "SOCAR GPC" layihəsinə dair Anlaşma Memorandumu imzalanmışdır.

Mayın 15-də isə Pekində "Bir kəmər - bir yol" forumu çərçivəsində SOCAR, CNPC və "Technip" şirkətləri arasında "SOCAR GPC" layihəsinə dair "Qaz Emalı Zavodu və Polietilen Neft-kimya Kompleksi ilə əlaqədar İlkin Detallı Layihələndirmə" üzrə Xidmət Müqaviləsi imzalanmışdır. Bu müqavilə "SOCAR GPC" layihəsi üçün İlkin Detallı Layihələndirmə işlərinin icrası istiqamətində HQC (CNPC şirkətinin törəməsi) və "Technip Italy" şirkətlərinin göstərəcəyi xidmətləri tənzimləyəcək. İmzalanma mərasimində SOCAR və CNPC şirkətlərinin prezidentləri iştirak etmişlər.

"SOCAR GPC" layihəsi Azərbaycanda hasil edilən təbii qaz və qaz-kondensat xammalının emalını, təbii qazın tərkibində qaz kimya istehsalı üçün yararlı olan ağır fraksiyaların (C2+) polimerləşməsini və yüksək əlavə dəyər yaradan qaz-kimya məhsullarının istehsalını nəzərdə tutur.

20 dekabr 2017-ci ildə SOCAR və "Statoil" şirkətləri perspektivli əməkdaşlığın əsas prinsipləri haqqında müqavilələr imzalamışlar.

SOCAR və "Statoil" şirkəti arasında perspektivli tərəfaşlığın əsas müddəaları haqqında iki müqavilə imzalanmışdır. İmzalanan sənədlər Xəzər dənizinin Azərbaycan sektorunda bəzi perspektivli sahələrin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin əsas kommersiya prinsipləri və müddəalarını, habelə "Qarabağ" neft yatağı üzrə risk xidmət sazişinin əsas kommersiya prinsipləri və müddəalarını əhatə edir.

31 oktyabr 2017-ci ildə "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiye Petrolleri A.O. arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu Qanunla:

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiye Petrolleri A.O. arasında 2017-ci il sentyabrın 14-də imzalanmış Saziş (bundan sonra - Saziş) qəbul və təsdiq edilmiş, onun həyata keçirilməsinə icazə verilmişdir;

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçı tərəflərə verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - Hökumət təminatı) qəbul edilmiş və onların həyata keçirilməsinə icazə verilmişdir;

3. Sazişin əsas mətninə edilmiş on beş (15) Əlavə (bundan sonra - Əlavələr) qəbul edilmiş və onların həyata keçirilməsinə icazə verilmişdir.

Qanunda həmçinin göstərilir ki, bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçı tərəflərin (və ya onların hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçı tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

2 may 2017-ci ildə "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "SOCAR Umid Oil and Gas Limited" şirkəti arasında Risk Xidmət Sazişinin və ona əlavə olunmuş "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi üzrə neft-qaz əməliyyatlarının aparılması haqqında" SOCAR Umid Oil and Gas Limited şirkəti ilə Umid, Babək Eksploreyşn end Prodakşn şirkəti arasında Müqavilənin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu Qanunla:

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə SOCAR Umid Oil and Gas Limited şirkəti arasında Risk Xidmət Sazişi (bundan sonra – Saziş) və ona əlavə olunmuş "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi üzrə neft-qaz əməliyyatlarının aparılması haqqında" SOCAR Umid Oil and Gas Limited şirkəti ilə Umid, Babək Eksploreyşn end Prodakşn şirkəti arasında Müqavilə (bundan sonra - Müqavilə) qəbul və təsdiq edilmiş, onların həyata keçirilməsinə icazə verilmişdir;

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 3 fevral tarixli 26 nömrəli qərarı ilə Sazişə verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - Hökumət təminatı) qəbul edilmiş və onların həyata keçirilməsinə icazə verilmişdir;

3. Sazişin əsas mətninə edilmiş 5 (beş) və Müqavilənin əsas mətninə edilmiş 9 (doqquz) Əlavə (bundan sonra - Əlavələr) qəbul edilmiş və onların həyata keçirilməsinə icazə verilmişdir.

Qanunda həmçinin göstərilir ki, bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Müqavilə, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə və Müqavilədə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Müqavilə, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Müqaviləyə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə və Müqavilədə nəzərdə tutulan müqavilə sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, müqavilə və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Müqavilənin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin və Müqavilənin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişin və Müqavilənin tərəflərinin (və ya onun hüquq varislərinin) Saziş, Müqavilə, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər həmin tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz. Sazişdən və Müqavilədən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin və Müqavilənin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir. Sazişə, Müqaviləyə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin, Müqavilənin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

## 2.3 Hasilat sənayesində lisenziyaların verilməsi

Azərbaycan Respublikasında hasilatın pay bölgüsü sazişlərinin ("HPBS") əhatə etdiyi məsələləri tənzimləyən Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında qanun mövcud deyil və potensial investorun seçim meyarları qanunvericilikdə nəzərdə tutulmamışdır.

Mövcud təcrübəyə əsasən karbohidrogen ehtiyatlarının işlənməsi layihələrində potensial investorun seçimi xüsusi olaraq səlahiyyətlər verilmiş dövlət orqanı və belə investor arasında birbaşa danışıqlar vasitəsilə keçirilir. Buna baxmayaraq, beynəlxalq təcrübədə geniş istifadə edilən digər formalar, o cümlədən tenderlərin keçirilməsi də istina edilmir. Azərbaycanda xarici partnyorlarla karbohidrogen ehtiyatlarının işlənməsi layihələri üçün HPBS forması seçilmişdir. HPBS praktikasının təməli 20 sentyabr 1994-cü il tarixində Azəri-Çıraq-Günəşli HPBS-nin imzalanması ilə qoyulmuşdur və həmin tarixdən 31 dekabr 2017-ci il tarixinədək neft və qaz ehtiyatları üzrə imzalanmış 31 sazişdən 2017- ci ildə 17-i aktivdir olmuşdur:

Mövcud HPBS təcrübəsi aşağıdakı prosedurlardan ibarətdir:

- Karbohidrogenlərin işlənməsi üzrə sazişlərin hazırlanması haqqında danışıqlar birbaşa hökuməti təmsil edən və hökumətin adından karbohidrogen ehtiyatları üzrə sərəncam hüququna malik olan SOCAR və maraqlı investorlar arasında kommersiya maraqları və mövcud qanunvericilik əsas götürülməklə aparılır;
- Bu danışıqlardan sonra ilkin razılıq olaraq, Niyyət Memorandumu (“NM”) imzalanır;
- SOCAR NM-nı təklifi münasib olan və məqbul sayılan tərəflə (xarici neft şirkəti ilə) birlikdə icra edir;
- NM imzalandıqdan sonra SOCAR HPBS ilə bağlı müvafiq şərtləri və perspektivləri ilə əlaqədar tərəflərlə danışıqlara başlayır;
- Ölkə başçısına HPBS üzrə danışıqlar aparmaq və onu imzalamaq haqqında SOCAR–a səlahiyyətlərin verilməsi haqqında müraciət edilir və Prezidentin müvafiq sərəncamı əsasında NM qüvvəyə minir;
- NM əsasında sonrakı əməkdaşlıq çərçivəsində tərəflərin hüquq və vəzifələri razılaşdırılır;
- HPBS–nin əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş imzalanır;
- Əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş əsasında HPBS layihəsi razılaşdırılır;
- İmzalanmış HPBS ratifikasiya üçün Milli Məclisə təqdim edilir.

Qüvvəyə minmə:

- Ratifikasiyadan sonra Azərbaycan Respublikasının Prezidenti HPBS-nin qüvvəyə minməsi ilə əlaqədar fərman imzalayır.
- Hökuməti təmsil edən və hökumət adından karbohidrogen ehtiyatları üzrə sərəncam hüququna malik olan SOCAR-ın podratçı şirkətlərinə göndərilən rəsmi məktubuna əsasən HPBS-nin qüvvəyə minmə tarixi təyin olunur. Həmin məktub prezidentin fərmanına əsasən hazırlanır.

Qeyd olunan proses quruda fəaliyyət göstərən HPBS-lər üçün də mövcuddur. SOCAR-ın və podratçı tərəflərin nümayəndələrindən ibarət Birgə Komissiya yaradılır. Həmin komissiyanın rəhbərliyi altında mədən üzrə bütün aktivlərin SOCAR-ın balansından yaradılacaq əməliyyat şirkətinin balansına təhvil-təslim prosesi 1 aydan 1 ilə kimi davam edir. Yaradılmış Komissiya HPBS-nin qüvvəyə minmə tarixini təyin edir.

## 2.4 Hasilat sənayesində lisenziyaların reyestri

“Lisenziyalar və icazələr haqqında Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 2016-cı il 16 sentyabr tarixli 347 nömrəli qərarı ilə “Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması Qaydası”-nı təsdiq etmişdir. Həmin Qaydaların 1.2-ci bəndinə əsasən lisenziyaların və icazələrin vahid reyestri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən aparılır və lisenziyaların və icazələrin reyestri açıq xarakter daşıyır. Belə ki, “Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması Qaydası”-nın 2.2-ci bəndinə əsasən reyestrdə olan məlumatlar informasiya alınması məqsədi ilə dövlət hakimiyyəti orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər üçün açıqdır.

Eyni zamanda, ölkə Prezidentinin 28 mart 2000-ci il tarixli 310 nömrəli fərmanına əsasən qiymətli daşların hasilatı, qızılın, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsullarının tullantılarının emalı dövlət müəssisələri və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlər tərəfindən həyata keçirilir.

Azərbaycan Hökuməti bu cür fəaliyyətlərin icrası ilə məşğul olmaq, təcrübəli və beynəlxalq səviyyədə tanınmış podratçıların cəlb olunmasına dair bütün hüquqlara malikdir, HPBS–ləri təsdiq edən qanunlarda podratçı tərəflərə saziş çərçivəsində (neft-qaz hasilatı və kəşfiyyatı daxil olmaqla) fəaliyyət göstərmək üçün tələb olunan bütün icazələrin və lisenziyaların, eləcə də lisenziya ilə bağlı məlumatların verilməsi açıq şəkildə ifadə olunur.

Azərbaycan Respublikasında HPBS-ya qoşulmuş aktiv şirkətlərin reyestri tərtib edilmişdir və açıq mənbədə dərc edilərək ictimaiyyətə təqdim olunmuşdur. [31]

Tərtib olunmuş reyestrdə müvafiq məlumatlar öz əksini tapmışdır:

- Sazişlərin tərəfləri;
- Sazişlərə əsasən əhatə olunan sahələrin koordinatları;
- Sazişlərin imzalanma tarixi və qüvvədə olma müddəti;
- Sazişlərə əsasən hasil olunan məhsul.

## 2.5 Müqavilələrin açıqlanması

Hökumət və podratçı arasında imzalanan HPBS-lər Azərbaycanda neft, qaz və faydalı qazıntıların işlənməsini tənzimləyir və bu HPBS-ləri Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minir. Bununla belə, Azərbaycan hökuməti və podratçılar bu HPBS-lər çərçivəsində kommersiya tərəfləri kimi çıxış edirlər. Azərbaycan hökuməti özünün və podratçıların bərabər hüquqlu kommersiya tərəfləri olmasını qəbul edir.

Bu sazişlər yataqlarda fəaliyyət göstərən əməliyyat şirkətlərinin, podratçı tərəflərin və onların subpodratçılarının fəaliyyətlərini, mühasibatlıq və vergi rejimini tənzimləyir.

HPBS-lərin açıqlanmasına dair Azərbaycan qanunvericiliyi heç bir tələb və ya məhdudiyyət qoymur. Lakin bu sazişlər tərəflərin qarşılıqlı razılığı ilə açıqlana bilər. Azərbaycan Respublikasının qanunlarına əsasən, məxfilik müddəasını pozaraq, kommersiya sirrini üçüncü tərəflərə açıqlayan tərəf öz tərəfdaşı qarşısında məsuliyyət daşıyır (2001-ci il 4 dekabr tarixli 224-IIQ nömrəli Azərbaycan Respublikasının Kommersiya Sirri haqqında Qanununun 7–ci Maddəsi).

Azərbaycanda hasilat sənayesində şəffaflıq üzrə görülmüş tədbirlər çərçivəsində adları aşağıda göstərilmiş altı HPBS-nin mətni açıqlanmışdır:[32]

- Şah Dəniz perspektiv sahəsi;
- Azəri Çıraq yataqları və Günəşli yatağının dərin sulu;
- Şəfəq-Asiman dəniz bloku;
- Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlü, Qızılbulaq və Vejnəli perspektiv qızıl filiz yataqları;
- Cənub-Qərbi Qobustanın 3 bloku;
- “Zığ” və “Hövsan” neft yataqlarının daxil olduğu blok.

Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi internet səhifəsində Azərbaycan sektorunda neft yataqlarının hasilatın pay bölgüsü haqqında Sazişə dair Protokollarla ətraflı tanış olmaq mümkündür.[33]

## 2.6 Benefisiar sahiblik

Hesabatlılıq dövründə Azərbaycanda korporativ müəssisələrin benefisiar sahiblərinin ictimaiyyətə açıq olan reyestri mövcud olmamışdır. Hüquqi şəxslərin dövlət reyestrində korporativ müəssisələrin benefisiar sahibləri barədə deyil, onların səhmlərinin mülkiyyətçiləri ilə bağlı qeydiyyat məlumatları əks etdirilmişdir. Beləliklə, hesabatlılıq dövründə Azərbaycanda ictimaiyyət üçün açıq olan heç bir reyestr benefisiar sahiblik barədə məlumatları əks etdirmir və ona görə də həmin məlumatların dövlət

[31] “MHŞT Azərbaycanın rəsmi internet səhifəsi”, “Sənədlər”, “HPBS reyestri”, http://www.eiti.az/index.php/en/senedler-2/registration-of-licenses
[32] MHŞT rəsmi internet səhifəsi-Sazişlər http://www.eiti.az/index.php/az/senedler/sazishler
[33] Azərbaycab Respunlikasınn Vergilər Nazirliyi - http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=16

mülkiyyətində olan müəssisələr tərəfindən təqdim edilməsi mümkün olmamışdır. Digər tərəfdən, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişikliklər edilməsi barədə 12 iyun 2012-ci il tarixli Qanuna əsasən hüquqi şəxslərin təsisçisi barədə məlumatlar kommersiya sirri hesab olunur. Həmin məlumatlar üçüncü şəxslər tərəfindən yalnız həmin müəssisələrin səhmdarlarının razılığı ilə əldə edilə bilər.

Hesabatlılıq dövründə Azərbaycanda benefisiar sahiblik anlayışının konsepsiyasının və həmin mülkiyyət barədə məlumatların verilməsi ilə bağlı hər hansı qanuni öhdəliyin olmamasını nəzərə alaraq, benefisiar sahiblik barədə məlumatların açıqlanması HSŞ prosesində iştirak edən şirkətlər üçün məcburi öhdəlik hesab olunmamışdır.

2017-ci ildə HSŞ Komissiyası Asiya İnkişaf Bankı ilə Azərbaycanın mədən sənayesində benefisiar sahiblik məlumatlarının açıqlanması layihəsinin həyata keçirilməsi məqsədilə texniki yardım göstərilməsi üzrə danışıqlara başlamış və müvafiq razılıq əldə olunmuşdur. Belə ki, danışıqların nəticəsi olaraq HSŞ Komissiyasının sədri və Asiya İnkişaf Bankının missiya rəhbəri 2017-ci ilin 14 sentyabr tarixində "Azərbaycanın mədən sənayesində benefisiar sahiblik məlumatlarını açıqlanmasına dair Yol Xəritəsinin icrasını dəstəkləmək məqsədilə texniki tapşırıq" sənədini imzalayaraq təsdiq etmişlər.

Azərbaycanın hasilat sənayesində benefisiar sahiblik məlumatlarının açıqlanması ilə bağlı bütün yeniliklərlə və görülmüş işlərlə daha ətraflı ARDNF-in rəsmi internet səhifəsində tanış olmaq mümkündür.[34]

## 2.7 Hasilat sənayesində dövlətin iştirakı

### 2.7.1 Ümumi məlumat

Azərbaycanda neft və qaz hasilatı sənayesində dövlətin iştirakı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("SOCAR") vasitəsilə həyata keçirilir.

- **SOCAR**

Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992–ci il tarixli 200 saylı Fərmanı ilə Azərbaycan Respublikası ərazisinə məxsus neftin istifadəsinə dair neft sənayesinin idarəetmə strukturunun təkmilləşdirilməsi, neft və enerji kompleksinin inkişafının təmin edilməsi məqsədilə vahid dövlət siyasətinə müvafiq olaraq "Azərineft" Dövlət Konserninin və "Azərneftkimya" İstehsalat Birliyinin bazasında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli 430 nömrəli fərmanına əsasən 24 yanvar 2003-cü il tarixli fərmanına edilmiş dəyişikliyə əsasən şirkətin tam rəsmi adı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, qısaldılmış rəsmi adı isə SOCAR kimi müəyyən edilmişdir.

SOCAR istehsal-satış zənciri boyunca şaquli inteqrasiya edilmiş şirkətdir və əsasən quruda və Xəzər dənizinin Azərbaycan sektorunda axtarış, kəşfiyyat və işlənmə, emal, daşınma və pərakəndə satış fəaliyyətlərini həyata keçirir. Daxili pərakəndə fəaliyyəti ilə yanaşı, həmçinin Gürcüstan, Rumıniya, İsveçrədə və Ukraynada pərakəndə fəaliyyət həyata keçirir. Dövlət SOCAR-da 100% iştirak payına malikdir.

SOCAR tərəfindən mütəmadi olaraq hər il aşağıda adları sadalanan üç hesabat dərc olunur və açıq mənbədə (SOCAR-ın rəsmi internet səhifəsində) ictimaiyyətə təqdim edilir:

- İllik hesabat (2014-2017);
- Maliyyə hesabatı (2009-2017);
- Davamlı inkişaf haqqında hesabat (2011-2017).

İllik hesabata Şirkətin il ərzində fəaliyyəti (istehsal, emal və satış məlumatları, yeni yataqların kəşfi və işlənməsi, iştirak etdiyi layihələr və s.) barədə məlumatlar daxil edilir.

[34] ARDNF-in rəsmi internet səhifəsi http://www.oilfund.az/az_AZ/about_found/beynelxalq-elaqeler/benefisiar_sahiblik.asp

Davamlı inkişaf haqqında hesabatında isə Şirkətin davamlı inkişafının bütün istiqamətləri üzrə fəaliyyəti haqqında məlumatları, həmçinin Şirkətin qarşısında duran vəzifələr və gələcək planlar haqqında informasiyalar əks olunur.

SOCAR tərəfindən rəsmi internet səhifəsində kənar auditor tərəfindən audit olunmuş maliyyə hesabatları 2009-2017-ci illəri əhatə edib. Bu müddət ərzində yalnız bir şirkət – EY Azərbaycan şirkəti tərəfindən audit aparılmışdır.[35]

SOCAR neft, qaz və neft–kimya sənayesinin müxtəlif sahələri üzrə həm Azərbaycan Respublikasının ərazisində, həm də beynəlxaq bazarda fəaliyyət göstərir. Ölkə ərazisində SOCAR neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neft, qaz və qaz kondensatının hasilatı, emalı və nəqli, neft, qaz və neft–kimya məhsullarının daxili və xarici bazarlarda satışını həyata keçirir. 2017-ci ildə SOCAR-ın işçi qüvvəsi 50 424 (2016-cı ildə 50 735) nəfər təşkil etmişdir.[36] SOCAR ölkənin ən böyük şirkəti olaraq Azərbaycan Respublikasının iqtisadiyyatında mühüm yer tutur.

SOCAR-ın satınalmalar üzrə müvafiq prosedurları "Satınalmaların təşkili və idarə olunması üzrə normativ sənədlər toplusu" adlı Əsasnaməyə uyğun olaraq həyata keçirilir. Həmin Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2003-cü il tarixli 844 nömrəli fərmanına əsasən qüvvəyə minmişdir.[37] SOCAR ölkə ərazisində neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi, neft və qazın hasilatı, emalı, neft-qaz və neft-kimya məhsullarının daxili və xarici bazarlarda satışı ilə məşğul olan neft şirkətidir.

SOCAR həmçinin Azəri-Çıraq-Günəşli (AÇG) yataqlarında hasil olunan neftin əsas ixrac marşrutu olan BTC Boru Kəməri, həmçinin AÇG və Şahdəniz yataqlarında hasil olunan neftin əsas ixrac marşrutu olan CQBK daxil olmaqla AÇG və Şahdəniz HPBS-ləri və bir sıra beynəlxalq boru kəmərlərində əhəmiyyətli paya malikdir. Bundan əlavə, SOCAR Türkiyənin yeganə neft-kimya istehsalçısı olan Petkimdə nəzarət-səhm paketinə (51%) malikdir.

- **"AzerGold" QSC**

"AzerGold" QSC dövlətə məxsus olan, qiymətli və əlvan metalların hasilatı, emalı və satışı ilə məşğul olan Qapalı Səhmdar Cəmiyyətidir. Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilmişdir. Şirkətin əsas məqsədi qiymətli və əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, hasilatı, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsidir. [38]

Səhmləri dövlətə məxsus olan "AzerGold" QSC əlvan metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir. 2017-ci ildə "AzerGold" QSC-nin işçi qüvvəsi 288 (2016-cı ildə 186) nəfər təşkil etmişdir. 2017-ci ilin aprel-dekabr ayları ərzində "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) həyata keçirdiyi ixrac əməliyyatları üzrə 60,552 unsiya qızıl və 86,806 unsiya gümüş ixrac edib. Qiymətli metalların ixracı ölkə iqtisadiyyatına 131,5 milyon manatdan artıq gəlir gətirmişdir. Ümumiyyətlə Cəmiyyət 2017-ci il üzrə qeyri-neft sektorunda sənaye məhsullarının ixracında qabaqcıl mövqe tutmuşdur. Cəmiyyətin satınalmalar üzrə müvafiq prosedurları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq həyata keçirilir. [38]

## 2.7.2 Dövlət müəssisələrinin müvafiq dövlət qurumları ilə münasibəti

Aşağıda SOCAR-ın dövlət qurumları ilə münasibətləri göstərilmişdir:

SOCAR-ın fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası

---

[35] Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi tərəfindən hazırlanan SOCAR-ın idarəetmə, hesabatlılıq və şəffaflıq haqda tədqiqat araşdırması - http://eurasiahub.khazar.org/pdf/AZ_SOCAR.pdf
[36] SOCAR, "Davamlı İnkişaf Haqqında Hesabat, 2017", "Şirkət haqqında", səh. 65 http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/Davaml%C4%B1%20inki%C5%9Faf%20%C3%BCzr%C9%99%20hesabat%20-%202017-ci%20il.pdf
[37] SOCAR, "SOCAR standartları", "Satınalmalar üzrə normativ sənədlər" http://www.socar.az/socar/az/company/socar-standards/socar-standards
[38] AzerGold QSC -ə göndərilən 31 iyul 2018-ci il tarixli BT 980 nömrəli rəsmi məktubuna cavab olaraq

Nazirlər Kabinetinin qərar və sərəncamları, digər normativ-hüquqi aktlar, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş neft-qaz kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlər və şirkətin Nizamnaməsi ilə tənzimlənir.[39]

SOCAR fəaliyyəti istiqamətləri ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi qarşısında daim hesabatlarla çıxış edir.

SOCAR hər il növbəti ayın 15-dək əvvəlki ay ərzində hesablarına və kassalarına daxil olmuş pul vəsaitinin məbləği və onun istifadə istiqamətləri barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə bu nazirliklərin hazırladığı forma üzrə hesabat təqdim edir.

SOCAR Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli fərmanı ilə təsdiq edilmiş Nizamnaməsinin 6-ci bəndinə ("Şirkətdə uçot, hesabat və nəzarət") əsasən Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq mühasibat uçotu aparır, illik maliyyə hesabatlarını, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi hesabatlarını Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim edir. Şirkət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlarını tərtib edərək Dövlət Statistika Komitəsinə təqdim edir.

SOCAR konsolidasiya edilmiş maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hesabat dövrü başa çatdıqdan sonra növbəti il iyun ayının 30-dan gec olmayaraq internet səhifəsində yerləşdirir və hesabat dövrü ərzində SOCAR və ya onun törəmə müəssisələri dövlət zəmanəti ilə kredit aldıqda və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak etdikdə, həmçinin onlara büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrıldıqda Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat təqdim edir. [40]

Dövlət tərəfindən SOCAR-a maliyyə vəsaitlərinin ayrılması daha çox nizamnamə kapitalı və ya kredit ayırmaları vasitəsi ilə həyata keçirilir. Azərbaycan Respublikası Mərkəzi Bankı borcverən qismində çıxış edərək borcalan Azərbaycan bankları və təkrar borcalan qismində SOCAR-a dövlət zəmanəti ilə kredit vəsaiti ayırır. Zamin kimi Azərbaycan Respublikası hökuməti adından çıxış edən Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankı, SOCAR və Azərbaycan bankları arasında dövlət zəmanətinin verilməsi barədə saziş imzalanır.

SOCAR Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnaməsinin 6-cı bəndinə ("Şirkətdə uçot, hesabat və nəzarət") əsasən yuxarıda qeyd olunan dövlət qurumları tərəfindən tələb olunduğu halda, müvafiq hesabatlar və məlumatlar tərtib edərək təqdim olunmasını təmin edir. [41]

***Təsvir 6:** SOCAR-ın dövlət qurumları ilə münasibəti* [42]

[39] SOCAR, "Qanunvericilik", "SOCAR-ın Nizamnaməsi", http://socar.az/socar/az/company/regulations/socar-charter
[40] http://www.e-qanun.az/framework/28955
[41] E-qanun: "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi", http://www.e-qanun.az/framework/ 1899
[42] Təsvir 4 Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya tərəfindən təqdim olunmuşdur




Aşağıda "AzerGold" QSC-nin dövlət qurumları ilə münasibətləri göstərilmişdir:

"AzerGold" QSC-nin nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "AzerGold" QSC-nin idarə heyətinin, müşahidə şurasının və təftiş komissiyasının və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi səlahiyyətlərinə malikdir.

"AzerGold" QSC-nin Müşahidə Şurası onun fəaliyyəti üzərində ümumi rəhbərliyi və nəzarəti həyata keçirən və icra səlahiyyətlərinə malik olmayan orqandır. Müşahidə Şurasının tərkibi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər) və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin (1 nəfər) nümayəndələrindən ibarətdir.

Eyni zamanda müəssisənin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiqi, mənfəət və zərərinin bölüşdürülməsi, işçilərinin say həddinin, əmək haqqı sisteminin müəyyən olunması və xərclər smetasının təsdiq edilməsi səlahiyyətləri də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə verilmişdir.

"AzerGold" QSC-nin idarə heyəti onun kollegial icra orqanıdır və müvafiq məcəllə, sərəncam və nizamnamə ilə Ümumi Yığıncağa, Müşahidə Şurasına və təftiş komissiyasına verilmiş səlahiyyətlər istisna olmaqla, Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələləri həll edir.

Müəssisənin idarə heyətinin sədrini və sədr müavinlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

"AzerGold" QSC-nin fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, digər normativ-hüquqi aktlar və şirkətin nizamnaməsi ilə tənzimlənir.[43]

## 2.7.3 Dövlət müəssisələri ilə dövlət arasında maliyyə axınları

[43] "AzerGold" QSC-nin nizamnaməsinin və strukturunun təstiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, http://www.e-qanun.az/framework/32799

Aşağıda SOCAR-ın maliyyə məlumatları və dövlət büdcəsinə edilən ödənişlər göstərilmişdir:

***Nizamnamə kapitalı***[44]

Nizamnamə kapitalında 1,234 milyon AZN məbləğində artım 2017-ci il ərzində qeydiyyata alınmışdır və müvafiq olaraq, məbləğ əlavə ödənilmiş kapitaldan nizamnamə kapitalına köçürülmüşdür. 31 dekabr 2017-ci il tarixində bitmiş il üzrə əlavə nizamnamə kapitalının məbləği 3,036 milyon manat təşkil etmişdir

***Əlavə ödənilmiş kapital***[44]

2017-ci il ərzində Dövlət SOCAR-ın nizamnamə kapitalına 243 milyon AZN məbləğində əlavə kapital qoyuluşu etmişdir. Bu artım 31 dekabr 2017-ci il tarixinə qeydiyyata alınmamış və əlavə ödənilmiş kapital kimi tanınmışdır. 31 dekabr 2017-ci il tarixində bitmiş il üzrə əlavə ödənilmiş kapitalın məbləği 4,541 milyon manat təşkil etmişdir.

***Dövlətə ayırmalar***[44]

Dövlətə ayırmalar dövlətin müvafiq qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı–ayrı dövlət agentliklərinə və dövlətin həyata keçirdiyi layihələrə SOCAR tərəfindən pul şəklində maliyyə qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin balans dəyərində qeydə alınır. Bu növ maliyyə qoyuluşlar və maliyyələşdirmənin məbləğləri (dövlət idarələrinin subpodratçılarına ödənişlər formasında) 2017-ci ildə müvafiq olaraq 567 milyon AZN və 89 milyon AZN təşkil edib. Bu vəsaitlər əsasən Azərbaycan Respublikasında mövcud olan, həmçinin yeni istirahət, nəqliyyat, təhsil və tibb infrastrukturunun təmiri və yenidən qurulması üçün istifadə edilib.[45]




***Qrafik :*** *SOCAR tərəfindən pul şəklində maliyyə qoyuluşlar və maliyyələşmələr (mln manat)*[45]

***SOCAR-dan dövlətə ayırmalar***

2017-ci ilin dövlət büdcəsində neftin qiymətinin 40 ABŞ dolları (2016-cı ilin dövlət büdcəsində neftin qiymətinin 25 ABŞ dolları) nisbətində götürülməsinə əsaslanaraq SOCAR üzrə büdcə daxilolmaları 1317,5 milyon manat olub ki, bu da 2016-cı illə müqayisədə kifayət qədər artmışdır. Bunlar “Azəriqaz” və “Azərkimya” dövlət müəssisələri ilə birlikdə Dövlət Neft Şirkətinin xətti ilə konsolidə edilmiş vergilər və digər ödənişlərdir (fiziki şəxslərin gəlir vergisi istisnadır). 2017-ci ildə dövlət büdcəsinin ümumi gəlirlərinin 6,2%-i, dövlət büdcəsinin neft sahələrindən gəlirlərinin (7884 milyon AZN) 16,7%-i, neft sektorundan yığılan vergi daxilolmalarının (1784 milyon AZN) isə 73,9%-i SOCAR-ın payına düşüb. [46]

[44] SOCAR, “Maliyyə Hesabatı, 2016- cı il”, “Qeyd 27, Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital və bölüşdürülməmiş mənfəət”,səhifə 67, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf
[45] Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi tərəfindən hazırlanan SOCAR-ın idarəetmə, hesabatlılıq və şəffaflıq haqda tədqiqat araşdırmaları - http://eurasiahub.khazar.org/pdf/AZ_SOCAR.pdf
[46] Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi tərəfindən hazırlanan SOCAR-ın idarəetmə, hesabatlılıq və şəffaflıq haqda tədqiqat araşdırmaları - http://eurasiahub.khazar.org/pdf/AZ_SOCAR.pdf




***Qrafik:** SOCAR-ın büdcə ödənişləri - 2014-2017-ci illər üzrə (mln manat)*[46]

***Bölüşdürülməmiş mənfəət***[47]

31 dekabr 2017-ci il tarixində bitmiş il üzrə SOCAR-ın bölüşdürülməmiş mənfəət məbləği 7 357 milyon manat təşkil etmişdir. Daha ətraflı məlumatı SOCAR-ın "Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat"-ından əldə etmək olar.

SOCAR-ın bir sıra dövlət qurumları (Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Azərbaycan Beynəlxalq bankı, ARDNF, Azərbaycan İnvestisiya Fondu və s.) arasında olan maliyyə axınları barədə geniş məlumatları SOCAR-ın 31 dekabr 2017-ci il tarixində bitmiş il üzrə Maliyyə hesabatında 7-ci qeydindən əldə etmək mümkündür.




***Qrafik 1b:** SOCAR-ın 2008-2017-ci illər üzrə maliyyə göstəriciləri (mln manat)* [51]

SOCAR-ın bölüşdürülməmiş mənfəətinin həcmi il üzrə 6-8 milyard manat arasında dəyişib. 2008-ci ildə şirkətin öz kapitalının 90,5%-ni bölüşdürülməmiş mənfəət hesabına formalaşdırmasına baxmayaraq, 2017-ci ilin sonuna bu rəqəm azalaraq 33,5%-ə düşüb. Nizamnamə kapitalının payı isə 5,6%-dən 13,8%-ə yüksəlib. [51]

[47] SOCAR, "Maliyyə hesabatı 2016- cı il", "Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat", səh. 4, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf

***SOCAR-ın əlaqəli tərəflərlə olan qalıqlar və əməliyyatları***

31 dekabr 2017-ci il tarixinə SOCAR-ın əlaqəli tərəflərlə qalıqları aşağıda göstərilir (məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilir): [48]

| | Dövlət və onun nəzarətində olan müəssisələr | Asılı və birgə müəssisələr |
|---|---|---|
| | | |
| Ticarət debitor borclarının ümumi məbləği | 151 | 127 |
| Ticarət və sair debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar | (99) | (2) |
| Sair debitor borcları | - | 13 |
| Sair uzunmüddətli maliyyə aktivləri | - | 250 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 1,529 | - |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 234 | - |
| ƏDV və sair vergilər üzrə debitor borcları | 534 | - |
| Alınmış avanslar | (100) | - |
| Səhmlərin satışı üzrə alınmış avanslar | - | (4,076) |
| ABB qarşısında borc öhdəlikləri (3 faizdən 4 faizədək sabit faiz dərəcələri ilə) | (326) | - |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi qarşısında borc öhdəlikləri | (1,194) | - |
| Metanol zavodu üçün təxirə salınmış ödəniş öhdəliyi | (62) | - |
| Azərbaycan İnvestisiya Şirkətinə (AİŞ) ödəniləcək istiqraz | (157) | - |
| Ticarət və sair kreditor borcları | (248) | (1,457) |
| Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) ödəniləcək vergilər | (255) | - |
| ARDNF-a ödəniləcək istiqraz | (784) | - |
| ARDNF-a ödəniləcək sair kreditor borcları | (1,902) | - |
| Vergilər üzrə kreditor borcları | (86) | - |

31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə SOCAR-ın əlaqəli tərəflərlə əməliyyatları aşağıda göstərilir (məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilir):[49]

| | Dövlət və onun nəzarətində olan müəssisələr | Asılı və birgə müəssisələr |
|---|---|---|
| Təbii qazın satışı | 673 | 180 |
| Neft məhsullarının satışı | 479 | 9 |
| Göstərilmiş xidmətlər | 3 | 120 |
| Əlaqəli tərəflərə ödəniləcək kreditlər üzrə faizlər | (67) | - |
| Mənfəət vergisi | (264) | - |
| Aksiz vergisi | (440) | - |
| Qiymət marjası üzrə vergi | (177) | - |
| Mədən vergisi | (123) | - |
| Sair vergilər | (426) | - |
| Kommunal xərclər | (64) | (3) |
| Sair əməliyyat xərcləri | (28) | (15) |
| Sair əməliyyat gəlirləri | 250 | - |
| Sosial sığorta ayırmaları | (134) | - |
| Sosial xərclər | (29) | - |
| Nəqliyyat xərcləri | (104) | (292) |
| Ekologiya xidməti və ekoloji təhlükəsizlik | - | (1) |
| Təhlükəsizlik xərcləri | (10) | - |
| Əmlak, tikili və avadanlıqların və mal-material ehtiyatlarının alınması | (9,069) | (691) |
| Birgə müəssisələrdən alınmış dividentlər | - | 147 |
| Asılı müəssisələrdən alınmış dividentlər | - | 104 |

[48] SOCAR, "Maliyyə hesabatı 2017- ci il", "Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat", səh. 37, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf
[49] SOCAR, "Maliyyə hesabatı 2017- ci il", "Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat", səh. 38, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf

Aşağıda "AzerGold" QSC-nin maliyyə məlumatları və dövlət büdcəsinə edilən ödənişlər göstərilmişdir:

***Nizamnamə kapitalı***

"AzerGold" QSC 5 iyul 2016-cı il tarixində 1403467421 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyində vergi ödəyicisi olaraq qeydiyyatdan keçmişdir. Cəmiyyətin səhmdar kapitalı nominal dəyəri 1 AZN təşkil edən 2 milyon ədəd adi səhmdən ibarətdir. Cəmiyyətin 100% sahibi Azərbaycan Respublikasıdır. 2017-ci ildə "AzerGold" QSC-nin audit olunmamış ilkin maliyyə hesabatına əsasən nizamnamə kapitalı keçən il ilə müqayisədə dəyişməyərək 1 296 600 ABŞ dolları (2,000,000 manat) təşkil etmişdir.[50]

***Bölüşdürülməmiş mənfəət***

31 dekabr 2017-ci il tarixində bitmiş il üzrə "AzerGold" QSC-nin bölüşdürülməmiş mənfəət məbləği ilkin olaraq 1 289 012 ABŞ təşkil etmişdir.[50]

## 2.7.4 Dövlət müəssisələrinin maliyyə göstəriciləri və hasilat məlumatları

Aşağıda SOCAR-ın maliyyə göstəriciləri və hasilat məlumatları göstərilmişdir:




***Qrafik 1a:** SOCAR-ın 2015-2017-ci illər üzrə gəlirləri (milyard manat)*

SOCAR-ın ümumi gəlirləri 2008-ci ildə cəmisi 4,7 milyard AZN olduğu halda 2017-ci ilin sonuna 92 571 milyon AZN-ə yüksəlib. Gəlirlərin əsas hissəsini xam neft satışından əldə olunan gəlirlər təşkil edir. Dünya bazarlarına xam neftin bahalaşması şirkətin illik gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Elə bu səbəbə görə, xam neft hasilatının azalmasına rəğmən onun cəmi gəlirlərdə payı 2008-ci ildəki 23,8%-dən 2017-ci ildəki 61%-ə yüksəlib. Bu müddət ərzində təbii qazın satışından əldə etdiyi illik gəliri 2008-ci illə (515 milyon AZN) müqayisədə artaraq 2,7 milyard AZN təşkil edib.[51]

**SOCAR-ın kapital və əməliyyat xərcləri**

Şirkətin istehsal, nəql etdiyi və satdığı məhsulların çeşidinin artması gəlirlərin artımı ilə yanaşı xərcləri də artırıb. Əməliyyat xərcləri 2008-ci ildə 3,3 milyard AZN-dən 2017-ci ildəki 90,9 milyard AZN-ə yüksəlib. SOCAR-ın illik gəlirinin artmasının əsas səbəbi satış və paylaşdırma üzrə fəaliyyətini genişləndirməsidir. [51]

**Hasilat göstəriciləri**

SOCAR hasil edilmiş bütün karbohidrogenlərə və onların emalından alınan neft, neft-kimya və qaz məhsullarına münasibətdə sahibliyi həyata keçirir. Azərbaycanda hər il orta hesabla 40 milyon tona yaxın neft, 29 milyon kubmetr qaz istehsal olunur. 2008-2017-ci illərdə SOCAR-ın texnoloji imkanlarının artmasına, yeni yataqların aşkar edilməsinə rəğmən neft istehsalında azalma olub. Bu müddətdə

[50] AzerGold QSC -yə göndərilən 31 iyul 2018-ci il tarixli BT 980 nömrəli rəsmi məktubuna cavab olaraq
[51] Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi tərəfindən hazırlanan SOCAR-ın idarəetmə, hesabatlılıq və şəffaflıq haqda tədqiqat araşdırmaları - http://eurasiahub.khazar.org/pdf/AZ_SOCAR.pdf

SOCAR tərəfindən hasil edilən neftin pik səviyyəsi 2008-ci ildə (8,6 milyon ton) olub. Halbuki 2010-cu illərdə ölkə üzrə neft hasilatında rekord həddə (50,8 milyon ton) qeydə alınıb. Sonrakı illərdə azalma tendensiyası müşahidə edilib və 2017-ci ildə ən aşağı həddə - 7,4 milyon tona düşüb. Son 10 ildə şirkətin neft hasilatı ümumilikdə 14,2% azalıb. Ölkə üzrə ümumi neft hasilatında SOCAR-ın payı 16,7-19,8% arasında dəyişib. Ümumi neft hasilatının artması fonunda SOCAR-ın payı azalsa da (16,7%) 2017-ci ildə bu göstərici 19,2%-ə yüksəlib. [51]




***Qrafik 2:** 2008-2017-ci illər üzrə neft hasilatı (min ton)*[51]

Neftlə yanaşı qaz hasilatında da azalma baş verib. 2008-ci ildə şirkətin qaz hasilatı 7,75 milyard kubmetr olduğu halda 2017-də 6,09 milyard kubmetrə qədər azalıb. Son 10 ildə qaz hasilatının azalması 21,5% olub. Halbuki bu müddətdə ölkə üzrə qaz hasilatı əsasən artma (22,2%) istiqamətində olub. SOCAR-ın hasil etdiyi təbii qazın ölkə üzrə hasilatda payı 2008-2017-ci illərdə 33,1%-dən 21,3%-ə düşüb. Buna səbəb ölkə üzrə hasilatın artması, şirkətin hasilatının isə azalmasıdır. [51]




***Qrafik 2b:** 2008-2017-ci illər üzrə qaz hasilatı (milyon kubmetr)* [52]

Bakı-Tbilisi-Ceyhan ("BTC") boru kəməri tikintisi tam başa çatdırılanadək və SOCAR Treydinq şirkəti təsis edilməzdən əvvəl, SOCAR xam nefti Gürcüstan və Rusiya ərazisindən ixrac edirdi. BTC SOCAR-a Türkiyədə Ceyhan ərazisindən Aralıq dənizinə çıxışına və oradan da Azərbaycan neftinin Aralıq dənizi boyu ərazilərə, daha sonra Asiya və Amerikaya çatdırılması məqsədilə Çox Böyük Xam Daşıyıcıların (ÇBXD) yüklənməsinə imkan yaratmışdır.

SOCAR Treydinq şirkəti Azərbaycanın Azəri-Çıraq-Günəşli və digər neft yataqlarından hasil olunan neftin ixrac olunması üçün SOCAR-ın marketinq qolu olaraq 2007-ci ilin dekabr ayında təsis edilmişdir. Hal-hazırda Azərbaycanın təbii ehtiyatları əsasən üç – Gürcüstana Qərb İxrac Boru Kəməri (QİBK),

[52] Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi tərəfindən hazırlanan SOCAR-ın idarəetmə, hesabatlılıq və şəffaflıq haqda tədqiqat araşdırmaları - http://eurasiahub.khazar.org/pdf/AZ_SOCAR.pdf

Rusiyaya Bakı-Novorossiysk, Türkiyəyə isə Bakı-Tbilisi-Ceyhan ("BTC") boru kəmərləri vasitəsilə çatdırılır.

SOCAR Treydinq şirkəti 2008-ci ildən 1 milyard barelə yaxın həcmdə Azərbaycanın "Azəri-Light" markalı neftini uğurla dünya bazarına ixrac etmişdir. Ticarət şirkəti olaraq SOCAR Treydinq qiymət artımı və qlobal tələblərin dəyişkənliyinə uyğunlaşması sayəsində Azərbaycanın xammal satışının idarə edilməsini həyata keçirir.[53]

SOCAR Treydinq şirkəti dövlətin və SOCAR-ın payına düşən xam neft həcmlərinin və dövlətin payının Ceyhan limanından satışını, üçüncü tərəflərin neft və neft məhsullarının ticarətini həyata keçirir. Şirkət Afrika və Asiyada uzunmüddətli işgüzar münasibətlərin inkişafına dair səylər göstərir, həmçinin, dövlət müəssisəsi və Azərbaycanın xam neftinin əsas satıcısı kimi dünya limanlarına çıxışların qazanılması üçün zəruri prosesləri həyata keçirir.

31 dekabr 2017-ci il tarixində başa çatmış il üçün SOCAR-ın likvidlik, maliyyə strukturu və mənfəətlilik üzrə əsas göstəriciləri aşağıdakı kimi olmuşdur: [54]

**Likvidlik əmsalları:**

| Əmsallar | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Cari likvidlik əmsalı | 1,363 | 1,118 | 1,123 |
| Sürətli likvidlik əmsalı | 1,177 | 0,848 | 0,882 |
| Faizləri qarşılama əmsalı | 2,328 | 2,113 | 3,827 |

**Maliyyə strukturu ilə əlaqəli əmsallar:**

| Əmsallar | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Maliyyə asılılığı əmsalı (Cəmi öhdəlik/Cəmi kapital) | 1,728 | 1,994 | 1,792 |
| Maliyyə levereyci əmsalı (Cəmi öhdəlik/Cəmi aktiv) | 0,633 | 0,666 | 0,642 |

**Mənfəətlilik əmsalları:**

| Əmsallar | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Marja əmsalı | 0,098 | 0,087 | 0,056 |
| Mənfəət marjası | 0,098 | 0,041 | 0,016 |
| İstifadə olunan sərmayənin gəlirliliyi | -0,044 | 0,003 | 0,006 |
| Aktivlərin gəlirliliyi | -0,040 | 0,004 | 0,002 |

[53] http://www.socartrading.com/marketing/marketing-export
[54]SOCAR, "Maliyyə hesabatı, 2017- cı il", http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf

## 2.7.5 Dövlət müəssisələrinin birgə, asılı və törəmə müəssisələri

2017-ci il ərzində SOCAR-ın əsas törəmə müəssisələrin fəaliyyət növü, təsis edildiyi ölkə və iştirak paylarına dair məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

***Cədvəl 1:** Birgə müəssisələr*[55]

| BM və törəmə şirkətin adı | Fəaliyyəti | DM iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Öhdəliklər (mln manat) |
|---|---|---|---|---|---|---|
| SOCAR KBR | Xidmət | 51% | Dəyişməyib | 44,0 | 25,0 | (25,0) |
| Azeri M.İ. Qazma Mayeləri | Kimyəvi məhsulların istehsalı | 51% | Dəyişməyib | 201,0 | 87,0 | (45,0) |
| Azərbaycan Riqs | Qazma qurğuların tikintisi | 10% | Dəyişməyib | - | 1,096,0 | (7,0) |
| SOCAR Fugro | Mühəndis-geoloji tədqiqat | 51% | Dəyişməyib | 30,0 | 19,0 | (14,0) |
| AZFEN | Tikinti | 60% | Dəyişməyib | 796,0 | 265,0 | (125,0) |
| “AzGerneft” MMC | Karbohidrogenlərin kəşfi, işlənməsi və hasilatı | 40% | Dəyişməyib | 51,0 | 108,0 | (30,0) |
| Ekol Mühəndislik Xidmətləri | Təmizləmə xidməti | 48% | Dəyişib | 10,0 | 5,0 | (1,0) |
| Kaspian Şipyard Şirkəti | Gəmilərin təmiri | 20% | Dəyişməyib | - | 4,0 | - |
| "Oyl and Qaz ProServ" MMC | Təchizat xidmətləri | 30% | Dəyişməyib | 1,0 | 17,0 | (9,0) |
| Sarmatia | Layihələndirmə xidmətləri | 27% | Dəyişməyib | - | 1,0 | (2,0) |
| SOCAR AQŞ | Quyuların qazılması işləri | 13.4% | Dəyişib | 288,0 | 496,0 | (233,0) |
| SOCAR Bağlan | Təchizat xidmətləri | 51% | Dəyişməyib | - | 15,0 | (19,0) |
| SOCAR Foster Viler Mühəndislik xidmətləri | Mühəndislik xidmətləri | 65% | Dəyişməyib | 4 | 1,0 | (1,0) |
| SOCAR CAPE | Tikinti | 51% | Dəyişməyib | 141,0 | 66,0 | (28,0) |
| SOCAR Construction | Tikinti | 97% | Dəyişməyib | - | 11,0 | (1,0) |
| STYAŞ | Tikinti | 60% | Dəyişməyib | - | 12,219,0 | (4 371,0) |

2017-ci ildə SOCAR-ın birgə müəssisələrinin benefisiar sahiblik səviyyəsində dəyişiklikləri:

- 31 dekabr 2017-ci il tarixində başa çatmış il üçün SOCAR KPŞ artıq birgə müəssisə kimi ləğv olunmuşdur. SOCAR CNG şirkəti isə SOCAR Petroleum QSC-nin törəmə müəssisəsi olmuşdur.[56]
- 7 avqust 2017-ci ildə SOCAR və SOCAR Ümid-in digər səhmdarı olan Nobel Oyl birgə müəssisəni ləğv etmiş, Ümid və Babək yataqlarının istismar edilməsi üçün Ümid, Babək Exploration and Production Company birgə əməliyyat şirkətini yaratmışlar. Nəticədə, SOCAR “SOCAR Ümid”-də olan 304 milyon AZN məbləğində investisiya balansını silmişdir.
- Müəyyən şərtlərin nəzərdə tutulduğu 27 dekabr 2017-ci il tarixli alqı-satqı müqaviləsinə əsasən, SOCAR 10 yanvar 2018-ci il tarixindən etibarən birgə müəssisəsi olan SOCAR Aurora Terminal-da (“SATSA”) 50 faizlik iştirak payını və SATSA-dan kredit üzrə alınacaq borc məbləğini Global Terminal Holding B LP-yə 80 milyon AZN (47 milyon ABŞ dolları) məbləğində ümumi ödəniş almaqla satmağa razılıq vermişdir.
- 2017-ci il ərzində SOCAR Turkey YATIRIM A.Ş. (“STYAS”) və “Azərbaycan Rigs” MMC birgə müəssisələrin nizamnamə kapitalına, müvafiq olaraq, 542 milyon manat (2016-cı il: 198 milyon manat) və 22 milyon manat (2016-cı il: 17 milyon manat) məbləğində əlavə vəsaitlər yatırılmışdır.
- 2017-ci ildə SOCAR Star emal zavodunun (STYAŞ-ın törəmə müəssisəsi) tikintisi ilə əlaqədar akkreditiv razılaşmalar imzalanmışdır. SOCAR-ın cəmi 28 milyon manat (2016-cı il: 44 milyon manat) məbləğində ödədiyi komissiya haqları və faizlər STYAŞ-a əlavə investisiya kimi tanınmışdır.

---

[55]SOCAR, “Maliyyə hesabatı, 2017- cı il”, “Qeyd 18, Birgə müəssisələrə investisiyalar http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf
[56] SOCAR-dan alınan rəsmi elektron məktub

- 25 dekabr 2017-ci ildə Nobel Oyl SOCAR AQŞ-nin nizamnamə kapitalına ədalətli dəyəri 139 milyon AZN məbləğində olan əmlak, tikili və avadanlıqlar yatırmaqla SOCAR AQŞ-də 73,77 faiz mülkiyyət payını almışdır. Nəticədə, SOCAR-ın SOCAR AQŞ-də payı 51%-dən 13,38%-dək azalmış və SOCAR 46 milyon AZN məbləğində 37,62% payın balans dəyərini silmiş və 27 milyon AZN məbləğində ehtimal edilən silinmə üzrə zərər tanımışdır.

- 27 dekabr 2017-ci ildə SOCAR Global Terminal Holdings BLP ilə SATSA-da balans dəyəri 51 milyon AZN (31 dekabr 2016-cı il: 50 milyon AZN) məbləğində olan 50% iştirak payının satışı haqqında alqı-satqı razılaşmasını imzalamışdır. Əməliyyat 10 yanvar 2018-ci ildə tamamlanmışdır.

***Cədvəl 2:*** *Törəmə müəssisələr* [57]

| Adı | Fəaliyyəti | Təsis edildiyi ölkə | Kapitalda pay, % |
|---|---|---|---|
| SOCAR Türkiyə Enerji A.Ş. | Emal | Türkiyə | 100% |
| Azərbaycan (ACG) Ltd. | Neft istehsalı | Kayman adaları | 100% |
| Azərbaycan (Şah Dəniz) Limitid | Qaz istehsalı | Kayman adaları | 100% |
| Caspian Drilling Company (CDC) | Qazma əməliyyatları | Azərbaycan | 92% |
| “SOCAR Energy Gürcüstan” MMC | Satış və paylama | Gürcüstan | 76% |
| “SOCAR Overseas” MMC | Satış və paylama | BƏƏ | 100% |
| SOCAR Trading Holding | Satış və paylama | Malta | 100% |
| Azərbaycan (BTC) Ltd. | Satış və paylama | Kayman adaları | 100% |
| Cooperative Menkent U.A. | Satış və paylama | Niderland Krallığı | 100% |
| SOCAR Enerji Holdinqs AG | Satış və paylama | İsveçrə | 100% |
| SOCAR Energy Ukrayna | Satış və paylama | Ukrayna | 100% |
| Azərbaycan (SCP) Ltd. | Satış və paylama | Kayman adaları | 100% |
| “SOCAR Petroleum” QSC | Satış və paylama | Azərbaycan | 100% |
| Bakı Gəmiqayırma Zavodu | Tikinti | Azərbaycan | 65% |
| “SOCAR Polimer” MMC | Kimya məhsulları | Azərbaycan | 57% |
| “BOS Shelf” MMC | Tikinti | Azərbaycan | 90% |

2017-ci il ərzində SOCAR-ın birgə və asılı müəssisələrdə iştirak payları, hesabat dövründə iştirak payının dəyişməsi, gəlir, aktiv və borc öhdəliklərinə dair məlumatlar aşağıdakı cədvəllərdə göstərilmişdir:

***Cədvəl 3a:*** *Asılı müəssisələr* [58]*(SOCAR-ın əsas asılı müəssisələri)*

| Asılı müəssisə və törəmə şirkətin adı | Fəaliyyəti | DM iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Öhdəliklər (mln manat) |
|---|---|---|---|---|---|---|
| Cənubi Qafqaz Boru Kəməri (“SCPC”) | Kəmərin tikintisi | 10% | Dəyişməyib | 633,0 | 8 662,0 | (688,0) |
| BTC Co | Kəmərin tikintisi | 25% | Dəyişməyib | 1 595,0 | 9 340,0 | (2 234,0) |
| “Cənub Qaz Dəhlizi” QSC (“CQD QSC”) | Qaz təchizatı | 49% | Dəyişməyib | 218,0 | 18 848,0 | (13 209,0) |

[57] SOCAR, “Maliyyə hesabatı, 2017- ci il”, “Qeyd 1, Qrup və onun əməliyyatları”, səhifə 6, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf
[58]SOCAR, “Maliyyə hesabatı, 2017-cı il”, “Qeyd 19, Asılı müəssisələrə investisiyalar”, səhifə 56-60, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf

***Cədvəl 3b***: Asılı müəssisələr (SOCAR-ın həm fərdi, həm məcmu şəkildə əhəmiyyətli olmayan digər asılı müəssisələri)

| Asılı müəssisə və törəmə şirkətin adı | Fəaliyyəti | DM iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Öhdəliklər (mln manat) |
|---|---|---|---|---|---|---|
| "Atəşgah Sığorta Şirkəti" QSC | Sığorta xidmətləri | 10% | Dəyişməyib | 41,0 | 43,0 | (30,0) |
| Azərbaycan Qaz Təchizatı Şirkəti | Satış və paylama | 28% | Dəyişməyib | 2 719,0 | 501,0 | (500,0) |
| AzLab | Analiz xidmətləri | 50% | Dəyişməyib | 2,0 | 5,0 | - |
| Caspian Geophysical | Analiz və sair geoloji işlər | 45% | Dəyişməyib | - | 12,0 | - |
| "Caspian Pipe Coatings" MMC | Boruların təmizlənmə, örtüklənmə və s. xidmətləri | 50% | Dəyişməyib | 15,0 | 22,0 | (6,0) |
| Cross Caspian Oil and Gas Logistics | Təchizat və logistika xidmətləri | 34% | Dəyişməyib | 4,0 | 3,0 | (2,0) |
| Cənubi Qafqaz Boru Kəməri Hold Co ("SCPC Hold Co.") | Kəmərin tikintisi | 10% | Dəyişməyib | - | 136,0 | (1,0) |
| Tankanlagen Mellingen AG ("TAMAG") | Satış və saxlanma | 33% | Dəyişməyib | 5,0 | 13,0 | (3,0) |
| Tanklager Taegerschen AG ("TLT") | Satış və saxlanma | 21% | Dəyişməyib | 2,0 | 2,0 | - |
| SOGEP AG | Satış və saxlanma | 34% | Dəyişməyib | 6,0 | 6,0 | (5,0) |
| UBAG AG | Satış və saxlanma | 24% | Dəyişməyib | 26,0 | 38,0 | (32,0) |
| SAPPRO SA | Satış və saxlanma | 13% | Dəyişməyib | 19,0 | 5,0 | (3,0) |
| SARACO SA | Satış və saxlanma | 20% | Dəyişməyib | 22,0 | 19,0 | (16,0) |
| Electrogas Malta | Satış və saxlanma | 33% | Dəyişməyib | 251,0 | 1 279,0 | (1 364,0) |
| Octognoe | | 20% | Yeni | 2,0 | 53,0 | (31,0) |
| CI GNL | | 26% | Yeni | - | 15,0 | (30,0) |

- 2017-ci il ərzində Cənubi Qafqaz Boru Kəməri Hold Co ("SCPC Hold Co.") və "Cənub Qaz Dəhlizi" QSC (CQD QSC) asılı müəssisələrinin səhmdar kapitalına, müvafiq olaraq, 98 milyon manat (2016-cı il: 104 milyon manat) və 140 milyon manat (2016-cı il: 693 milyon manat) məbləğində vəsaitlər yatırılmışdır.

"AzerGold" QSC-nin heç bir birgə, asılı və törəmə müəssisəsi yoxdur.

## 2.7.6 Dövlət müəssisələrinə aid olan əməliyyatlar

Azərbaycanda neft və qaz hasilatı sənayesində dövlətin iştirakı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("SOCAR") vasitəsilə həyata keçirilir. SOCAR neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neft, qaz və qaz kondensatının hasilatı, emalı və nəqli, neft, qaz və neft–kimya məhsullarının daxili və xarici bazarlarda satışını həyata keçirir.

SOCAR, HPBS çərçivəsində Azərbaycan Respublikasının adından çıxış edən şirkət olduğu üçün podratçı şirkətlərdən məhsul şəklində dövlətin payına düşən neft və qazı əldə edir. 2017-ci ildə SOCAR-ın Podratçı şirkətlərdən əldə etdiyi neft və qazın həcmi Cədvəl 17-də öz əksini tapmışdır.

Dövlətin payına düşən mənfəət neftinin və qazın satışından əldə edilən gəlirlər ARDNF-in büdcəsinə daxil olunur və həmin məlumat Cədvəl 24-də göstərilmişdir. 2017-ci ildə ARDNF-in dövlət büdcəsinə etdiyi transfer barədə məlumat Cədvəl 25-də qeyd olunmuşdur.

SOCAR-ın fəaliyyəti zamanı yaranan vergi öhdəlikləri (mənfəət vergisi, ƏDV, əmlak, aksiz vergisi, gəlir vergisi, qiymət fərqi üzrə yığımlar və digər vergilər), sosial sığorta ödənişləri müvafiq qanunvericiliyə uyğun olaraq hesablanır və Dövlət Xəzinədarlığı Agentliyinə köçürülür.

SOCAR-a maliyyə vəsaitlərinin ayrılması nizamnamə kapitalı və ya kredit ayırmaları vasitəsi ilə həyata keçirilir. Azərbaycan Respublikası Mərkəzi Bankı Borcverən qismində çıxış edərək, borcalan Azərbaycan bankları və təkrar borcalan qismində SOCAR-a dövlət zəmanəti ilə kredit vəsaiti ayırır. Zamin kimi Azərbaycan Respublikası hökuməti adından çıxış edən Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankı, SOCAR və Azərbaycan bankları arasında dövlət zəmanətinin verilməsi barədə saziş imzalanır.

Dövlətə ayırmalar dövlətin xüsusi qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı–ayrı dövlət agentliklərinə və dövlətin həyata keçirdiyi layihələrə SOCAR tərəfindən pul şəklində qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin balans dəyərində qeydə alınır. [59]

## 2.7.7 Xarici bazarlarda fəaliyyətin genişləndirilməsi

***Cənub Qaz Dəhlizi layihəsi***

Cənub Qaz Dəhlizi layihəsi Xəzər dənizinin qaz ehtiyatlarını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təchizatının artırılmasını hədəfləyir. Cənub Qaz Dəhlizi aşağıdakı dörd layihədən ibarətdir:

1. Şahdəniz qaz-kondensat yatağının istismarı (“SD1” layihəsi) və tammiqyaslı işlənilməsi (“SD2” layihəsi);
2. Mövcud Cənubi Qafqaz Boru Kəmərinin istismarı (“CQBK”) və onun Azərbaycan və Gürcüstan ərazisində kəmər boyunca yeni paralel boru kəməri vasitəsilə genişləndirilməsi (“CQBKG”);
3. Trans-Anadolu Boru Kəmərinin (“TANAP” layihəsi) inşası və gələcəkdə bu kəmər vasitəsilə Şahdəniz qazının Türkiyə ərazisi boyunca nəql etdirilməsi;
4. Trans-Adriatik Boru Kəmərinin (“TAP” layihəsi) inşası və gələcəkdə bu kəmər vasitəsilə Şahdəniz qazının Yunanıstan, Albaniya ərazilərindən, həmçinin Adriatik dənizindən İtaliyaya nəql etdirilməsi.

Bu layihələr (SD2, CQBKG, TANAP və TAP layihələri, birlikdə “Layihələr) birlikdə Cənub Qaz Dəhlizi kimi tanınır. Layihələrdə Dövlətə məxsus iştirak paylarının konsolidasiya edilməsi, idarə edilməsi və maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 saylı Sərəncamı ilə “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyəti (“CQD QSC”) təsis edilmişdir. “CQD” QSC-nin səhmlərinin 51 faizi Dövlətə (İqtisadiyyat Nazirliyi) və 49 faizi SOCAR-a məxsusdur.

2014-2017-ci illər ərzində CQD layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə ARDNF-dən (İqtisadiyyat Nazirliyinin adından) ümumilikdə 1 232,1 milyon ABŞ dolları və yaxud 1 530,3 milyon manat vəsait yönəldilmişdir. [60]

**Şahdəniz layihəsi (SD1 və SD2)**

SD1 üzrə ilk qaz satışları 2006-cı ildə başlamışdır və layihə çərçivəsində əməliyyatlar davam etmək üzrədir.

Şahdəniz qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi və ya Şahdəniz 2 (SD2) dünyada ən böyük və mürəkkəb qaz layihələrdən biri və Xəzər dənizində ilk sualtı infrastrukturdur. SD2 layihəsi SD1 layihəsi üzrə illik 10,9 milyard $m^3$ qaz hasilatı gücünə 16 milyard $m^3$ qaz və gündəlik 50 min barelədək kondensat hasilatı gücünə 105 min barelədək kondensat əlavə edəcəkdir. SD2 layihəsi üzrə hasil olunacaq 6 milyard $m^3$ qaz Türkiyə və 10 milyard $m^3$ qaz Avropa istehlakçılarına təchiz ediləcəkdir.

2017-ci ildə bütün layihə boyu əldə edilmiş bir sıra mühüm tikinti, istismar sınaqları və təhvil vermə nailiyyətlərindən sonra SD2 və CQBKG layihələri istismara başlamaq mərhələsinə daxil olaraq 30 iyun 2018-ci il tarixində işə salınmışdırlar.

[59] SOCAR, “Maliyyə hesabatı 2017-ci il”, “Qeyd 2, Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri”, səh. 20, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf
[60] “Azərbaycan Respublikası Dövlət Neft Fondu”nun İllik hesabatı – 2017, http://www.oilfund.az/uploads/REPORT_AZ_2017.pdf

SD2 layihəsi üzrə ilk qazın əldə olunması üçün lazım olan iş həcmi mühəndis-layihə işləri, təchizat, tikinti və istismar sınaqları da daxil olmaqla, artıq 100% tamamlanmışdır[61].

15 mart 2017-ci il tarixində SD2 Yaşayış Blokları və Texnoloji Təchizat (YBTT) platformasının ikinci dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan (BDÖZ) Xəzər dənizindəki Şahdəniz müqavilə sahəsinə yola salındı. 1 iyun 2017-ci tarixində Şahdəniz 2 platformalarının birinci üst tikililəri dənizə yola salındı. [62] Hasilat və Dikboru (HD) platformasının üst hissəsi isə 15 sentyabr 2017-ci il tarixində dənizə yola salınmışdır.

Türkiyə Respublikasına ilk qaz ixracı 2018-ci ildə planlaşdırıldığı kimi təchiz edilmişdir, Avropaya isə 2020-ci ildə nəzərdə tutulmuşdur.

SD2 layihəsinin ümumi kapital xərclərinin 22,7 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir.

Şahdəniz layihəsi üzrə Podratçı Tərəflər aşağıdakılardır:

**Şahdəniz layihəsi üzrə podratçı tərəflər**




## Cənubi Qafqaz Boru Kəməri (CQBK)

CQBK 692 km uzunluq (Azərbaycan ərazisində - 443 km, Gürcüstan ərazisində - 249 km) və 42 düym diametr ölçüsündə olan boru kəməridir. Boru kəməri Şahdəniz yatağından hasil edilən qazı Gürcüstan-Türkiyə sərhədinə nəql etmək məqsədilə inşa edilmişdir. İllik nəql qabiliyyəti 7,41 milyard $m^3$ təşkil edir.

*CQBK sisteminin genişləndirilməsi (CQBKG)*

Genişləndirmə Azərbaycan və Gürcüstan ərazilərindən keçəcək yeni 48 düym diametrli boru kəmərinin və həmçinin Gürcüstan ərazisində 2 yeni kompressor stansiyasının inşasını əhatə edir. Yeni boru kəmərinin uzunluğu 489 km təşkil edəcəkdir (Azərbaycan ərazisində - 424 km, Gürcüstan ərazisində – 63 km, TANAP arabağlantısında - 2 km). Boru kəməri 2018-ci ildə fəaliyyətə başlamışdır.

Genişləndirmə nəticəsində boru kəmərinin ötürmə qabiliyyəti əlavə 16 milyard $m^3$ artırılaraq ümumi 23,4 milyard $m^3$ səviyyəsinə çatdırılacaq və beləliklə ümumi qaz nəqletmə qabiliyyəti 3 dəfə artacaqdır.

---

61 https://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz/SDstage2.html
62 https://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz/projecthistory.html

Təbii qazın Türkiyə vasitəsilə Avropaya çatdırılması məqsədilə, boru kəməri Gürcüstan-Türkiyə sərhədində TANAP sisteminə qoşulmuşdur.

CQBKG layihəsinin ümumi kapital xərclərinin 4,5 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir. Boru kəmərinin sahibləri aşağıdakılardır.

**Cənubi Qafqaz Boru Kəməri layihəsinin səhmdarları**




**TANAP**

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək TANAP "Cənub Qaz Dəhlizi"-nin tərkib hissəsi olan layihədir. Uzunluğu 1 804 km (və əlavə 2 ədəd 17.5 km-lik Çanaqqala Boğazından keçən sualtı kəmər) olan TANAP-ın Əskişəhərə qədər olan hissəsi 2018-ci ildə istismara verilmişdir. Boru kəmərinə tələb olunan kapital xərcləri 8,0 milyard ABŞ dollarıdır. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 mlrd. $m^3$-dir və sonradan bu həcmin 31 mlrd. $m^3$-dək artırılması imkanı vardır.

TANAP-ın səhmdarları aşağıdakılardır:




**TAP**

TAP layihəsi, Yunanıstan ərazisində Yunanıstan-Türkiyə sərhədindən başlayaraq, TANAP-a birləşən, Yunanıstandan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyada başa çatan və “Snam Rete Gas” (SRG) şəbəkəsinə birləşən təbii qaz boru kəmərinin layihələndirilməsindən, tikintisindən və istismarından ibarətdir. TAP layihəsi təbii qazın Azərbaycandan Avropa bazarlarına ixrac etmək üçün sərfəli yol kimi seçilmişdir. TAP layihəsi üzrə Albaniya, İtaliya və Yunanıstan arasında “Hökümətlərarası Saziş” 2013-cü ilin fevral ayında imzalanmışdır. Uzunluğu 878 km olan boru kəmərinin 550 km-i Yunanıstan, 215 km-i Albaniya, 105 km-i Adriatik dənizi, 8 km-i İtaliya ərazilərindən keçir. TAP layihəsinin ümumi kapital xərclərinin 4,5 milyard avro təşkil edəcəyi gözlənilir.

TAP-ın səhmdarları aşağıdakılardır:



## 2.7.8 Dövlət müəssisələri tərəfindən əldə olunan kreditlər və zəmanətlər

31 dekabr 2017-ci il tarixində bitmiş il üzrə SOCAR-ın əldə etdiyi kreditlər və buraxılmış istiqrazları barədə məlumatlar aşağıda göstərilmişdir: [63]

***Yeni kreditlər***

2017-ci il ərzində SOCAR yerli və beynəlxalq maliyyə institutlarından 798 milyon AZN (457 milyon ABŞ dolları), 186 milyon AZN (101 milyon avro) və 254 milyon AZN (368 milyon GEL) məbləğində yeni uzunmüddətli kreditlər əldə etmişdir. Bundan əlavə, SOCAR yerli maliyyə institutundan 140 milyon AZN (82 milyon ABŞ dolları) məbləğində yeni qısamüddətli kredit əldə etmişdir.

SOCAR-ın 2017-ci il 31 dekabrın tarixinə ümumilikdə borc öhdəlikləri 15 511 milyon AZN qiymətləndirilir. Bunun 5 998 milyon manatı qısamüddətli borc öhdəlikləri, 9513 milyon manatı isə uzunmüddətli borc öhdəliklərinin payına düşür. Halbuki 2008-ci ildə şirkətin ümumi borc öhdəlikləri 2 110,9 milyon AZN olub. Həmin il qısamüddətli borc öhdəlikləri 386,4 milyon AZN, uzunmüddətli borc öhdəliklərinin həcmi isə 1 724,5 milyon AZN olub[64]

31 dekabr 2017-ci il tarixində bitmiş il üzrə SOCAR-ın kreditor borcların məbləğləri aşağıdakı kimi olmuşdur (məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilir) [65]:

| Vəsaitlər | Faiz dərəcəsi | Ödəniş tarixi | İlkin valyutada cəmi borc öhdəliyi | 31 dekabr 2017-ci il tarixində qalıq |
|---|---|---|---|---|
| ABŞ dolları ilə qısamüddətli vəsaitlər | 1.7-14% | yanvar 2018-dekabr 2018 | 2,280 | 3,864 |
| TL ilə qısamüddətli vəsaitlər | 9.66-15.35% | yanvar 2018-dekabr 2018 | 617 | 275 |
| GEL ilə qısamüddətli vəsaitlər | 10.25-15.5% | yanvar 2018-dekabr 2018 | 108 | 58 |
| Sair valyutada qısamüddətli vəsaitlər | 0.7-20% | yanvar 2018-sentyabr 2018 | 361 | 481 |
| Uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | | | - | 1,320 |
| **Cəmi qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi** | | | **-** | **5,998** |

| Vəsaitlər | Faiz dərəcəsi* | Ödəniş tarixi | Uzunmüddətli hissəsi | Cari hissəsi |
|---|---|---|---|---|
| 1000 milyon ABŞ dolları | 4.75% | mart 2023 | 1,663 | 20 |
| 750 milyon ABŞ dolları | 6.95% | mart 2030 | 1,224 | 27 |
| 489 milyon ABŞ dolları | LIBOR + 6.95% | iyul 2025 | 758 | 15 |
| 300 milyon ABŞ dolları | LIBOR + 3.25% | mart 2022 | 502 | 7 |
| 260 milyon ABŞ dolları | LIBOR +4.3% + 1.25% | dekabr 2022 | 431 | - |
| 485 milyon ABŞ dolları | LIBOR + 1% | dekabr 2024 | 353 | 131 |
| 251 milyon Avro | EURIBOR + 3.03% | iyun 2028 | 308 | 1 |
| 200 milyon ABŞ dolları | LIBOR + 1.335% | dekabr 2027 | 286 | 14 |
| 378 milyon AZN | 3.5% | oktyabr 2024 | 283 | 107 |
| 249 milyon Avro | EURIBOR + 0.95% | iyun 2028 | 265 | 1 |
| 600 milyon AZN | 4% | iyul 2022 | 260 | 66 |
| 350 milyon AZN | 3% | iyun 2023 | 250 | 110 |
| 100 milyon ABŞ dolları | 5% | oktyabr 2021 | 170 | 2 |

[63] SOCAR 2016-ci il üzrə maliyyə hesabatı, səhifə 96 http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2016.pdf
[64] Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzi tərəfindən hazırlanan SOCAR-ın idarəetmə, hesabatlılıq və şəffaflıq haqda tədqiqat araşdırmaları - http://eurasiahub.khazar.org/pdf/AZ_SOCAR.pdf
[65] SOCAR 2017-ci il üzrə maliyyə hesabatı, səhifə 61 http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/Financial%20report%202017.pdf

| Vəsaitlər | Faiz dərəcəsi* | Ödəniş tarixi | Uzunmüddətli hissəsi | Cari hissəsi |
|---|---|---|---|---|
| 100 milyon ABŞ dolları | LIBOR + 3.25% | fevral 2022 | 168 | 4 |
| 100 milyon ABŞ dolları | LIBOR + 3.25% | aprel 2022 | 167 | 2 |
| 106 milyon ABŞ dolları | LIBOR +4.675% | mart 2028 | 163 | 17 |
| 106 milyon ABŞ dolları | 5% | mart 2028 | 163 | 17 |
| 15,398 milyon JPY | 1.5% | aprel 2039 | 161 | 8 |
| 78 milyon ABŞ dolları | 4% | dekabr 2027 | 157 | - |
| 101 milyon ABŞ dolları | LIBOR + 2.8% | aprel 2022 | 138 | 34 |
| 100 milyon ABŞ dolları | LIBOR + 2.33% | iyun 2020 | 114 | 57 |
| 98 milyon AZN | 3.5% | dekabr 2028 | 98 | - |
| 50 milyon ABŞ dolları | 4.81% | dekabr 2019 | 85 | - |
| 100 milyon AZN | 3.5% | yanvar 2026 | 80 | 23 |
| 65 milyon ABŞ dolları | 6.25% | dekabr 2024 | 80 | 19 |
| 150 milyon ABŞ dolları | LIBOR + 1.8% | noyabr 2019 | 74 | 73 |
| 150 milyon ABŞ dolları | LIBOR + 1.8% | dekabr 2019 | 74 | 73 |
| 100 milyon ABŞ dolları | LIBOR + 2.4% | may 2020 | 73 | 49 |
| 55 milyon ABŞ dolları | LIBOR + 5.25% | sentyabr 2024 | 71 | 14 |
| 35 milyon Avro | LIBOR + 0.063% | dekabr 2026 | 71 | - |
| 70 milyon AZN | 4% | yanvar 2027 | 63 | 10 |
| 35 milyon Avro | LIBOR + 0.072% | noyabr 2025 | 62 | 9 |
| 29 milyon ABŞ dolları | 4% | dekabr 2027 | 59 | - |
| 144 milyon AZN | 0.16% (0.15%+ 0.01%) | yanvar 2045 | 55 | 8 |
| 38 milyon ABŞ dolları | 4.01% | dekabr 2023 | 54 | 10 |
| 40 milyon Avro | EURIBOR + 2.25% | dekabr 2020 | 54 | 27 |
| 50 milyon ABŞ dolları | LIBOR + 2.2% | iyul 2020 | 48 | 25 |
| 22 milyon CHF | LIBOR + 0.0714% və ya 0% | yanvar 2019 | 38 | - |
| 150 milyon ABŞ dolları | LIBOR + 2.5% | mart 2019 | 37 | 74 |
| 150 milyon ABŞ dolları | LIBOR + 2.2% | may 2019 | 37 | 73 |
| 24 milyon ABŞ dolları | 4.26% | dekabr2022 | 32 | 8 |
| 20 milyon Avro | 1.64% | oktyabr 2023 | 31 | 6 |
| 20 milyon Avro | LIBOR + 0.872% | sentyabr 2023 | 31 | 6 |
| 52 milyon ABŞ dolları | 6% | yanvar 2020 | 30 | - |
| 50 milyon ABŞ dolları | LIBOR + 1.8% | noyabr 2019 | 29 | 29 |
| 50 milyon ABŞ dolları | LIBOR + 1.8% | dekabr 2019 | 25 | 24 |
| 51 milyon GEL | 14% | iyul 2020 | 20 | 13 |
| 10 milyon ABŞ dolları | 5% | oktyabr 2020 | 17 | - |
| 35 milyon ABŞ dolları | LIBOR + 2.35% | aprel 2020 | 13 | 9 |
| 12 milyon Avro | LIBOR + 3% | mart 2022 | 11 | 3 |
| 20 milyon ABŞ dolları | LIBOR + 2% | aprel 2023 | 10 | - |
| 5 milyon ABŞ dolları | 5% | iyun 2020 | 9 | - |
| 6 milyon ABŞ dolları | 4.26% | dekabr2022 | 7 | 2 |
| 5 milyon ABŞ dolları | 4.26% | dekabr2022 | 7 | 2 |
| 7 milyon Avro | LIBOR + 3% | mart 2022 | 7 | 2 |
| 4 milyon ABŞ dolları | 4.26% | dekabr 2022 | 6 | **1** |
| 6 milyon ABŞ dolları | 4.01% | fevral 2020 | 5 | 5 |
| 4 milyon ABŞ dolları | 4.26% | dekabr 2022 | 5 | 1 |
| 5 milyon Avro | LIBOR + 3% | mart 2022 | 5 | 1 |
| 150 milyon ABŞ dolları | LIBOR + 2.5% | noyabr 2018 | - | 73 |
| Digər uzunmüddətli borc öhdəlikləri | | | 16 | 8 |
| **Cəmi uzunmüddətli borc öhdəlikləri** | | | **9,513** | **1,320** |

(*) LIBOR və EURIBOR 3 aydan 12 ayadək dəyişir.

***İstiqrazların buraxılması***

10 mart 2017-ci il tarixində SOCAR-ın asılı müəssisəsi CQD ödəmə müddəti 2026-cı ilin mart ayında başa çatan Azərbaycan Respublikasının zəmanət verdiyi 1 720 milyon AZN (1 milyard ABŞ dolları) məbləğində imtiyazlı təminatsız istiqrazlar buraxmışdır.

***Bondun qaytarılması***

6 fevral 2017-ci il tarixində SOCAR 9 fevral 2017-ci il tarixində ödənilməli olan 5,45 faiz imtiyazlı təminatsız istiqrazlar üzrə (ilkin balansı 500 milyon ABŞ dolları) 185 milyon AZN (97 milyon ABŞ dollarını) məbləğini tamamilə qaytarmışdır.

31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə "AzerGold" QSC- nin əməliyyatların genişlənməsi məqsədi ilə aşağıdakı maliyyə institutlarından əldə etdiyi kredit borcları aşağıdakı kimi olmuşdur:

| **Uzunmüddətli borc öhdəlikləri** | | | |
|---|---|---|---|
| **Bank** | **Effektiv faiz dərəcəsi** | **Son ödəmə tarixi** | **31 dekabr 2017-ci il** |
| **"PaşaBank" ASC** | | | **17 940 321** |
| Kredit 1 | 4% | Noyabr, 2021 | 11 768 183 |
| Kredit 2 | 4% | Dekabr, 2021 | - |
| Kredit 3 | 4% | Mart, 2022 | 6 172 137 |
| **"Xalq Bank" ASC** | | | **87 000 000** |
| Kredit | 4% | Noyabr, 2021 | 87 000 000 |
| | | | |
| **Cəmi uzunmüddətli borc öhdəlikləri** | | | **104 940 321** |
| | | | |
| **Qısamüddətli borc öhdəlikləri** | | | |
| **"PaşaBank" ASC** | | | **5 196 061** |
| Kredit 1 | 4% | Dekabr, 2018 | 3 731 214 |
| Kredit 2 | 4% | Dekabr, 2018 | - |
| Kredit 3 | 4% | Dekabr, 2018 | 1 429 177 |
| Hesablanmış faiz borcu | | tələb olunanadək | 35 671 |
| **"Xalq Bank" ASC** | | | **58 001** |
| Hesablanmış faiz borcu | | tələb olunanadək | 58 001 |
| | | | |
| **Cəmi qısamüddətli borc öhdəlikləri** | | | **5 254 062** |

# 3. HASİLAT SƏNAYESİNƏ BAXIŞ

## 3.1. Mədən sənayesinin icmalı

***Neft və qaz sənayesi***

Azərbaycanda neftin əsas yataqları Xəzər dənizi şelfi və Abşeron yarımadasındadır. Neftin əsas ehtiyatları Abşeron sularının cənubunda aşkar edilmişdir. Abşeron yarımadasının şimalında– Siyəzəndə və Abşeronun qərbində və cənub-qərbində Qobustan, Şirvan və Salyandakı neft mənbələri ehtiyatlara malikdir. Gəncə yaxınlığındakı Naftalan yataqlarında özünəməxsus xüsusiyyətə malik müalicəvi neft mədənləri vardır. Neftlə bərabər çıxan təbii qazın mövcudluğu da böyük əhəmiyyət daşıyır.

***Təsvir 7***: *Neft və qaz yataqlarının xəritəsi*




Neft və qaz ehtiyatları üzrə imzalanmış 31 sazişdən 2017- ci ildə 17-i aktivdir olmuşdur:

***Cədvəl 4:*** *Dənizdəki yataqlar*

| İmza tarixi | Podratçı tərəflər və onların payları | | | Ehtiyatlar | |
|---|---|---|---|---|---|
| | Şirkətin adı | 2016-cı il üzrə % | 2017-ci il üzrə % | Neft | Qaz |
| *Azəri və Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş* [66] **(hasilat mərhələsi)** | | | | | |
| **20.09.1994** | BP Eksploreyşn (Kaspian Si) Limited | 35,8 | 30,37 | ✓ | |
| | Azərbaycan (EYSC) Limitid | 11,6 | 25,0 | | |
| | Şevron Xəzər, Ltd | 11,3 | 9,57 | | |
| | Inpeks Sausvest Kaspian Si, Ltd. | 11,0 | 9,31 | | |
| | Equinor* | 8,6 | 7,27 | | |
| | Ekson Azərbaycan Limited | 8,0 | 6,79 | | |
| | Türkiye Petrolleri Anonim Ortaqlığı. | 6,8 | 5,73 | | |
| | İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnc. | 4,3 | 3,65 | | |
| | ONGC Videş Limited | 2,7 | 2,31 | | |
| *Şahdəniz* [67] **(hasilat mərhələsi)** | | | | | |
| **04.06.1996** | BP Eksploreyşn (Azərbaycan) Limited | 28,8 | 28,8 | | ✓ |
| | Azərbaycan (Şah Dəniz) Limitid | 10,0 | 10,0 | | |

[66] BP şirkəti, "Əməliyyatlar və layihələr", "Azəri–Çıraq–Dərinsulu Günəşli", http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.
[67] BP şirkəti, "Əməliyyatlar və layihələr", "Şahdəniz", http://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz.html

| | | | | | |
|---|---|---|---|---|---|
| | Lukoyl Oversiz Shah Deniz Ltd. | 10,0 | 10,0 | | |
| | Naftiran İntertrade Co (NICO) Limited | 10,0 | 10,0 | | |
| | Petronas Azerbaijan Shah Deniz S.A.R.L | 15,5 | 15,5 | | |
| | Türkiş Petroleum Oversiz Kompani Ltd | 19,0 | 19,0 | | |
| | SGC Upstream MMC | 6,7 | 6,7 | | |
| *Abşeron yatağı* [68] **(kəşfiyyat mərhələsi)** | | | | | |
| **27.02.2009** | SOCAR-ın Ortaq Şirkəti | 40,0 | 50,0 | | ✓ |
| | Total E & P Abşeron B.V | 20,0 | 50,0 | | |
| | ENGİE Eand P Absheron B.V.* | 20,0 | 00,0 | | |
| *Şəfəq-Asiman Yatağı* [69] **(kəşfiyyat mərhələsi)** | | | | | |
| **07.10.2010** | BP Şəfəq-Asiman Limited | 50,0 | 50,0 | | ✓ |
| | SOCAR-ın Ortaq Şirkəti | 50,0 | 50,0 | | |
| *Abşeron yarımadası ətrafında dayazsulu sahə* [70] ***(kəşfiyyat mərhələsi)*** | | | | | |
| **14.04.2015** | BP Eksploreyşn (Kaspian Si) Limited | 50,0 | 50,0 | | ✓ |
| | SOCAR-ın Ortaq Şirkəti | 50,0 | 50,0 | | |
| *Bahar yatağının və Qum-Dəniz yatağının daxil olduğu blok* **(hasilat mərhələsi)** | | | | | |
| **22.12.2009** | Bahar Energy Limited | 80,0 | 80,0 | ✓ | ✓ |
| | SOCAR-ın Ortaq Şirkəti | 20,0 | 20,0 | | |

* 2018-ci il tarixində Statoil ASA şirkətinin idarə heyəti şirkətin adını "Equinor"-ə dəyişdirməyi təklif etmişdir. Şirkətin adının dəyişdirilməsi şirkətin strategiyasını və inkişafını geniş enerji şirkəti kimi dəstəkləyir. Yeni ad 2018-ci il 15 may tarixində keçiriləcək yığıncaqda iştirak etmək üçün səhmdarlara təqdim edilmişdir.[71]

Norveçin "Statoil ASA" şirkətinin yeni adı olan Equinor ASA, səhmdarların illik ümumi iclasında təsdiqlənib və 2018-ci ilin 16 may tarixində qüvvəyə minmişdir.[72]

* 23 mart 2017-cil tarixli məktuba əsasən “ENGİE Eand P Absheron B.V.” hasilat şirkəti Abşeron Qaz Yatağı üzrə HPBS-də olan 20% iştirak payını bərabər nisbətdə digər podratçı tərəflər olan SOCAR-ın Ortaq Şirkəti və Total E & P Abşeron B.V. arasında bölərək layihədən ayrılmışdır.

### *Azəri–Çıraq–Günəşli*

20 sentyabr 1994-cü il tarixində Bakıda Azərbaycan hökuməti və altı xarici ölkəni təmsil edən 11 beynəlxalq neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı üç çox mühüm neft yatağı nın – Azəri, Çıraq və Günəşli yatağının dərinsulu hissəsinin işlənməsi üçün imzalanan Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) yeni neft strategiyasının başlanğıcını qoydu və bu strategiyanın həyata keçirilməsi ölkənin sürətlə inkişaf edərək Avropanın enerji xəritəsini dəyişdirə bilən mühüm qlobal enerji təchizatçısına çevrilməsinə imkan yaratdı.[73] Hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişə əsasən AÇG yataqlarının işlənməsi 2049-cu ilə qədər uzadılır və BP layihənin operatoru olaraq qalır. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65%-dən 25%-ə qaldırılacaq və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard ABŞ dolları bonus ödəyəcəklər. 20 sentyabr 1994-cü ildə “Əsrin Müqaviləsi” imzalanandan bəri AÇG-yə 33 milyard ABŞ dolları sərmayə qoyulub və 440 milyon ton neft hasil edilməklə ölkəmiz 125 milyard ABŞ dollarından çox birbaşa mənfəət əldə etmişdir.[74]

Bu, Azərbaycanın dənizdə işlənmələr üzrə birinci HPBS-idir. Müddəti 30 il olan bu HPBS qərb transmilli şirkətləri tərəfindən keçmiş Sovet İttifaqı Respublikalarında yatırılan ilk mühüm sərmayə qoyuluşunu təmsil edir və “Əsrin Müqaviləsi” kimi tanınmışdır.

1970-ci illərin əvvəllərində Azərbaycan hələ Sovet İttifaqının tərkibində olarkən kəşf edilmiş Azəri-Çıraq-Günəşli yatağı dünya səviyyəli yataqdır. O, Bakıdan şərq istiqamətində təxminən 120 km

---

[68] SOCAR, “Fəaliyyət”, http://www.socar.az/socar/az/activities/exploration/absheron
[69] BP şirkəti, “Əməliyyatlar və layihələr”, “Şəfəq–Asiman”, http://www.bp.com/az_az/caspian/operationsprojects/Shafagasiman.html
[70]BP şirkəti, “Əməliyyatlar və layihələr”, “Abşeron yarımadasının dayazsulu hissəsi”, http://www.bp.com/az_az/caspian/operationsprojects/SWAP.html
[71] Equinor rəsmi internet səhifəsi - https://www.equinor.com/en/news/15mar2018-statoil.html
72 http://www.naturalgasintel.com/articles/114401-brief----statoil-now-equinor
[73] BP şirkəti, “Əməliyyatlar və layihələr”, “Azəri–Çıraq–Dərinsulu Günəşli”, https://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html
[74] SOCAR 2017-ci il üzrə illik hesabatı, http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/illik-hesabat-2017.pdf

məsafədə, suyun 120 m dərinliyə malik olduğu ərazilərdə yerləşir və Xəzər dənizinin altında 2000-2500 metr dərinlikdə yerləşən bir sıra ayrı-ayrı "məhsuldar lay horizontlarından" ibarətdir.

Bu günədək yataq bir neçə mərhələdə işlənilib: İlkin Neft Layihəsinin (İNL) bir hissəsi kimi Çıraq yatağı 1997-ci ildən bəri istismardadır. Bundan sonra, Faza 1 layihəsi kimi Mərkəzi Azəridən 2005-ci ilin əvvəllərində hasilat başlandı. Növbəti mərhələ Faza 2 olub, bu mərhələyə 2005-cı ilin dekabrında hasilata başlayan Qərbi Azəri və 2006-cı ilin sonlarında hasilata başlayan Şərqi Azəri daxil idi. AÇG-nin növbəti işlənmə mərhələsi Faza 3 Dərinsulu Günəşlidən hasilat 2008-ci ilin aprel ayında başlanıb.

2017-ci ildə AÇG layihəsinə 456 milyon ABŞ dollarından artıq əməliyyat məsrəfləri və təqribən 1,18 milyard ABŞ dolları əsaslı məsrəflər xərclənmişdir. 2017-ci ildə AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam etmişdir. İl üçün AÇG-dən ümumi hasilat – Çıraq (51,000), Mərkəzi Azəri (137,000), Qərbi Azəri (124,000), Şərqi Azəri (82,000), Dərinsulu Günəşli (117,000) və Qərbi Çıraq (77,000) platformalarından birlikdə – gündə orta hesabla 588,000 barel və ya ümumilikdə təqribən 215 milyon barel, yəni 29 milyon ton olub.[75]

İlin sonunda AÇG-də ümumilikdə 115 neft hasilat quyusu və 54 qaz və su injektor quyusu istismarda olub. İl ərzində AÇG-də 17 neft hasilat quyusu, 3 suvurma quyusu qazılmışdır.[76]

2017-ci ildə AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"-dakı qurğu vasitəsilə gündə orta hesabla 7,9 milyon kubmetr, ümumilikdə isə 2,9 milyard kubmetr səmt qazı verilmişdir. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulmuşdur. [77]

- ***Şahdəniz***

Şahdəniz qaz yatağı Prudo Bey neft yatağından sonra BP-nin hələ də ən böyük kəşfi hesab olunur. Şahdəniz (ŞD) yatağı 1999-cu ildə kəşf edilmişdir. Bu yataq dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir. O, Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50-500 m arasında dəyişdiyi Xəzər dənizinin şelfində yerləşir. SD1 üzrə əməliyyatlara 2006-cı ildə başlanılıb. SD1 üzrə maksimum hasilat ildə təxminən 10 milyard kub metr qaz (mlrd.km/il) və gündə 50,000 barel kondensat təşkil edir. 2014-cü ildə mövcud Şahdəniz qurğularının texniki olaraq daha da optimallaşdırılması hasilat sisteminin gündəlik maksimum gücünü 27,3 milyon standart kubmetrdən 29,5 milyon standart kubmetr səviyyəsinə çatdırılmışdır.[78]

2017-ci il ərzində Şahdəniz üzrə fəaliyyətlərə təqribən 451 milyon ABŞ dolları əməliyyat xərcləri və təqribən 2,88 milyard ABŞ dolları əsaslı xərclər çəkilmişdir. Əsaslı xərclərin böyük əksəriyyəti SD2 layihəsinə aiddir.

2017-ci il ərzində Şahdəniz yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qaz çatdırılması davam etmişdir.

İl ərzində yataqdan 10,2 milyard standart kubmetr qaz və 2,4 milyon ton (təqribən 19 milyon barel) kondensat hasil edilmişdir.

Mövcud Şahdəniz qurğularının hasilat gücü hazırda gündə 30 milyon (ildə təqribən 10,9 milyard) standart kubmetrdir.

2017-ci ildə SD1-in Alfa platformasında SDA10 quyusu tamamlandı və istismara təhvil verildi. SDA11 quyusunda isə qazma işləri bərpa olundu və bu işlər hazırda davam edir.
SD2 üzrə, İstiqlal qazma qurğusu və Maersk Explorer hasilatın başlanması və ondan sonrakı tədrici artırılmasına hazırlıq çərçivəsində artıq 14 quyu qazıb, yatağın şimal cinahında dörd quyu, qərb

[75] BP şirkəti, Xəbərlər, Biznesə dair məlumatlar, 2017- ci ilin ilk 3 rübünün nəticələri - https://www.bp.com/az_az/caspian/press/businessupdates/third-quarter-2017-results.html
[76] BP şirkəti, Xəbərlər, Biznesə dair məlumatlar, 2017- ci ilinnəticələri - https://www.bp.com/az_az/caspian/press/businessupdates/2017-year-end--results1.html
[77] BP şirkəti, Xəbərlər, Biznesə dair məlumatlar, 2017- ci ilinnəticələri - https://www.bp.com/az_az/caspian/press/businessupdates/2017-year-end--results1.html
[78] BP şirkəti, "Əməliyyatlar və layihələr", "Şahdəniz", "Şahdəniz Mərhələ 1" - https://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz/SDstage1.html

cinahında isə üç quyu tamamlayıb. SD2 üzrə qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə nail olmaq üçün tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək. [79]

SD2 və ya Yatağın Tammiqyaslı İşlənməsi (YTİ) layihəsi SD1 layihəsindən hasil olunan illik 10 milyard kub metr qazdan əlavə 16 milyard kub metr qaz hasil edəcək nəhəng bir layihədir. SD2 layihəsinin ümumi kapital xərclərinin 22,7 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir. Bundan sonra əlavə kəmər sistemləri Cənub Qaz dəhlizi marşrutu üzrə 6 milyard kub metr qazı Türkiyəyə, əlavə 10 milyard kub metr qazı isə Avropadakı bazarlara çatdıracaq. Şahdəniz qazı 2 500 metr hündürlüyə qalxaraq və dəniz dibində 800 metr dərinliyinə enərək 3 500 kilometr məsafə boyunca nəql ediləcək. 2017-ci ildə bütün layihə boyu əldə edilmiş bir sıra mühüm tikinti, istismar sınaqları və təhvil vermə nailiyyətlərindən sonra SD2 və CQBKG layihələri istismara başlamaq mərhələsinə daxil olaraq 30 iyun 2018-ci il tarixində işə salınmışdır. SD2 layihəsi üzrə ilk qazın əldə olunması üçün lazım olan iş həcmi mühəndis-layihə işləri, təchizat, tikinti və istismar sınaqları da daxil olmaqla, artıq 100% tamamlanıb.[80]

2017-ci ildə SD2 platformalarının hər ikisinin üst modullarının tikintisi başa çatdırılmışdır. Bu qurğular təhlükəsiz şəkildə yola salındı və dənizdə quraşdırıldı[81]

- ***Abşeron yarımadasının dayazsulu hissəsi***

BP və SOCAR Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadası ətrafında yerləşən dayazsulu ərazilərdə potensial perspektiv strukturların birgə kəşfiyyatı və işlənməsi üçün 2014-cü ilin dekabr ayında Hasilatın Pay Bölgüsü haqqında Sazişi(HPBS) imzalamışdır.

2015-ci ilin 14 aprel tarixində Azərbaycan Respublikasının Milli Məclisi həmin Sazişi ratifikasiya etmişdir.

Bu, BP-nin Azərbaycan qarşısındakı uzunmüddətli öhdəliyinin bir hissəsi kimi və eləcə də onun həm ölkənin, həm də BP-nin qarşılıqlı faydalanması üçün Azərbaycandakı karbohidrogen ehtiyatlarının tam işlənməsini təmin etmək istiqamətindəki səyləri çərçivəsində gerçəkləşib.

Sazişə əsasən BP Eksploreyşn (Kaspian Si) Ltd şirkəti əməliyyatçı olmaqla müqavilədə 50% paya və SOCAR isə qalan 50% paya malikdir.

HPBS üzrə kontrakt sahəsi Xəzər hövzəsinin hüdudları boyunca Abşeron yarımadasının cənubuna doğru uzanır. Bu ərazidə suyun dərinliyi 40 metrədək dəyişir və potensial məhsuldar layların dərinliyi 3,000-5,000 metr təşkil edir. Bu, BP şirkətinə dünyanın başqa yerlərindəki digər dayazsulu ərazilərdə qazandığı təcrübəsini və qabaqcıl texnoloji həllərini bu əraziyə gətirməyə imkan verəcək.

Bu tədqiqat 1,300 kvadrat kilometr ərazidən 3-ölçülü məlumat əldə olunmasını əhatə etmişdir. Tədqiqat proqramı BP-nin qabaqcıl, patentləşdirilmiş Müstəqil Sinxron Mənbələr (İndependent Simultaneous Source with Nodes - ISSNTM) texnologiyası vasitəsilə həyata keçirilib.

Abşeron yarımadasının dayazsulu hissəsi üzrə hasilatın pay bölgüsü sazişi ərazisindən əldə edilmiş 3-ölçülü məlumatların interpretasiyası və emalı 2017-ci ilin sonunda yekunlaşmışdır. SOCAR-la Perspektivlik haqqında Bildiriş imzalanmaqla, BP-nin Abşeron yarımadasının dayazsulu hissəsində 3 perspektiv ərazidə kəşfiyyat quyuları qazmaq öhdəliyi müəyyən edilmişdir. Seçilmiş perspektiv ərazilərdə kəşfiyyat quyularının qazılması üçün planlaşdırma işləri davam edir.[82]

- ***Şəfəq-Asiman***

[79] Marja xəbər saytı - http://marja.az/news/20737
[80] BP şirkəti, "Əməliyyatlar və layihələr", "Şahdəniz", "Şahdəniz Mərhələ 2" - https://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz/SDstage2.html
[81] Marja xəbər saytı - http://marja.az/news/20737
[82] BP şirkəti, "Əməliyyatlar və layihələr", "Abşeron yarımadasının dayazsulu hissəsi", https://www.bp.com/az_az/caspian/operationsprojects/SWAP.html

2010-cu ilin oktyabr ayında BP ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı Şəfəq-Asiman perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi haqqında hasilatın pay bölgüsü sazişi (HPBS) imzalamışlar.
Bundan öncə Şəfəq-Asiman dəniz bloku üzrə HPBS-nin əsas kommersiya prinsiplərini müəyyən edən "Sazişin Əsas Prinsipləri" adlı sənəd razılaşdırılmış və imzalanmışdır. HPBS-nin müddəti 30 ildir və sazişə əsasən BP Eksploreyşn (Kaspian Si) Ltd. şirkəti əməliyyatçı olmaqla, müqavilədə 50% paya, SOCAR isə digər 50% paya malikdir.

Şəfəq-Asiman bloku Bakıdan təxminən 125 kilometr (78 mil) cənub-şərqdə yerləşir və təxminən 1,100 kvadrat kilometr ərazini əhatə edir. Bu dəniz blokunda indiyədək heç bir geoloji-kəşfiyyat işi aparılmamışdır. Blok dənizin dərinsulu hissəsində suyun dərinliyinin təxminən 650-800 metr olduğu bir ərazidə yerləşir və kollektorun dərinliyi təxminən 7,000 metrdir.

2012-ci ilin əvvəllərində "Giləvar" seysmik gəmisi Şəfəq-Asiman üzrə 3-ölçülü seysmik tədqiqat proqramını başa çatdırdıqdan bəri biz əldə edilmiş məlumatın təhlilini aparırıq. Bu, həmin müqavilə ərazisində indiyədək aparılmış ilk 3-ölçülü seysmik tədqiqatdır.

2014-cü ilin birinci yarısında məlumatların təhlili tamamlanmış və onun interpretasiyasına başlanılmışdır.

2017-ci il Hesabat dövründə Şəfəq-Asiman üzrə ilk kəşfiyyat quyusunun planlaşdırılması işləri davam etmişdir.[83]

[83] BP şirkəti, "Əməliyyatlar və layihələr", " Şəfəq Asiman" https://www.bp.com/az_az/caspian/operationsprojects/Shafagasiman.html

***Cədvəl 5:** Qurudakı yataqlar* [84]

| İmza tarixi | Podratçı tərəflər və onların payları | | | Ehtiyatlar | |
|---|---|---|---|---|---|
| | Şirkətin adı | 2016-cı il üzrə % | 2017-ci il üzrə % | Neft | Qaz |
| Padar Sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu bloku üzrə **(kəşfiyyat mərhələsi)*** | | | | | |
| **27.04.1999** | Kura Valley Development Company Ltd. | 80,0 | 80,0 | ✓ | |
| | SOCAR-ın ortaq şirkəti | 20,0 | 20,0 | | |
| Balaxanı-Sabunçu-Ramana və Kürdəxanı yataqlarının daxil olduğu blok **(hasilat mərhələsi)** | | | | | |
| **06.05.2011** | UGE-LANCER PTE Ltd. | 75,0 | 75,0 | ✓ | |
| | SOCAR-ın ortaq şirkəti | 25,0 | 25,0 | | |
| Kürovdağ Neft yatağının daxil olduğu blok **(hasilat mərhələsi)** | | | | | |
| **03.02.2009** | Şirvan İnvestment Limited | 80,0 | 80,0 | ✓ | |
| | SOCAR-ın ortaq şirkəti | 20,0 | 20,0 | | |
| Kürsənqi və Qarabağlı Neft yataqlarının daxil olduğu Bloku **(hasilat mərhələsi)** | | | | | |
| **15.12.1998** | "Salyan Neft" MMC | 50,0 | 50,0 | ✓ | |
| | Si En Pi Si İnternəşnl (Kura) Limited | 25,0 | 25,0 | | |
| | Foçnmeyt Əsets Limited | 25,0 | 25,0 | | |
| Mişovdağ və Kəlaməddin Neft yataqlarının daxil olduğu blok **(hasilat mərhələsi)** | | | | | |
| **12.09.2000** | Karasu Development Kompani | 85,0 | 85,0 | ✓ | |
| | "Əli-Bayramlı Neft" MMC | 15,0 | 15,0 | | |
| Neftçala, Xıllı, Durovdağ-Babazanan Neft yataqlarının və Muğan Monoklinalinin Cənub-Qərb Qanadının daxil olduğu blokun üzrə **(hasilat mərhələsi)** | | | | | |
| **03.02.2009** | Nefteçala İnvestments Limited | 80,0 | 80,0 | ✓ | |
| | SOCAR-ın ortaq şirkəti | 20,0 | 20,0 | | |
| Pirsaat Neft yatağı və ona bitişik sahələr daxil olduğu blok **(kəşfiyyat mərhələsi )** | | | | | |
| **04.06.2003** | Petro-Hong-Kong Pirsaat Oil | 80,0 | 80,0 | ✓ | |
| | SOCAR-ın ortaq neft şirkəti | 20,0 | 20,0 | | |
| Suraxanı Yatağı **(hasilat mərhələsi)** | | | | | |
| **16.08.2005** | Novatis Oyl F.Z.E. | 75,0 | 75,0 | ✓ | |
| | SOCAR-ın ortaq neft şirkəti | 25,0 | 25,0 | | |
| Zığ və Hövsan Neft yataqları üzrə **(hasilat mərhələsi)** | | | | | |
| **03.11.2006** | Apşeron İnvestment Limited | 75,0 | 75,0 | ✓ | |
| | SOCAR-ın ortaq neft şirkəti | 25,0 | 25,0 | | |
| Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor Neft yataqları üzrə **(hasilat mərhələsi)** | | | | | |
| **29.09.2004** | Azen Oyl Kompani B.V. | 75,0 | 75,0 | ✓ | |
| | SOCAR-ın ortaq neft şirkəti | 25,0 | 25,0 | | |
| Cənub-Qərbi Qobustanın Şıxzəgirli, Şeytanud, Bürgüt, Donquzduq, Nardaran, İlxiçi, Qərbi hacıvəli, Sundi, Şərqi Hacıvəli, Turağay, Kənizədağ, Qərbi Duvannı, Solaxay və Daşgil Yataqlarının daxil olduğu üç blok **(hasilat mərhələsi)** | | | | | |
| **02.06.1998** | Commonwealth Qobustan Limited | 80,0 | 80,0 | ✓ | |
| | "Qobustan Neft" MMC | 20,0 | 20,0 | | |
| Muradxanlı, Cəfərli və Zərdab yataqları **(hasilat mərhələsi)** | | | | | |
| **16.03.2016** | Zenit Aran Oyl Kompani Limited | - | 80,0 | ✓ | |
| | SOCAR-ın ortaq neft şirkəti | - | 20,0 | | |

o

*31 may 2016-cı il tarixli RPSA/CMC/01-16 nömrəli sazişə xitam verilməsi barədə qətnaməyə əsasən podratçı tərəfindən görülən çox saylı texniki tədbirlərə baxmayaraq və konrtakt sahəsində sənaye həcmində korbohidrogenlərin hasilatı artıq mümkün olmadığı üçün, Azərbaycan Respublikasında Padar Sahəsi və Ona Bitişik Perspektiv Strukturların Daxil olduğu Blokun Kəşfiyyatı, işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında Sazişin 30.3 (b) maddəsinə uyğun olaraq bütün kontrakt sahəsindən imtina edilsin.

[84] SOCAR, "Fəaliyyət", http://new.socar.az/socar/az/activities/production

## ***Qızıl və gümüş hasilati*** [85]

Son illərdə aşkar olunan qızıl yataqları mühüm geoloji kəşflərdəndir. Qarabağda Qızılbulaq qızıl–mis–kolçedanı, Zəngilanda Vecnəli kvars qızıl yataqları, Ordubad ərazisində Ağyurd, Piyasbaşı, Şəkərdərə kvars-qızıl depozitləri, Daşkəsəndə Çovdar yatağı, Gədəbəy və Dəlidağda Ağduzdaq kvars–qızıl yataqları geoloji ekspedisiyalar sayəsində aşkar olunmuşdur.

***Təsvir 8***: *Azərbaycan Respublikası ərazisində olan qızıl və gümüş yataqlarının yerləşmə sxemi*




Azərbaycanda qızıl hasilatı sənayesinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının bir sıra qızıl yataqlarının aşkar olunması və emalı barədə" 1996–cı il 5 fevral tarixli sərəncamına uyğun olaraq 20 avqust 1997-ci ildə Azərbaycanın "Azərqızıl" Dövlət Şirkəti ilə ABŞ-ın "R.V.Investment Group Services" şirkəti arasında Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlü, Qızılbulaq və Vecnəli potensial qızıl filizi yataqlarının aşkar olunması, emalı və hasilatın pay bölgüsü haqqında saziş imzalanmışdır. 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən "Azərqızıl" Dövlət Şirkəti ləğv edilərək, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyinə verilmişdir. Hasilatın pay bölgüsü sazişinə əsasən Gədəbəy qızıl-mis yataqlarında ümumi gəlirin 51%-i dövlətə, qalan 49% isə R.V.Investment Group Services şirkətinə məxsusdur. Sazişə əsasən həmin mədən Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti tərəfindən idarə edilir.[86]

AzerGold dövlətə məxsus olan, qiymətli və əlvan metalların hasilatı, emalı və satışı ilə məşğul olan qapalı səhmdar cəmiyyətidir. Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti təsis edilmişdir. Çovdar, Köhnəmədən (Filizçay), Mazımçay, Kürəkçay, Göydağ, Dağkəsəmən və Qaradağ yaqtaqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi,

[85] Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərbaycanın faydalı qazıntıları", http://www.eco.gov.az/faydaliqazintilar.php.
[86] Azərbaycan Prezidenti, http://www.president.az/articles/9268.

maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadəsi “Azergold” QSC tərəfindən həyata keçirilir.
“AzerGold” QSC 2016 və 2017-ci illər ərzində Çovdar saziş sahəsində hasilatın bərpası istiqamətində yatağın üst filiz qatının (oksid mərhələsi) istismarı üzrə işlər təşkil edilmiş, 2017-ci il ərzində qiymətli metal xəlitələrin hasilatına başlanılmış və satışı həyata keçirilmişdir və Çovdar mədəninin oksid mərhələsinin istismarı nəticəsində hasil edilmiş 34,2 min unsiya qızıl, 51,9 min unsiya gümüş, habelə alqı-satqı nəticəsində təhvil alınmış 31,5 min unsiya qızıl, 41,6 min gümüş, toplam olaraq isə 65,7 min unsiya qızıl, 93,5 min unsiya gümüşün ixracı həyata keçirilmişdir.[87]

2017-ci ilin aprel-dekabr ayları ərzində “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) həyata keçirdiyi ümumi ixrac əməliyyatları üzrə 60 552 unsiya qızıl və 86 806 unsiya gümüş ixrac edib. Qiymətli metalların ixracı ölkə iqtisadiyyatına 121 milyon manatdan artıq gəlir gətirib. Qiymətli metalların dünya bazarında satışının təşkili üçün beynəlxalq affinaj şirkətlərinin tələb etdiyi KYC (Know Your Customer) və təhlil (“due diligence”) prosedurlarını uğurla keçərək “AzerGold” QSC cari ilin aprel ayında İsveçrənin məşhur “Argor-Heraeus” şirkəti ilə qiymətli metalların saflaşdırılmasına dair müqavilə imzalamışdır.[88]

***Cədvəl 6:*** *Metal filizlərin hasilatı üzrə HPBS*

| İmzalanma tarixi | Podratçı tərəflər və onların payları | | Ehtiyatlar |
|---|---|---|---|
| | Şirkətin adı | % | Qızıl və Gümüş |
| Gədəbəy qızıl-mis layihəsi **(hasilat mərhələsi)** | | | |
| **22.12.2009** | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 51,0 | ✓ |
| | R.V.Investment Group Services | 49,0 | |

***Mühüm kəşfiyyat fəaliyyəti:***

“AzerGold” QSC tərəfindən Çovdar yatağının yer təkindəki (sulfid mərhələsi üzrə) qiymətli metal ehtiyatları və yan sahələrin (yaxın və uzaq cinahlar) öyrənilməsi işləri təşkil edilmişdir. Sulfid mərhələsi üzrə hasilat işlərinin başladılması üçün beynəlxalq təcrübələrdə tətbiq edilən yataqların idarəolunması prosesinə əsaslanaraq, səmərəliliyin müəyyən edilməsi üçün yataq üzrə texniki-iqtisadi əsaslandırma (TİƏ) sənədi, qəbul olunmuş beynəlxalq metodoloji yanaşmalar və standartlara uyğun hazırlanmaqdadır. Yan sahələrin (yaxın və uzaq cinahlar) öyrənilməsi üzrə isə geofiziki kəşfiyyat işləri aparılmaqdadır. Bundan əlavə, Daşkəsən və Göy-göl rayonları ərazisində perspektiv ərazilərdə çöl-sınaq və geoloji axtarış işlərinin təşkili üzrə çöl-axtarış işləri başlanılmışdır və hal-hazırda davam etdirilir.

“AzerGold” QSC 2017-ci illər ərzində Köhnəmədən saziş sahəsinin ərazisində yerləşən Filizçay və Mazımçay yataqlarının ehtiyatlarının öyrənilməsi üzrə ilkin kəşfiyyat və tədqiqat işləri aparmışdır. Filizçay yatağı üzrə beynəlxalq qəbul edilmiş standartlara uyğun İlkin Tədqiqat (İT) sənədinin hazırlanması üzrə işlər aparılmaqdadır. Mazımçay yatağı üzrə isə resurs buruq-qazma işləri davam etdirilməkdədir.[89]

2016-cı ilin iyul ayında fəaliyyətə başlayan “AzerGold” QSC qısa müddət ərzində bir sıra əhəmiyyətli işlərin görülməsinə nail olmuşdur. Belə ki, Daşkəsən rayonu ərazisində yerləşən Çovdar filiz emalı sahəsində müxtəlif təyinatlı təmir-tikinti işləri sayəsində yatağın fəaliyyəti bərpa edilmiş, optimallaşdırılmış, istehsalat 24 saatlıq iş rejiminə keçirilmiş, hasilat işlərinə start verilmişdir. Ərazidə ekoloji tarazlığın qorunması üçün 6 mindən artıq ağac və kol əkilmiş və digər işlər görülmüşdür. Çovdar mədənində işlərin düzgün və səmərəli aparılması, insanların əmək şəraitinin yaxşılaşdırılması üçün lazımi bütün işlər görülmüş və lazımi infrastruktur yaradılmışdır. 2020-ci ildə yatağın yerüstü (oksid) mərhələsinin istismarı başa çatandan sonra 2021-ci ildə hasilata verilməsi planlaşdırılan yeraltı (sulfid) mərhələsinin hasilatına dair texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanması üzrə beynəlxalq məsləhətçi şirkət ilə əməkdaşlıq edilir.

[87] AzerGold QSC -ə göndərilən 31 iyul 2018-ci il tarixli BT 980 nömrəli rəsmi məktubuna cavab olaraq.
[88] http://azergold.az/azergold-qsc-bu-il-150-min-unsiyaya-yaxin-qiym%C9%99tli-metal-ixrac-edib
[89] AzerGold QSC -ə göndərilən 31 iyul 2018-ci il tarixli BT 980 nömrəli rəsmi məktubuna cavab olaraq.

"AzerGold" QSC-nin strateji hədəfi Azərbaycanda əlvan metal sənayesinin dayanıqlı və davamlı inkişafını təmin etməkdir. Bu məqsədlə, Balakən rayonu ərazisində yerləşən və mis, sink, gümüş, qızıl, qurğuşun ehtiyatlarının həcminə görə nəinki Azərbaycan, hətta Avropa üçün böyük strateji əhəmiyyətə malik Filizçay polimetal yatağı üzrə ilkin iqtisadi qiymətləndirmə sənədi nüfuzlu beynəlxalq məsləhətçi şirkət tərəfindən hazırlanmaqdadır. Növbəti illərdə metallurji, laborator, geotexniki, hidroloji və ekoloji tədqiqatların aparılması planlaşdırılır.

Bundan başqa, Balakən rayonu ərazisində yerləşən digər yataqda – Mazımçayda ehtiyatların hesablanması üçün buruq-qazma işləri həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Göydağ-Əlincə filiz qovşağının Ortakənd sahəsində kompleks geofiziki tədqiqatlar aparılmış və yaxın gələcəkdə buruq-qazma işlərinin icrası və ehtiyatların hesablanması nəzərdə tutulub.

Daşkəsən-Göygöl ərazilərində filizsaxlayan süxurlardan götürülmüş sınaq nümununələri beynəlxalq sertifikatlaşdırılmış laboratoriyada analiz olunur və analizlərin nəticələrinə uyğun kəşfiyyat işlərinin planı hazırlanır. Bu istiqamətdə növbəti illərdə də geoloji tədqiqatlar davam etdiriləcək. [90]

## 3.2. İstehsalın həcmi

2017- ci ildə xarici və yerli hasilat sənayesi şirkətləri tərəfindən hasil olunan xammal üzrə istehsalatın həcmi və məbləği aşağıdakı cədvəldə öz əksini tapmışdır:

[90] AzerGold QSC, Xəbərlər, http://azergold.az/azergold-qsc-bu-il-150-min-unsiyaya-yaxin-qiym%C9%99tli-metal-ixrac-edib/

*Cədvəl 7: İstehsalın həcmi*[91]

| Bakı | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| **Neft (kondensatlar daxil olmaqla) hasilatı** | 38 140 | 272 429 | 52,9 | 14 411 471 |
| Məhsul | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| **Təbii qaz hasilatı** | 18 126 | 640 119 690 | 5,7 | 3 648 682 233 |
| Siyəzən | | | | |
| Məhsul | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| **Neft (kondensatlar daxil olmaqla) hasilatı** | 51,6 | 369 | 52,9 | 19 497 |
| Məhsul | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| **Təbii qaz hasilatı** | 8,3 | 293 115 | 5,7 | 1 670 753 |
| Neftçala | | | | |
| Məhsul | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| **Neft (kondensatlar daxil olmaqla) hasilatı** | 32,5 | 232 | 52,9 | 12 280 |
| Salyan | | | | |
| Məhsul | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| **Neft (kondensatlar daxil olmaqla) hasilatı** | 159,6 | 1 140 | 52,9 | 60 306 |
| Məhsul | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| **Təbii qaz hasilatı** | 41,0 | 1 447 915 | 5,7 | 8 253 116 |
| İmişli | | | | |
| Məhsul | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| **Neft (kondensatlar daxil olmaqla) hasilatı** | 12,4 | 89 | 52,9 | 4 685 |
| Şirvan | | | | |
| Məhsul | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| **Neft (kondensatlar daxil olmaqla) hasilatı** | 240,5 | 1 718 | 52,9 | 90 875 |
| Məhsul | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| **Təbii qaz hasilatı** | 11,1 | 391 997 | 5,7 | 2 234 380 |

Azərbaycan Respublikasında hasil olunmuş mineral ehtiyatların dəyəri xarici bazar qiyməti ilə hesablanıb.

**1)** *Neft hasilatı*: Azərbaycan Respublikasında hasil olunmuş neftin həcm göstəricisi ton ilə olduğundan, həmin həcm xüsusi düsturla hesablanaraq barel ifadəsi ilə əvəz olunmuşdur (1 ton neft=7,1428571428571 barel neft). Hesabat ilində AÇG yatağında hasilatın həcmi 214,75 milyon barel təşkil etməklə, proqnoza (211,7 milyon barel) nisbətən 1,4% artıq olmuşdur. Hasilatın və xam neftin satış qiymətinin proqnoza nisbətən yuxarı olması səbəbindən bu gəlir maddəsi büdcədə nəzərdə tutulana (9 826,2 milyon manat) nəzərən 112,3% səviyyəsində icra olunmuşdur. Belə ki, ARDNF-nin 2017-ci ilin büdcəsində xam neftin ixrac qiyməti 40 ABŞ dolları proqnozlaşdırıldığı halda il ərzində bir barelin ortaçəkili satış qiyməti 52,9 ABŞ dolları təşkil etmişdir. 2017-ci ildə öncəki il ilə müqayisədə ARDNF-nin karbohidrogenlərin satışından daxilolmalarında artım müşahidə edilmiş, neftin bir barelinin orta satış qiyməti 2016-cı ildə təqribən 41,9 ABŞ dolları təşkil etdiyi halda, hesabat ilində bu göstərici 52,9 ABŞ dollarına bərabər olmuşdur. [92]

[91] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Sənayesi", https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
[92] Azərbaycan Respublikası Dövlət Neft Fondu, Illik hesabat – 2017, http://www.oilfund.az/uploads/REPORT_AZ_2017.pdf

**2)** *Təbii qaz hasilatı*: Azərbaycan Respublikasında hasil olunmuş təbii qazın həcm göstəricisi mln $m^3$ ilə olduğundan, həmin həcm xüsusi düsturla hesablanaraq MMBTU ifadəsi ilə əvəz olunmuşdur (35 315 Britaniya istilik vahidi). 2017-ci ildə ölkədə istehsal olunan təbii qazın dünya bazarı üzrə orta satış qiyməti 5,7 ABŞ dolları təşkil etmişdir. [93]

**3)** *Qızıl və gümüş hasilatı*: Azərbaycan Respublikasında hasil olunmuş qızıl və gümüşün həcm göstəricisi kq ilə olduğundan həmin həcm xüsusi düsturla hesablanaraq unsiya ifadəsi ilə əvəz olunmuşdur (1 kq=31,1035 troy unsiyası). 2017-ci ildə ölkədə istehsal olunan qızıl, gümüş, mis və konsentratlarının dünya bazarında orta satış qiyməti müvafiq olaraq 1 275, 16,69 və 6 823 ABŞ dolları təşkil etmişdir. [94]

***Cədvəl 8:** İstehsalın həcmi* [95]

| Gədəbəy | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (kq)** | **Həcm (unsiya)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| **Qızıl hasilatı** | 6 390,80 | 205 464,22 | 1 275,00 | 261 966 880,50 |
| Məhsul | **Həcm (kq)** | **Həcm (unsiya)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| **Gümüş hasilatı** | 704,90 | 22 662,54 | 16,69 | 378 237,71 |
| Məhsul | **Həcm (ton)** | **Həcm (ton)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| **Mis və konsentratlar** | 2 062,50 | 2 062,50 | 6 823,00 | 14 72 437,50 |

## 3.3. İxracatda hasilat sənayesinin payı

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (ARDGK) statistik məlumatlarına əsasən, 2017-ci ildə xarici ticarət əməliyyatlarının həcmi 22,6 milyard ABŞ dolları təşkil etmiş və bunun təqribən 61%-i və ya 13,8 milyard ABŞ dolları ixracın, 39%-i və ya 8,8 milyard ABŞ dolları isə idxalın payına düşmüşdür. Hesabat ilində xarici ticarət əməliyyatlarının həcmində 2016-cı il ilə müqayisədə 27,8% artım müşahidə edilmişdir, ixrac əməliyyatlarının həcmi 51,1%, idxal əməliyyatlarının həcmi isə 2,9% artmışdır. Neft və təbii qaz ölkənin əsas ixrac məhsuludur. 2016-cı ildə ümumi ixracat 15,3 mlrd. ABŞ dolları təşkil etmişdir. [96]

***Cədvəl 9a: 2015-2017–ci illər ərzində ixrac olunan malların həcmi**** [97]

| **Məhsulun adı** | **Həcm** | | |
|---|---|---|---|
| | **2015** | **2016** | **2017** |
| Xam neft (min ton) | 21 960,3 | 34 096,4 | 27 227,9 |
| Təbii qaz (mln $m^3$) | 8 432,7 | 8 396,0 | 7 543,5 |
| Emal olunmuş və yarımfabrikat halında olan gümüş (kq) | - | - | |

| **Məhsulun adı** | **Məbləği (mln. ABŞ dolları)** | | |
|---|---|---|---|
| | **2015** | **2016** | **2017** |
| Xam neft | 8 866,2 | 10 692,8 | 10 706,8 |
| Təbii qaz | 1 505,0 | 1 096,7 | 1 193,7 |
| Emal olunmuş və yarımfabrikat halında olan gümüş | - | - | |
| Digər məhsullar | - | - | |

[93] "World bank quarterly report", "Commodity Markets Outlook", "Appendix – Table A.1", səh.29, http://pubdocs.worldbank.org/en/271041524326092667/CMO-April-2018-Full-Report.pdf
[94] "World bank quarterly report", "Commodity Markets Outlook", "Appendix – Table A.2", səh.21, https://openknowledge.worldbank.org/bitstream/handle/10986/26457/CMO-April-2017.pdf?sequence=1&isAllowed=y
[95] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Sənayesi", https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
[96] Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, "Ən çox ixrac olunan mallar", http://customs.gov.az/az/faydali/gomruk-statistikasi/statistics-bulletin/
[97] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Statistik nəşlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın xarici ticarəti", səh. 71 http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

*Qeyd: Hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan xam neft və təbii qazın həcmi və dəyərinə dair məlumatlar nəzərə alınmaqla.
2017-ci il ərzində qızıl, gümüş və mis məhsulları ixrac edilmədiyindən yuxarıdakı cədvəldə öz əksini tapmamışdır.

***Cədvəl 9b:*** *2015-2017–ci illər ərzində ixrac olunan malların həcmi*[98]*(min ton).*

| Məhsulun adı | Həcm | | |
|---|---|---|---|
| | 2015 | 2016 | 2017 |
| Xam neft (min ton) | 35 109,9 | 34 972,3 | 32 845,0 |
| Təbii qaz (mln $m^3$) | 8 145,2 | 8 049,1 | 8 859,7 |
| Emal olunmuş və yarımfabrikat halında olan gümüş formalarında (kq) | - | - | - |

| Məhsulun adı | Məbləği (mln, ABŞ dolları) | | |
|---|---|---|---|
| | 2015 | 2016 | 2017 |
| Xam neft | 12 382,59 | 10 292,21 | 12 300,8 |
| Təbii qaz | 1 851,75 | 1 147,16 | 1 263,7 |
| Emal olunmuş və yarımfabrikat halında olan gümüş formalarında | - | - | - |
| Digər məhsullar | - | - | - |

*Qeyd: Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın həcmi və statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

### 3.4. 2017-ci ildə Azərbaycanın enerji balansı

2017-ci ildə ölkədə ümumi istehsal həcmi 64,9 milyon neft ekvivalenti tonu olan enerji məhsullarının 87,9 faizini ilkin enerji məhsulları, 8,6 faizini neft emalı məhsulları, 3,5 faizini istilik və elektrik enerjisi təşkil etmişdir. Ötən il bütün ilkin enerji məhsullarının 69,8 faizini xam neft (qaz kondensatı da daxil olmaqla), 29,7 faizini təbii qaz, 0,5 faizini isə bərpa olunan enerji mənbələri üzrə istehsal olunmuş enerji məhsulları təşkil etmişdir. Hal-hazırda Azərbaycan xam neft, təbii qaz və neft məhsulları ixrac edən ölkədir. 2017-ci ildə ölkədə ixracın həcmi 43,3 milyon neft ekvivalenti tonu təşkil etmiş, bunun 78,0 faizi xam neftin, 19,1 faizi təbii qazın, 2,6 faizi neft məhsullarının, 0,3 faizi isə elektrik enerjisinin payına düşmüşdür.

## 4. HSŞ HESABATINDA ƏHATƏ OLUNMUŞ VERGİ VƏ GƏLİRLƏR

### 4.1. Əhəmiyyətli sayılan ödənişlər

Azərbaycanda mədən hasilatı ilə məşğul olan bütün xarici və yerli şirkətlər tərəfindən Azərbaycan dövlətinə köçürülən gəlirlər üzrə (natura və dəyər ifadəsində) əhəmiyyətlilik həddi aşağıda göstərilmiş iki mərhələdə müəyyən edilir:

- Hesabata daxil edilən əhəmiyyətli gəlir mənbələrinin müəyyən edilməsi;
- Müəyyən edilmiş gəlir mənbəyi üzrə əhəmiyyətli sayılan məbləğ (həcm) həddi.

[98] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi/ Azərbaycanın xarici ticarəti https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Əhəmiyyətli sayılan gəlir mənbələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Neft hasilatı üzrə natura və dəyər ifadəsində;
- Əsas və qiymətli metallar üzrə natura və dəyər ifadəsində;
- İmzalanma və digər bonuslar;
- Mədən vergisi, əlavə dəyər vergisi, torpaq vergisi, əmlak vergisi, qiymət fərqi üzrə yığımlar və sair vergilər.
- Təbii və səmt qazı üzrə natura və dəyər ifadəsində;
- Mənfəət vergisi;
- Akrhesabı ödənişləri və tranzit haqları;

Göstərilmiş gəlir mənbələri dövlətin hasilat sənayesindən əldə edilən gəlirlərinin 99 faizindən çoxunu əhatə edir.

Hər müəyyən edilmiş gəlir mənbəyi üzrə əhəmiyyətli sayılan məbləğ/həcm həddi aşağıdakı kimi müəyyənləşdiyilmişdir:

Göstərilmiş gəlir mənbələri üzrə dövlətə sıfırdan (0–dan) yuxarı məbləğdə/həcmdə daxilolmalar əhəmiyyətli sayılır və hesabatda əks etdirilir.

## 4.2. Dövlətə edilən ayırmalar, ödənişlər və onların təsviri

***Cədvəl 10:*** *Hasilatla əlaqədar dövlətə edilən ayırmalar və ödənişlər*

| Dövlətə edilən ayırmalar və ödənişlər [99] | Ödənişin təsviri |
|---|---|
| **Neft hasilatı üzrə gəlirlər** | Hasilat şirkətləri dövlətin payını HPBS–ə uyğun olaraq məhsul şəklində dövləti təmsil edən SOCAR-a təhvil verir. Dövlətin payına düşən neftin satışından əldə edilən gəlirlər ARDNF-ə köçürülür. |
| **Qaz hasilatı üzrə gəlirlər** | Hasilat şirkətləri dövlətin payını HPBS–ə uyğun olaraq məhsul şəklində Azərbaycan Qaz Təchizat Şirkətinə təhvil verir. Dövlətin payına düşən qazın satışından əldə edilən gəlirlər ARDNF-ə köçürülür. |
| **Əlvan metalların hasilatı üzrə gəlirlər** | Azərbaycan Respublikasında, yerin təkindən çıxarılmış qiymətli metallar və qiymətli daşlar, onların hasilatı zamanı qanuni alınan digər məhsullar və gəlirlər qiymətli metalların və qiymətli daşların hasilatı subyektlərinə məxsusdur. |
| **Mənfəət vergisi** | Mənfəət vergisi şirkətin vergiyə cəlb olunan mənfəəti əsasında hesablanır. Mənfəət vergisi qanunvericiliyə uyğun olaraq vergi ödəyicisinin gəliri ilə gəlirdən çıxılan xərci arasındakı fərqdən ibarətdir. Mənfəət vergisi dövlət büdcəsinə ödənilir. |
| **Bonuslar** | Bonuslar neft şirkətləri tərəfindən hasilat hüquqlarının onlara təhvil verilməsi və köçürülməsinə görə ödədiyi haqları əks etdirir. Bu haqlar dövlətlə olan HPBS-yə əsasən neft və qaz yataqlarının inkişafının müəyyən mərhələlərində ödənilir. Bonuslar ARDNF-in hesabına köçürülür. |
| **Tranzit haqqı** | Tranzit haqqı xam neft və qazın Azərbaycan ərazisi ilə Qərb İxrac boru kəməri vasitəsi ilə ötürülməsi üçün edilən ödənişlərdir, Tranzit haqqı ARDNF-in hesabına köçürülür. |
| **Akrhesabı ödənişləri** | Akrhesabı ödənişləri kəşfiyyat dövrü, habelə əlavə kəşfiyyat dövrü ərzində podratçı tərəflərin kontrakt sahəsinin istifadəsinə görə hər kvadrat kilometri üçün HPBS-yə əsasən haqq ödənişi hesab olunur. Akrhesabı ödənişlər ARDNF-in hesabına köçürülür. |
| **Mədən vergisi** | Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə ödənilən vergi növüdür. Mədən vergisi dövlət büdcəsinə ödənilir. |
| **Digər ödənişlər** | Digər ödənişlər, yuxarıda qeyd olunmayan ödənişlərə aiddir. Bura, sair vergilər (əmlak vergisi, torpaq vergisi, ƏDV, qiymət fərqi üzrə yığımlar-neft, qaz və neft məhsullarının ixracı zamanı məhsulun kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığım (ixrac vergisi xarakterində) qiymət fərqinin yaranmasına səbəb olur), natura şəklində dövlətə təhvil verilən məhsulları (qızıl və gümüş) daxil etmək olar. Digər vergilər də dövlət büdcəsinə ödənilir. |

[99] Azərbaycan Respublikası Dövlət Neft Fondu, “Terminlər”, http://www.oilfund.az/az_AZ/about_found/terminler.asp.

## 4.3. Üzləşmə prosesinin nəticələri

İlkin hesabat formalarına əsasən üzləşmə prosesi başa çatdıqdan və fərqlər aradan götürüldükdən sonra, hasilat sənayesi şirkətləri və dövlət tərəfindən göstərilən ödənişlər arasında yekun fərq aşağıdakı kimi olmuşdur:

***Cədvəl 11:*** Üzləşmə prosesinin nəticələri

| Gəlir növləri/məhsul | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | | Yekun fərq |
|---|---|---|---|---|---|
| | | | Şirkətlər | Dövlət | |
| **Neft-qaz ehtiyatları üzrə** | | | | | |
| neft (mln ABŞ dolları) | 32,537 | 32,532 | (0,005) | - | - |
| qaz (mln ABŞ dolları) | 227,796 | 0,243 | (227,553) | - | - |
| neft (mln barel) | 131,693 | 131,682 | (0,011) | - | - |
| təbii qaz (min $m^3$) | 6 301,823 | 6 301,853 | 0,030 | - | - |
| səmt qazı (min $m^3$) | 2 830 760,176 | 2 993 969,118 | 163 209,279 | - | - |
| **Qızıl-gümüş ehtiyatları üzrə** | | | | | |
| qızıl (min unsiya) | 6,366 | 6,366 | - | - | - |
| gümüş (min unsiya) | 2,978 | 2,978 | - | - | - |
| Mis konsentratında qızıl (min unsiya) | 0,686 | 0,686 | - | - | - |
| Mis konsentratında gümüş (min unsiya) | 14,898 | 14,898 | - | - | - |
| Əlvan metallar-mis kondentratı (min ton) | 0,213 | 0,213 | - | - | - |
| **Vergilər və sair ödənişlər** | | | | | |
| mənfəət vergisi (mln ABŞ dolları) | 379,561 | 379,149* | (0,412) | - | - |
| mənfəət vergisi (mln manat) | 9,287 | 9,287 | - | - | - |
| royalti (mln manat) | 109,548 | 109,548 | - | - | - |
| ƏDV (mln manat) | 169,057 | 162,310 | (6,747) | - | - |
| əmlak vergisi (mln manat) | 80,182 | 80,182 | - | - | - |
| torpaq vergisi (mln manat) | 26,969 | 26,969 | - | - | - |
| qiymət fərqi üzrə yığımlar (mln manat) | 165,293 | 165,293 | - | - | - |
| sair vergilər (mln manat) | 99,551 | 99,551 | - | - | - |
| akrhesabı ödənişlər (mln ABŞ dolları) | 2,118 | 2,118 | - | - | - |
| tranzit haqqı (mln ABŞ dolları) | 4,238 | 10,456 | 6,218 | - | - |
| bonuslar (mln ABŞ dolları) | 0,972 | 1,405 | (0,01) | - | 0,443 |

Hesabat təqdim edən şirkətlərin ilkin məbləğinə edilmiş dəyişikliklər hesabatın 7.6 bölməsində öz əksini tapmışdır.

- * Dövlət tərəfindən təqdim olunan məbləğ manatla (656,013 milyon AZN) ifadə olunmuşdur. Üzləşmə məqsədi ilə həmin məbləğlər ödəniş tarixinə olan rəsmi məzənnə ilə ABŞ dollarına çevrilmişdir.

**Hasilat Sənayesində Şəffaflıq üzrə Ümumiləşdirilmiş Hesabat**
31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə

***Cədvəl 12:*** *HSŞ-yə qoşulmuş şirkətlərin dövlətə pul vəsaitləri şəklində etdiyi ödənişlərin ilkin məbləğləri*

| Hasilat sənayesi şirkətləri | Gəlir növü (pul vəsaitləri şəklində) | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | (mln ABŞ dolları) | | | | | (mln ABŞ dolları) | (mln AZN) | (mln AZN) | | | | | |
| | Neft hasilatı üzrə pul vəsaitləri | Qaz hasilatı üzrə pul vəsaitləri | Bonus | Tranzit haqqı | Akrhesabı ödənişlər | Mənfəət vergisi | | Mədən vergisi | ƏDV | Əmlak vergisi | Torpaq vergisi | Qiymət fərqi üzrə yığımlar | Sair vergilər |
| Apşeron İnvestment Limited | 3,840 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Azen Oyl Kompani B.V. | 7,420 | - | - | - | - | 0,200 | - | - | - | - | - | - | - |
| Azərbaycan (EYSC) Limitid | - | - | - | 0,490 | - | 73,020 | - | - | - | - | - | - | - |
| Azərbaycan (Şah Dəniz) Limitid | - | 22,755 | - | - | - | - | - | - | - | - | - | - | - |
| Bahar Energy Limited | 0,161 | 0,243 | - | - | - | - | - | - | 6,747 | - | - | - | - |
| BP Eksploreyşn (Azərbaycan) Limited | - | 65,604 | 0,026 | - | - | - | - | - | - | - | - | - | - |
| BP Eksploreyşn (Kaspian Si) Limited | - | - | - | 1,519 | - | 118,788 | - | - | - | - | - | - | - |
| BP Şəfəq-Asiman Limited | - | - | - | - | 2,118 | - | - | - | - | - | - | - | - |
| BP Abşeron Limited | - | - | - | - | - | - | - | - | - | - | - | - | |
| Si En Pi Si İnternəşnl (Kura) Limited | 0,514 | - | - | - | - | 2,010 | - | - | - | - | - | - | - |
| Commonwealth Qobustan Limitedç | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Ekson Azərbaycan Limited | - | - | - | 0,340 | - | 20,306 | - | - | - | - | - | - | - |
| ENGİE E AND P ABSHERON B.V | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Əli-Bayramlı Neft MMC | - | - | - | - | - | 0,415 | - | - | - | - | - | - | - |
| Foçnmeyt Əsets Limited | 0,514 | - | - | - | - | 2,217 | - | - | - | - | - | - | - |
| Inpeks Sausvest Kaspian Si, Ltd. | - | - | - | 0,465 | - | 24,773 | - | - | - | - | - | - | - |
| İtoçu Oyl Eksploreyşn (Azərbaycan) Inc. | - | - | - | 0,182 | - | 18,096 | - | - | - | - | - | - | - |
| Karasu Development Kompani | - | - | - | - | - | 0,415 | - | - | - | - | - | - | - |
| Kura Valeey Development Company LTD | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Qobustan Neft MMC | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Lukoyl Oversiz Shah Deniz Ltd. | - | 22,755 | 0,009 | - | - | - | - | - | - | - | - | - | - |
| Naftiran Intertrade Co (NICO) Limited | - | 22,755 | 0,013 | - | - | - | - | - | - | - | - | - | - |
| Neftechala İnvestments Limited | 0,797 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Novatis Oyl F.Z.E. | 5,598 | - | - | - | - | 1,177 | - | - | - | - | - | - | - |
| ONGC Videş Limited | - | - | - | 0,115 | - | 10,723 | - | - | - | - | - | - | - |
| Petronas Azerbaijan Shah Deniz S.A.R.L | - | 35,271 | 0,020 | - | - | - | - | - | - | - | - | - | - |
| Petro-Hong-Kong Pirsaat Oil | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
[123] BP şirkətinin rəsmi internet səhifəsi, http://www.bp.com/az_az/caspian/press/businessupdates/2016-year-end--results11.html
[124] BP-nin təqdim etdiyi Dövlətə edilən ödənişlər barədə hesabat, BP Azerbaijan-nın Sosial fəaliyyət və müvafiq xərcləri

| | | | |
|---|---|---|---|
| Üçüncü Beynəlxalq Forum:“BIG DATA DAY” | ADA Universiteti Fondu | May 2017 / May 2017 | 17 008 AZN |
| "İnnovasiya yolu ilə təhsil" STEAM konfransı | US Educated Azerbaijani Alumni Association (AAA) | May 2017 / İyun 2017 | 8 000 AZN |
| "Azərbaycanda etika və uyğunlaşma" mövzusunda konfrans | Amerika Ticarət Palatası | Dekabr 2017 / Dekabr 2017 | 10 000 AZN |
| BP yeddi azərbaycanlı idmançıya dəstək Verdi | Fərdi Olimpiada və Paralimpik Atlet | 2017/2017 | 75 712 ABŞ dolları |
| Bakı 2017 İslam Həmrəyliyi Oyunları | Azərbaycan İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsi və Azərbaycan Milli Olimpiya Komitəsi | May 2017 / May 2017 | 2 513 297 ABŞ dolları |
| Case, Fair və Oster tərəfindən mikroiqtisadiyyat kitabının Azərbaycan dilinə tərcüməsi | Qlobal TFD | Sentyabr 2017 / Sentyabr 2020 | 24 840 ABŞ dolları |
| Krugman, Obstfeld və Melitz tərəfindən Beynəlxalq İqtisadiyyatın Tərcüməsi: Teorisi və Siyasəti (11-ci nəşr) adlı dərslik | “MODULUS” MMC | Sentyabr 2017/Sentyabr 2018 | 7 057 ABŞ dolları |
| Neft və Qaz Təqaüd Proqramı | BP və Türkiyə/Azərbaycan universitetləri tərəfindən həyata keçirilən birgə müəssisələr | 2017/2017 | 30 690,80 ABŞ dolları |
| Azərbaycanın ali məktəblərində komputer elmi təhsilinin təkmilləşdirilməsinə dəstək | Beynəlxalq Təlim və Layihə Mərkəzi | Dekabr 2017/Dekabr 2020 | - |
| Əlil insanların məşğulluq bacarıqlarının artırılması | "British Council"-ın Azərbaycan Respublikasındakı filialı | Dekabr 2017/Dekabr 2020 | - |
| Olivier Blanchard tərəfindən makroiqtisadiyyatın Azərbaycan dilinə tərcüməsi | Xəzər Universiteti | Sentyabr 2017/ Sentyabr 2020 | - |

## 6.2. Kvazi-fiskal xərclər

*Kvazi-fiskal xərclər dövlət müəssisələri tərəfindən dövlət adından həyata keçirilən və kompensasiya edilməyən fiskal əməliyyatlardır. Bu xərclər əsasən qanunla tələb olunmur və dövlət büdcəsində nəzərdə tutulmur.*

Hasilat sənayesində kvazi-fiskal əməliyyat növləri müəyyən edilərkən BVF-in “Təbii resurslardan gəlirlərin şəffaflığının təmin edilməsi üzrə Bələdçi”-sinə (Bələdçi) əsaslanaraq, Azərbaycanda kvazi-fiskal xərclərin mövcudluğunun təhlili aparılmış və Bələdçidə əks olunmuş kvazi-fiskal xərclərin aşağıdakı növləri üzrə məlumatları HSŞ hesabatına daxil edilmişdir:

- **Enerji daşıyıcıları sahəsində kvazi-fiskal fəaliyyət:** milli hasilat şirkəti (MHŞ) tərəfindən daxili istehlak üçün məhsulların (xüsusilə enerji və enerji daşıyıcılarının) bazar qiymətindən yaxud məsrəflərin ödənilməsi səviyyəsindən aşağı qiymətə icbari şəkildə təqdim edilməsi;
- **Dövlət xərcləri sahəsində kvazi-fiskal fəaliyyət:** bir qayda olaraq dövlət idarəetmə bölməsi (qurumları) tərəfindən göstərilən sosial xidmətlərin yaxud başqa ictimai nemətlərin (xidmətlərin) milli hasilat şirkətinin yaxud beynəlxalq şirkətlər tərəfindən icbari qaydada təqdim edilməsi. [125]

SOCAR 2017-ci il üçün dövlət büdcəsinə qiymət fərqindən yaranan gəlirlər əsasında 165,3 milyon manat vəsait ödəmişdir.

[125] Beynəlxalq Valyuta Fondu, “Təbii resurslardan gəlirlərin şəffaflığının təmin edilməsi üzrə Bələdçi (2007)”, http://www.imf.org/external/np/pp/2007/eng/051507g.pdf

Dövlətin qərarlarına uyğun olaraq SOCAR mütəmadi olaraq pul şəklində birbaşa maliyyə qoyuluşları etmək və ya dövlət, ayrı-ayrı dövlət idarələri və hökumətin həyata keçirdiyi tikinti və təmir layihələrini maliyyələşdirmək (o cümlədən aktivlərin köçürülməsi) tələb olunur. 2017-ci il ərzində bu cür qoyuluşların və maliyyələşdirmənin məbləğləri (dövlət idarələrinin subpodratçılarına ödənişlər formasında), müvafiq olaraq, 567 milyon AZN və 89 milyon AZN (2016-cı il: müvafiq olaraq, 56 milyon AZN və 17 milyon AZN) təşkil etmişdir və əsasən Azərbaycan Respublikasında mövcud olan, həmçinin yeni istirahət, nəqliyyat, təhsil və tibb infrastrukturunun təmiri və yenidən qurulması üçün istifadə edilmişdir. [126]

## 6.3. ÜDM–nin istehsal və sahə strukturları

2016-cı ildə ölkə iqtisadiyyatı 3,1% gerilədiyi halda, 2017-ci ildə ÜDM real ifadədə 0,1% artmışdır. Azərbaycan iqtisadiyyatında 2017-ci ildə Ümumi Daxili Məhsulun (ÜDM) məbləği 70,1 mlrd. manat və adambaşına düşən ÜDM isə 7,2 min manat təşkil etmişdir. ÜDM-in artımının əsas mənbəyini qeyri-neft sektorundakı artım təşkil etmişdir. Belə ki, hesabat ilində qeyri-neft sektoru real ifadədə 2,7% artmışdır. Məlumat üçün qeyd edək ki, qeyri-neft ÜDM-i 2016-cı ildə 4,5% azalma göstərmişdir. 2017-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 62,8% təşkil etmişdir. Mədən hasilatı sənayesi məhsullarının istehsalında yaranan əlavə dəyər ÜDM–nin sahə strukturunda aparıcı yer tutmuş və sənayenin ÜDM-də xüsusi çəkisi 34.1 % təşkil etmişdir.




***Qrafik 3:** ÜDM–nin istehsal strukturu (2017)* [127]

70,1 milyard AZN məbləğində olan ÜDM-in strukturunda aparıcı rolu sənaye sektoru tutmuşdur. Sənayenin ÜDM-in strukturunda payı 2016-cı ildəki 37,1% səviyəsindən artaraq 2017-ci ildə 40% təşkil etmişdir. ÜDM-də sosial və digər xidmətlərin xüsusi çəkisi 16,4%, tikinti sektorunun xüsusi çəkisi 9,5%, ticarət, nəqliyyat vasitələrin təmirinin xüsusi çəkisi 10,4%, məhsula və idxala xalis vergilərin xüsusi çəkisi 7,3%, nəqliyyat və anbar təsərrüfatının xüsusi çəkisi 6,8%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın xüsusi çəkisi 5,6%, turistlərin yerləşdirilməsi və ictimai iaşənin xüsusi çəkisi 2,3%, informasiya və rabitənin xüsusi çəkisi 1,6% təşkil etmişdir.

[126] SOCAR, "Maliyyə hesabatı 2017-cİ il", "Qeyd 28, Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital və bölüşdürülməmiş mənfəət", səh. 70, file:///D:/D&S/Bilgeys.Alakbarli/Desktop/Maliyye.hesabat.2017.pdf
[127] "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycan rəqəmlərdə", http://www.stat.gov.az/menu/6/statistical_yearbooks




***Qrafik 4:*** *ÜDM-nın 2017-ci il üzrə sahə strukturu (faiz nisbətində)* [128]

## 6.4. Hasilat sənayesindən əldə edilən dövlət gəlirləri

2017-ci ildə də ARDNF-in gəlir mənbələrini Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilmiş gəlirlər, tranzit haqları ilə bağlı ödənişlər, bonus ödənişləri, akrhesabı ödənişlər, Fondun vəsaitinin idarə edilməsindən əldə edilən gəlirlər və digər mənbələr üzrə olan gəlirlər təşkil etmişdir. Ümumilikdə bu gəlir maddələri üzrə Fonda 12 137,5 milyon manat (7 065,5 milyon ABŞ dolları) vəsait daxil olmuşdur. Qeyd edək ki, 2016-cı il ilə müqayisədə ARDNF-nin karbohidrogenlərin satışından daxilolmalarında artım müşahidə edilmişdir. Bu artım əsasən xam neftin qiymətindəki artım hesabına olmuşdur. Belə ki, 1 barel neftin orta satış qiyməti 2016-cı ildə təqribən 41,9 ABŞ dolları təşkil etdiyi halda, hesabat ilində bu göstərici 52,9 ABŞ dollarına bərabər olmuşdur. Dollar ifadəsində 2016-cı il ilə müqayisədə ARDNF-nin gəlirləri 19,4% artmışdır.

[128] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Milli Hesabları", http://www.stat.gov.az/menu/6/statistical_yearbooks




***Qrafik 5:** Əsas 13 xarici şirkətlərdən büdcəyə daxil olan gəlirin göstəricisi (faizlə)*

Xarici şirkətlərin hasilatında hökumətin iştirak payı:

| Ödəniş növü | 2015 (mln. ABŞ dolları) | 2016 (mln. ABŞ dolları) | 2017 (mln. ABŞ dolları) |
|---|---|---|---|
| **Pul şəklində** | | | |
| Neft hasilatından əldə edilmiş pul vəsaiti | 45,8 | 24,5 | 32,5 |
| Qaz hasilatından əldə edilmiş pul vəsaiti | 323,3 | 64,4 | 0,24 |
| Mənfəət vergisi | 739,1 | 258,8 | 379,1* |
| Bonus | 2 | 0,05 | 1,4 |
| Tranzit haqqı | 11,6 | 11,3 | 10,5 |
| Akrhesabı ödənişlər | 2,1 | 2,1 | 2,1 |
| Qızıl | 9.0 | 9.0 | 8,1 |
| Gümüş | 0,6 | 2,1 | 0,1 |

| Ödəniş növü | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| **Natura şəklində** | | | |
| Xam neft (milyon barel) | 140 | 127,4 | 131,7 |
| Təbii qaz (mln kubmetr) | 18 721,2 | 18 949,5 | 6 301,9* |
| Səmt qazı (min kubmetr) | 2 892 988 | 3 380 408 | 2 993 760 |

**Vergilər**




| | Mədən vergisi | Mənfəət vergisi | ƏDV | Əmlak vergisi | Torpaq vergisi | Sair vergilər | Qiymət fərqi |
|---|---|---|---|---|---|---|---|
| 2015 | 112.8 | 77.1 | 140.1 | 33.6 | 21.7 | 56 | 158.4 |
| 2016 | 108.7 | 5.1 | 68.4 | 73.8 | 31.1 | 70 | 104.9 |
| 2017 | 109.5 | 9.3 | 162.3 | 80.2 | 27 | 99.6 | 165.3 |

***Qrafik 6:*** Yerli şirkətlərin hasilatında hökumətin iştirak payı:

- 19 aprel 2017-ci il tarixli SOCAR, Ortaq Neft Şirkəti ("ONŞ") və Bahar Energy Limited arasında imzalanmış Protokola əsasən, tərəflər razılaşırlar ki, bu Protokolun qüvvədə olduğu müddət ərzində SOCAR tərəfindən KBİHPBS-in 14-cü və NBSS-in 5-ci Maddələrinə müvafiq olaraq qəbul edilmiş Kompensasiya Karbohidrogenləri müvafiq Satış Müqaviləsinə əsasən satılacaqdır. Beləliklə, Bahar Energy Limited göstərilmiş protokol tarixindən etibarən natura şəklində olan kompensasiya olunacaq təbii qazın təhvilini dayandırmışdır.

- Dövlət tərəfindən təqdim olunan məbləğ manatla (656,013 milyon AZN) ifadə olunmuşdur. Üzləşmə məqsədi ilə həmin məbləğlər ödəniş tarixinə olan rəsmi məzənnə ilə ABŞ dollarına çevrilmişdir.

**AÇQ HPBS üzrə dövlətə edilən xam neft köçürmələri (milyon barel)**




***Qrafik 7:*** *AÇQ HPBS üzrə dövlətə edilən xam neft köçürmələri (milyon barel)*

## 6.5. Hasilat sənayesində məşğulluq

***Məşğulluğun iqtisadiyyatın sahələri üzrə xarakteristikası:*** [129]

Azərbaycan Respublikasında iqtisadi fəal əhalinin sayı 2017-ci ildə 5 073,8 min nəfər qeydə alınmışdır ki, bu göstəricinin 4 822,1 min nəfəri iqtisadiyyatla məşğul olanlardan ibarətdir. Mədən hasilatı sənayesində çalışanların sayı 38,1 min nəfər təşkil etmişdir.

***Cədvəl 22a:*** *Hasilat sənayesində məşğulluq*

| Məşğulluq | 2017-ci il (min nəfər) |
|---|---|
| İqtisadi fəal əhalinin sayı | 5 073,8 |
| İqtisadiyyatda məşğul olanların sayı | 4 822,1 |
| Mədən hasilatı sənayesində işçilərin sayı | 37,9 |




***Qrafik 8:*** *Ümumi məşğulluğun strukturu (2017)* [130]

31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə BP şirkətinin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı 2448 nəfər olub və bura müddətli müqavilə əsasında işləyən işçilər də daxildir. Bu, şirkətin Azərbaycanda ixtisaslı işçilərinin 89%-dən çoxunu təşkil edir ki, bunların da çoxu rəhbər vəzifələrdədir, o cümlədən şirkətin regional rəhbər heyətinin tərkibinə altı azərbaycanlı vitse-prezident daxildir. Bundan əlavə, 265 nəfər yerli işçi mövcud layihələr sahəsində çalışır. [131]

[129] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycan rəqəmlərdə”, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/.
[130] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycan rəqəmlərdə”, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/.
[131] BP rəsmi internet səhifəsi, Xəbərlər, Biznesə dair məlumatlar, 2017-ci ilin nəticələri - https://www.bp.com/az_az/caspian/press/businessupdates/2017-year-end--results1.html

***Cədvəl 22b:*** *Hasilat sənayesi şirkətlərinin DSMF ödənişləri.* [132]

| DSMF ödənişləri (mln manat) | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Yerli və xarici hasilat şirkətləri | 58,1 | 62 | 119* |
| **Cəmi** | **58,1** | **62** | **119** |

- 31 dekabr 2017-ci bitən il üzrə göstərilən 119 milyon manat məbləği öncəki illərdən fərqli olaraq müvafiq Əməliyyat şirkətlərinin DSMF ödənişlərini özündə əks etdirmişdir.

## 6.6. Ümumi hasilatın həcmi və cəmləşdiyi əsas rayonlar (ərazilər)

Neft ehtiyatlarının əksər hissəsi yəni 80%–i Abşeron Yarımadası, Bakı və Abşeron arxipelaqı və Xəzər dənizinin şelf zonasının 3000–4000 metr dərinliyində yerləşir. Neft ehtiyatlarının formalaşması süxurları Kaynozoy dövrünə aiddir. Neft istehsalının istismarı Bibiheybət daxil olmaqla, Balaxanı, Sabunçu və Ramanada gedən qazıntı işləriylə əlaqədardır. Əsas neft və qaz istehsalı əraziləri Bakı yaxınlığında yerləşir. Azərbaycan ərazisində Abşeron yarımadası, Aşağı və Orta Kür, Xəzəryanı ərazilər və Şamaxı–Qobustan kimi quruda istismara verilən 5 neft və qaz kondensatı əraziləri vardır. Bu zonalara 43 neft, qaz və kondensat əraziləri daxildir ki, bunlardan da 38–i istismar üçün əlverişlidir.

***Cədvəl 23*** *Neft (kondensatlar daxil olmaqla) hasilatı (əmtəəlik), min ton* [133]

| Ərazilər | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Bakı | 41 039 | 40 495 | 38 140 |
| Siyəzən | 49 | 52 | 52 |
| Neftçala | 39 | 34 | 33 |
| Salyan | 175 | 167 | 160 |
| İmişli | 17 | 14 | 12 |
| Şirvan | 250 | 237 | 241 |
| **Cəmi** | **41 569** | **40 999** | **38 638** |

Bakı yaxınlığında yerləşən mühüm neft istehsalı ərazilərinə misal olaraq Sabunçu, Suraxanı və Bibiheybəti göstərmək olar. 2017–ci ildə Bakıda neft hasilatı 38 140 min tona çatmışdır və bu da ümumi neft hasilatının 98,7%-ni təşkil etmişdir.

2017-ci ildə natura ifadəsində göstərilən neft hasilatı (kondensatlar daxil olmaqla) quruda 1 512 min ton və dənizdə isə 37 124 min ton həcmində olmuşdur.

**Cədvəl 24:** Qaz hasilatı (əmtəəlik), mln. kub metr [133]

| Ərazilər | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Bakı | 19 186 | 18 664 | 18 126 |
| Siyəzən | 7 | 8 | 8 |
| Salyan | 35 | 39 | 41 |
| Şirvan | 9 | 8 | 11 |
| **Cəmi** | **19 237** | **18 719** | **18 186** |

2017-ci ildə natura ifadəsində göstərilən qaz hasilatı səmt qazı üzrə 4 112 milyon kub metr və təbii qaz üzrə isə 14 074 milyon kub metr həcmində olmuşdur.

[132] Bu məlumat, HSŞ Komissiyasının DSMF-dən əldə etdiyi informasiya əsasında qeyd olunmuşdur.
[133] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Sənayesi", https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

***Cədvəl 25:** Qızıl hasilatı, kq (əsas məhsulun istehsalı)* [134]

| **Ərazi** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|
| Gədəbəy | 2 229 | 1 895 | 6 391 |
| **Cəmi** | **2 229** | **1 895** | **6 391** |

***Cədvəl 26: Gümüş hasilatı, kq (əsas məhsulun istehsalı)*** [134]

| **Ərazi** | | | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| Gədəbəy | | | 133 | 320 | 705 |
| **Cəmi** | | | **133** | **320** | **705** |

***Cədvəl 27: Mis filizləri və konsentrantlar, ton (əsas hasilat)*** [134134]

| **Ərazi** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|
| Gədəbəy | 969 | 1 947 | 2 063 |
| **Cəmi** | **969** | **1 947** | **2 063** |

## 6.7. Digər məlumatlar

2017-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 430,3 milyon manat vəsait qoyulmuş və əvvəlki illə müqayisədə 2,8 faiz çox olmuşdur. 2017-ci ildə əsas kapitala qoyulan vəsaitin 48,7%-i və 8 484,0 milyon manatı neft sektoruna yönəldilmişdir. Qeyri-neft sektorunun inkişafına sərf edilmiş 8 946,4 milyon manatlıq vəsaitin 2 126,2 milyon manatı (ümumi sərmayənin 12,2 faizi) qeyri-neft sənayesi sektorunda istifadə edilmişdir.




***Qrafik 9:** Əsas kapitala cəmi investisiyalar* [135]

[134] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycanın Sənayesi ”, https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
[135] Azərbaycan Dövlət Statistika Komitəsi – “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, Azərbaycanda Tikinti https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Buna əlavə olaraq qeyd etmək olar ki, əsas kapitala yönəldilmiş vəsaitlərin 8 765,3 milyon manatını və ya 50,3 faizini daxili vəsaitlər təşkil etmişdir.




***Qrafik 10:** Əsas kapitala cəmi investisiyalar, milyon manat* [136]

## 6.7.1. Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə

SOCAR-ın Ekologiya İdarəsinin ətraf mühitin monitorinqi sahəsində əsas fəaliyyəti Şirkətin tabeliyində olan idarə və müəssisələrdə təbii və antropogen təsirlər nəticəsində ətraf mühitə yayılan zərərli qaz, maye və bərk halındakı tullantılara kəmiyyət və keyfiyyət cəhətdən nəzarətin elmi əsaslarla həyata keçirilməsi olub, hava, su, torpaq mühitlərinin vəziyyətlərinin qiymətləndirilməsi və proqnozlaşdırılması məqsədi ilə onların kimyəvi tərkibini, çirklənmə dərəcəsini, radioaktiv, hidrobioloji xüsusiyyətlərini, fiziki xassələrini müəyyən edən müntəzəm müşahidə və tədqiqatlar sisteminin həyata keçirilməsindən ibarətdir. Aparılan ekoloji monitorinq işləri dənizdə və quruda ətraf mühitin mühafizəsini əhatə edən beynəlxalq konvensiyaların (Oslo-Paris konvensiyası, Tehran Çərçivə konvensiyası), Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, "Ətraf Mühitin Mühafizəsi haqqında” Qanunun 18-ci maddəsinin, Nazirlər Kabinetinin 1 iyul 2004-cü il tarixli 90 saylı Qərarı ilə təsdiq edilmiş "Ətraf mühitin və təbii ehtiyyatların dövlət monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə”-nin və SOCAR-ın müəssisə və təşkilatlarında ətraf mühitin qorunması, ekoloji təhlükəsizlik, təbii ehtiyatlardan səmərəli istifadə sahəsində praktiki fəaliyyətin istiqamətlərini müəyyən edən SOCAR-ın 12 may 2008-ci il tarixli 77 nömrəli əmri ilə təsdiq edilmiş "Ekoloji Siyasət" sənədinin müddəalarının tələbləri ilə tənzimlənir. SOCAR-ın Ekologiya İdarəsi tərəfindən həyata keçirilən ekoloji monitorinqlərin tədqiqat obyekti Xəzər dənizinin Azərbaycan sektorunda SOCAR-a məxsus neft-qaz yataqlarında və quru ərazilərində fəaliyyət göstərən neft-qazçıxarma idarələri və neft-qaz, neft-kimya emal müəssisələri, Hasilatın Pay Bölgüsü Sazişi üzrə Əməliyyat Şirkətləri və Birgə müəssisələrin saziş ərazilərinin istehsalat sahələrini əhatə edir.

31 dekabr 2017-ci il tarixinə ətraf mühitin bərpası ilə bağlı təxmin edilmiş öhdəlik 58 milyon AZN (2016-cı il: 76 milyon AZN) təşkil etmişdir. Bu şərtlərdən hər hansı birinin dəyişməsi SOCAR-ın ayırdığı ehtiyatlar üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər. [137]

---

[136] Azərbaycan Dövlət Statistika Komitəsi – “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, Azərbaycanda Tikinti https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
[137] SOCAR 2017-ci il üzrə maliyyə hesabatı – http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2017.pdf

### 6.7.2 Alternativ enerji mənbələri

Bu gün enerji təhlükəsizliyi, qlobal iqlim dəyişmələri və ətraf mühitin çirklənməsi bəşəriyyəti narahat edən əsas problemlərdəndir. Onların həlli üçün müxtəlif vasitələr təklif edilir ki, bunlardan bu gün üçün önəmli olanı bərpa olunan və alternativ enerji mənbələrindən istifadədir. Azərbaycan Respublikası coğrafi mövqeyinə və iqlim şəraitinə görə alternativ enerji mənbələrindən istifadə üçün əlverişli imkanlara malik ölkələrdən biridir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" haqqında Sərəncamı Azərbaycanın bu məsələlərdə dünya birliyi ilə həmrəy olduğunu sübut edir.

SOCAR-ın istehsal fəaliyyəti zonalarında, rekultivasiya olunmuş ərazilərdə hal-hazırda genişmiqyaslı yaşıllaşdırma işləri aparılır. Ağac və kol bitkilərinə olan tələbatın ödənilməsi və gənc nəslin ekoloji maarifləndirilməsi üçün Xəzər rayonu ərazisində ayrılmış 9,3 ha sahədə "Ekoloji Park" layihəsi həyata keçirilmişdir.

"Ekoloji Park"-da təmiz və tullantısız texnologiyaların tətbiqinə böyük önəm verilir. Parkda elektrik enerjisinə olan tələbatın müəyyən bir hissəsinin alternativ və bərpa olunan enerji mənbələri hesabına ödəmək üçün pilot layihə kimi hər birinin gücü 10 kVt/saat olan 4 ədəd külək generatoru və ümumu gücü 20 kVt/saat olan günəş panelləri quraşdırılmışdır. Ekologiya İdarəsinin Sabunçu rayonu ərazisində yerləşən Balaxanı istehsalat sahəsində yeni tikilən inzibati binanın elektrik enerjisinə olan tələbatının ödənilməsi məqsədi ilə gücü 20 kVt/saat olan günəş panellərinin quraşdırılması nəzərdə tutulmuşdur. [138]

Ölkədə alternativ və bərpa olunan enerji sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 1 fevral 2013-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılmışdır.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyin əsasnaməsi ölkə başçısının 1 fevral 2013-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

Əsasnaməyə əsasən Agentlik – Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə olunması sahəsində dövlət siyasətini və tənzimlənməsini, alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətin səmərəli təşkilini, bu sahədə fəaliyyətin əlaqələndirilməsini və dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Agentlik müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini, həmçinin alternativ və bərpa olunan enerji sahəsinin inkişafını və infrastrukturun yaradılmasını, iqtisadiyyatda və sosial sahələrdə alternativ və bərpa olunan energetikanın tətbiqini, ABOEM üzrə enerji istehsalı, enerji istehlakı və enerji effektivliyi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin edir, sahə üzrə dövlət uçotunu və dövlət kadastrını aparır. [139]

Agentlik tərəfindən icra olunmuş, keçid dövründə olan və perspektivi olan layihələrin siyahısı Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində əks edilmişdir. [140]

[138] SOCAR.az, Ətraf mühit və təhlükəsizlik, http://www.socar.az/socar/az/environment-and-safety/menu/alternative-energy-use
[139] Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi- http://area.gov.az/page/3
[140] Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi- http://area.gov.az/page/8

**Beynəlxalq təşkilatlarla əməkdaşlıq**[141]

**İRENA (Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi)**

İRENA-nın (Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi) rəsmi olaraq 2009-cu ilin 26 yanvarında Bonn şəhərində təsis edilmişdir. İRENA beynəlxalq səviyyədə bərpa olunan enerji sahəsi üzrə ən mötəbər beynəlxalq təşkilatlardan sayılır. Yarandığı dövrdən indiyə kimi təşkilata artıq 145 dövlət üzv olmuş və 31 dövlət isə üzvlüyə namizəddir.

Azərbaycan Respublikası 2009-cu ildən İRENA-nın üzvlüyünə qəbul edilmiş və 2014-cü il mayın 2-də Milli Məclisin Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin nizamnaməsinin ratifikasiyası ilə onun tamhüquqlu üzvü olmuşdur.

**İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT)**

İqtisadi Əməkdaşlıq Təşkilatı İran, Pakistan və Türkiyə tərəfindən 1985-ci ildə yaradılıb. Təşkilat üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasından ibarətdir. Şura təşkilatın fəaliyyət siyasətini, Regional Planlaşdırma Şurasını, Müavinlər Şurasını müəyyən edir. Mənzil-qərargahı Tehranda yerləşən Müavinlər Şurası İƏT ölkələri səfirlərindən ibarətdir.

20-21 noyabr 2013-cü il tarixində Bakı şəhərində keçirilmiş alternativ və bərpa olunan enerji mənbələri (ABOEM) üzrə Ekspertlər Qrupunun 2-ci iclası keçirilmişdir. İclas zamanı ekspertlər qrupu tərəfindən İƏT Katibliyinin təşəbbüsü qeydə alınmış və Azərbaycan Respublikasının nümayəndə heyətinin ABOEM üzrə texnologiyalar, enerji potensialı, layihələr, standartlar və qaydalar sahəsində məlumat bazasının yaradılması və İƏT üzv ölkələri arasında mübadiləsini təmin etmək məqsədilə İƏT Katibliyi ilə əməkdaşlıqda İƏT-in direktiv orqanlarının razılığından sonra Bakı şəhərində Məlumat Şəbəkəsinin (MŞ) yaradılmasına dair təklifi qiymətləndirilmişdir. Bundan başqa, İƏT üzv ölkələri təlim və sınaqların təşkilində və həmin ölkələrdə həyata keçirilən layihələr barədə məlumatın yayılmasında Qobustan Eksperimental Poliqonuna yardım edə bilərlər.

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT)**

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı 4 iyun 1992-ci ildə təsis edilmişdir.

25 iyun 1992-ci ildə İstanbulda Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Yunanıstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Ukraynanın Dövlət və Hökumət Başçıları tərəfindən Qara Dəniz İqtisadi Əməkdaşlığı üzrə Zirvə Bəyənnaməsinin (sonradan İstanbul Bəyənnaməsi kimi istinad edilir) imzalanması ilə yaranmışdır.

Üzv ölkələrin koordinasiyası, QDİƏT-in Daimi Beynəlxalq Katibliyi tərəfindən həyata keçirilir. Katiblik İstanbul şəhərində yerləşir, vəzifəsi QDİƏT-in işinin təşkilati cəhətdən təmin edilməsidir. Hazırda Baş Katib vəzifəsi 3 illik müddət üçün (yenidən seçilmək hüququ ilə) nəzərdə tutulur.

Təşkilatın Ali Orqanı - Xarici İşlər Nazirləri Şurasıdır. Şura, təşkilatın əsas qərar qəbul edən orqanıdır. Şuranın iclasları 6 ayda bir dəfədən az olmayaraq, əməkdaşlığın nəticələrinin təhlili və yeni vəzifələrin müəyyənləşdirilməsi məqsədilə keçirilir. Hər üzv ölkə 6 ay müddətində təşkilata sədrlik edir və sədrlik müddətinin sonunda öz ölkəsinin ərazisində XİNŞ-in İclasını keçirir. Şuranın səlahiyyətlərinə:

- Reqlamentlərin təsdiq edilməsi və dəyişdirilməsi;
- Təşkilati surukturun yaradılması;

[141] Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi- http://area.gov.az/page/7

- QDİƏT çərçivəsində köməkçi orqanların yaradılması, onlara səlahiyyətlərin verilməsi, onların mandatının dəyişdirilməsi və ya ləğvi;
- Müşahidəçilərin üzvlüyü və statusuna münasibətdə qərarların qəbul edilməsi.

Müasir dünya üçün aktual olan ABOEM sahəsi üzrə də QDİƏT-lə ölkəmiz arasında əməkdaşlıq həyata keçirilir. QDİƏT Katibliyinin milli qurumlar arasında əməkdaşlıq şəbəkəsində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin nümayəndəsi təmsil olunur .

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası**

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası 16 sentyabr 2010-cu il tarixində Türkdilli ölkələrin dövlət başçılarının İstanbulda keçirilən 10-cu zirvə toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması haqqında qərar qəbul edilmişdir.

11 sentyabr 2015-ci il tarixində TDƏŞ-in Astanada keçirilən 5-ci Sammiti zamanı “Alternativ enerji” üzrə yeni əməkdaşlıq sahəsi təsdiq edilmişdir. Hal -hazırda üzv dövlətlərin müvafiq sahə üzrə işçi qrupları yaradılmaqdadır.

**Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (UNECE)**

BMT-nin iqtisadi qurumlarından biri olan Avropa İqtisadi Komissiyası 1947-ci ildə üzv ölkələr arasında iqtisadi əməkdaşlığın inkişafına dəstək üçün təsis olunmuşdur.

Bu quruma Avropa ölkələri ilə yanaşı, Amerika Birləşmiş Ştatları, Kanada, İsrail, Mərkəzi Asiya respublikaları da daxil olaraq üzv dövlətlərin sayı 56-ya çatmışdır. Mərkəzi katiblik qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir.

BMT-nin Avropa Iqtisadi Komissiyası regionu demək olar ki, dünyanın bərpa olunan enerji potensialının yarısını əhatə edir. ABOEM sahəsi də BMT-nın Avropa İqtisadi Təşkilatının əsas fəaliyyət göstərdiyi sahələrdən biridir və Azərbaycan Respublikası da bu təşkilatla fəal əməkdaşlıq edir.

BMT-nin Avropa İqtisadi Təşkilatının Bərpa Olunan Enerji üzrə İşçi Qrupu 2014-cü ildə fəaliyyətə başlamış və mütəmadi olaraq bu qurumun təşkilatçılığı ilə işçi qrupunun iclasları həyata keçirilir.

# 7. ÜZLƏŞDİRMƏ

Üzləşdirmə prosesinin nəticəsinə əsasən, hasilat sənayesi şirkətləri tərəfindən ödənilmiş və dövlət orqanları tərəfindən alınmış məbləğlər və həcmlər arasındakı fərqlər aşağıdakı cədvəldə təqdim edilmişdir. Şirkətlər tərəfindən ilkin təqdim edilmiş məbləğlərin üzərində düzəlişlərimizi edərək yekun məbləğləri qeyd etdik.

## 7.1. Gəlir növləri üzrə üzləşmə prosesi (xarici şirkətlər)

Aşağıdakı cədvəl xarici hasilat sənayesi şirkətləri və dövlət qurumları tərəfindən təqdim olunan ödənişlərin ümumi məbləğlərini, yaranan fərqləri və müvafiq düzəlişləri əks etdirir:

**(mln ABŞ dolları)**

| Gəlir növü | İlkin hesabat forması | | | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatından əldə edilən pul vəsaiti | 32,537 | 32,532 | 0,005 | 0,005 | - | 32,532 | 32,532 | - |
| Qaz hasilatından əldə edilən pul vəsaiti | 227,796 | 0,243 | (227,553) | (227,553) | - | 0,243 | 0,243 | - |
| Bonuslar | 0,972 | 1,405 | 0,433 | 0,433 | - | 1,405 | 1,405 | - |
| Tranzit haqqı | 4,238 | 10,456 | 6,218 | 6,218 | - | 10,456 | 10,456 | - |
| Akrhesabı ödənişlər | 2,118 | 2,118 | - | - | - | 2,118 | 2,118 | - |
| Mənfəət vergisi (USD) | 379,561 | 379,149** | (0,412) | 0,412 | - | 379,149 | 379,149 | - |

*Cədvəllərdə istifadə olunmuş mötərizə işarəsi məbləğin azalmasını göstərir.

** Dövlət tərəfindən təqdim olunan məbləğ manatla (656,013 milyon AZN) ifadə olunmuşdur. Üzləşmə məqsədi ilə həmin məbləğlər ödəniş tarixinə olan rəsmi məzənnə ilə ABŞ dollarına çevrilmişdir.

Aşağıdakı cədvəl xarici hasilat sənayesi şirkətləri tərəfindən dövlətə natura şəklində edilən köçürmələrin ümumi məbləğlərini əks etdirir:

| Məhsul | İlkin hesabat forması | | | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | 131,693 | 131,682 | (0,011) | (0,011) | - | 131,682 | 131,682 | - |
| Təbii qaz (mln m³) | 6 301,823 | 6 301,853 | 0,030 | 0,030 | - | 6 301,853 | 6 301,853 | - |
| Səmt qazı (mln m³) | 2 830 760,176 | 2 993 969,118 | 163 209,279 | 163 209,279 | - | 2 993 969,118 | 2 993 969,118 | - |
| Qızıl (mln unsiya) | 6,366 | 6,366 | - | - | - | 6,366 | 6,366 | - |
| Gümüş (mln unsiya) | 2,978 | 2,978 | - | - | - | 2,978 | 2,978 | - |
| Mis konsentratında qızıl (mln unsiya) | 0,686 | 0,686 | - | - | - | 0,686 | 0,686 | - |
| Mis konsentratında gümüş (mln unsiya) | 14,898 | 14,898 | - | - | - | 14,898 | 14,898 | - |
| Əlvan metal - Mis konsentratı (mln ton) | 0,213 | 0,213 | - | - | - | 0,213 | 0,213 | - |

## 7.2. Gəlir növləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə)

Aşağıdakı cədvəl yerli hasilat sənayesi şirkətləri və dövlət qurumları tərəfindən təqdim olunan ödənişlərin ümumi məbləğlərini, yaranan fərqləri və müvafiq düzəlişləri əks etdirir:

**(mln AZN)**

| Gəlir növü | İlkin hesabat forması | | | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Mənfəət vergisi | 9,287 | 9,287 | - | - | - | 9,287 | 9,287 | - |
| Royalti | 109,548 | 109,548 | - | - | - | 109,548 | 109,548 | - |
| ƏDV | 169,057 | 162,310 | 6,747 | (6,747) | - | 162,31 | 162,31 | - |
| Əmlak vergisi | 80,182 | 80,182 | - | - | - | 80,182 | 80,182 | - |
| Torpaq vergisi | 26,969 | 26,969 | - | - | - | 26,969 | 26,969 | - |
| Qiymət fərqi üzrə yığımlar | 165,293 | 165,293 | - | - | - | 165,293 | 165,293 | - |
| Sair vergilər | 99,551 | 99,551 | - | - | - | 99,551 | 99,551 | - |

## 7.3. Düzəlişlər

### 7.3.1 Pul şəklində edilən köçürmələrə dair düzəlişlər

***Xarici hasilat sənayesi şirkətlərinin təqdim etdiyi məlumatlara dair düzəlişlər***

- ***Neft hasilatından əldə edilən pul vəsaiti***

Neft gəlirlərinin cəmi fərqi 0,005 milyon ABŞ dolları təşkil etmişdir.

**(milyon ABŞ dolları)**

| Xarici hasilat sənayesi şirkətləri | Şirkətlər üzrə | | | Dövlət üzrə | | | Yekun Fərq |
|---|---|---|---|---|---|---|---|
| | İlkin | Düzəliş | Yekun | İlkin | Düzəliş | Yekun | |
| Apşeron İnvestments Limited | 3.840 | - | 3.840 | 3.840 | - | 3.840 | - |
| Azen Oyl Kompani B.V. | 7.420 | (0,005)* | 7.425 | 7.415 | - | 7.415 | - |
| Bahar Energy Limited | 0.161 | - | 0.161 | 0.161 | - | 0.161 | - |
| Si En Pi Si İnternəşnl (Kura) Limited | 0.514 | - | 0.514 | 0.514 | - | 0.514 | - |
| Fortunate Assets Limited | 0.514 | - | 0.514 | 0.514 | - | 0.514 | - |
| Neftechala İnvestments Limited | 0.797 | - | 0.797 | 0.797 | - | 0.797 | - |
| Novatis Oil F.Z.E. | 5.598 | - | 5.598 | 5.598 | - | 5.598 | - |
| Zenith Aran Oil Company Limited | 0.578 | - | 0.578 | 0.578 | - | 0.578 | - |
| Shirvan Investments Limited | 5.615 | - | 5.615 | 5.615 | | 5.615 | - |
| UGE-LANCER PTE.LTD | 7.500 | - | 7.500 | 7.500 | | 7.500 | - |
| **Cəmi** | **32,537** | **(0,005)** | **32,532** | **32,532** | **-** | **32,532** | **-** |

* 0,005 milyon ABŞ dolları məbləğində olan fərq Azen Oyl Kompani B.V. sirkəti tərəfindən təqdim edilən hesabatda rəqəmlərin düzgün yuvarlaqlaşdırılmamasına görə yaranmışdır.

- ***Qaz hasilatından əldə edilən pul vəsaiti***

Qaz gəlirlərinin cəmi fərqi 227,553 milyon ABŞ dolları təşkil etmişdir.

**(milyon ABŞ dolları)**

| Xarici hasilat sənayesi şirkətləri | Şirkətlər üzrə | | | Dövlət üzrə | | | Yekun Fərq |
|---|---|---|---|---|---|---|---|
| | İlkin | Düzəliş | Yekun | İlkin | Düzəliş | Yekun | |
| Azərbaycan (Şah Dəniz) Limitid | 22,755 | (22,755)* | - | - | - | - | - |
| BP Eksploreyşn (Azərbaycan) Limited | 65,604 | (65,604)* | - | - | - | - | - |
| Lukoyl Oversiz Shah Deniz Ltd. | 22,755 | (22,755) * | - | - | - | - | - |
| SGC Upstream MMC | 15,178 | (15,178) * | - | - | - | - | - |
| Petronas Azerbaijan Shah Deniz S.A.R.L | 35,271 | (35,271) * | - | - | - | - | - |
| Naftiran İntertrade Co (NICO) Limited | 22,755 | (22,755) * | - | - | - | - | - |
| Türkiş Petroleum Overseiz Kompani Ltd | 43,235 | (43,235) * | - | - | - | - | - |
| Bahar Energy Limited | 0,243 | - | 0,243 | 0,243 | - | 0,243 | - |
| **Cəmi** | **227,796** | **227,553** | **0,243** | **0,243** | **-** | **0,243** | **-** |

* SOCAR tərəfindən SD1 layihəsi çərçivəsində SOCAR (Azərbaycan dövləti) və alıcılar arasında qazın alqı-satqısı üzrə bağlanmış sazişlər çərçivəsində müvafiq illik qaz həcmlərinin artıq həcmdə SOCAR tərəfindən alışı ilə bağlı həmin artıq həcmlərin alışına yönəldilmiş 227,553 milyon ABŞ dolları məbləğində vəsait ARDNF-yə daxil edilməmişdir.[142]

SOCAR və Azərbaycan Qaz Təchizatı Şirkəti ("AQTŞ") təbii qaz üçün Apstrim Satınalma Sazişinin ("ASS"), "Şahdəniz üzrə optimallaşdırma layihəsi"-nin ("Debottlenecking SPA") və Qaz alqı-satqısı haqqında Sazişlərin ("Azeri SPA") tərəfdaşlarıdır. Debottlenecking SPA, Azeri SPA və ASS

[142] ARDNF-nun 2017-ci il üzrə hesabatı- http://www.oilfund.az/uploads/REPORT_AZ_2017.pdf

sazişlərinin müvafiq olaraq 13.3, 9.3 və 9.12-ci maddələrinə əsasən SOCAR tərəfindən AQTŞ-ə ödənilməmiş məbləğin AQTŞ tərəfindən ödənilməli olan məbləğ ilə əvəzləşdirilməsini həyata keçirə bilər. 2017-ci ildə Şahdəniz qazının satışı AQTŞ tərəfindən həyata keçirilmiş, və bu satışdan əldə olunan gəlirlərin ümumi məbləği 227,554 milyon ABŞ dolları təşkil etmişdir. Yuxarıda qeyd olunan Sazişlər çərçivəsində 2017-ci ildə AQTŞ-nin Direktorlar Şurası həmin məbləğin SOCAR-ın borcuna qarşı əvəzləşdirilməsini qərara almışdırlar.

➢ ***Bonuslar***

Bonusların cəmi fərqi 0,433 mln ABŞ dolları təşkil etmişdir.

**(mln ABŞ dolları)**

| **Xarici hasilat sənayesi şirkətləri** | **Şirkətlər üzrə** | | | **Dövlət üzrə** | | | **Yekun fərq** |
|---|---|---|---|---|---|---|---|
| | **İlkin** | **Düzəliş** | **Yekun** | **İlkin** | **Düzəliş** | **Yekun** | |
| BP Eksploreyşn (Azərbaycan) Limited | 0,026 | - | 0,026 | 0,026 | - | 0,026 | - |
| Lukoyl Oversiz Shah Deniz Ltd. | 0,009 | - | 0,009 | 0,009 | - | 0,009 | - |
| Naftiran İntertrade Co (NICO) Limited | 0,013 | (0,004)* | 0,009 | 0,009 | - | 0,009 | - |
| Petronas Azerbaijan Shah Deniz S.A.R.L | 0,020 | (0,006)* | 0,014 | 0,014 | - | 0,014 | - |
| Total E & P Abşeron B.V. | 0,887 | - | 0,887 | 0,887 | - | 0,887 | - |
| Türkiş Petroleum Overseiz Kompani Ltd | 0,017 | - | 0,017 | 0,017 | - | 0,017 | - |
| **Engie E & P Absheron B.V. *** | - | - | - | 0,443 | - | 0,443 | 0,443 |
| **Cəmi** | **0,972** | **(0,010)** | **0,962** | **1,405** | **-** | **1,405** | **0,443** |

* Yuxarıda göstərilən 0,006 mln və 0,004 mln ABŞ dolları dəyərindəki fərqlər müvafiq olaraq Petronas Azerbaijan Shah Deniz S.A.R.L və Naftiran İntertrade Co (NICO) Limited hasilat şirkətləri tərəfindən məlumatın kassa metodu əvəzinə hesablama metodu ilə hesabatda təqdim edildiyindən yaranmışdır. Yaranan fərqlərə görə Müstəqil Auditorlar tərəfindən 2017-ci ildə edilən müvafiq ödəniş sənədləri əldə edilərək fərqlərə düzəliş edilmişdir.

* 23 mart 2017-cil tarixli məktuba əsasən "ENGİE E & P Absheron B.V." hasilat şirkəti Abşeron Qaz Yatağı üzrə HPBS-də olan 20% iştirak payını bərabər nisbətdə digər podratçı tərəflər olan SOCAR-ın Ortaq Şirkəti və Total E & P Abşeron B.V. arasında bölərək layihədən ayrılmışdır. Azərbaycanda nümayəndəlik mövcud olmaması səbəbindən həmin hasilat şirkətinə 2017-ci il üçün hesabat forması göndərilməmişdir.

➢ ***Tranzit haqqı***

Tranzit haqları üzrə cəmi fərq 6,218 mln ABŞ dolları təşkil etmişdir. Cəmi tranzit haqqı üzrə müvafiq şirkətlərin təqdim etdiyi rəqəmlər aşağıdakı cədvəldə göstərilmişdir:

**(milyon ABŞ dolları)**

| **Xarici hasilat sənayesi şirkətləri** | **Şirkətlər üzrə** | | | **Dövlət üzrə** | | | Yekun fərq |
|---|---|---|---|---|---|---|---|
| | **İlkin** | **Düzəliş** | **Yekun** | **İlkin** | **Düzəliş** | **Yekun** | |
| Azərbaycan (EYSC) Limitid | 0,490 | - | 0,490 | 0,490 | - | 0,490 | - |
| BP Eksploreyşn (Kaspian Si) Limited | 1,519 | - | 1,519 | 1,519 | - | 1,519 | - |
| Ekson Azərbaycan Limited | 0,340 | - | 0,340 | 0,340 | - | 0,340 | - |
| Inpex Southwest Caspian Sea, Ltd. | 0,465 | - | 0,465 | 0,465 | - | 0,465 | - |
| İtoçu Oyl Eksploreyşn (Azərbaycan) Inc. | 0,182 | - | 0,182 | 0,182 | - | 0,182 | - |
| ONGC Videş Limited | 0,115 | - | 0,115 | 0,115 | - | 0,115 | - |
| Statoil Absheron A.S | 0,363 | - | 0,363 | 0,363 | - | 0,363 | - |
| Şevron Xəzər Ltd. | 0,478 | - | 0,478 | 0,478 | - | 0,478 | - |
| Türkiyə Petrolleri Anonim Ortaqlığı | 0,286 | - | 0,286 | 0,286 | - | 0,286 | - |
| ARDNF | - | 6,218* | 6,218 | 6,218 | - | 6,218 | - |
| **Cəmi** | **4,238** | **6,218** | **10,456** | **10,456** | **-** | **10,456** | **-** |

Dövlətin cədvəlinə daxil edilmiş 6,218 mln ABŞ dolları həcmində olan məbləğ Dövlətin payına düşən neftin tranziti üçün özü tərəfindən ödənilmiş nəqletmə haqlarını əks etdirir. Hər ay Qərbi İxrac boru kəməri ilə nəql olunan neftə əsasən Podratçı tərəflər və Azərbaycan Respublikası Dövlət Neft Fondu (dövlətin payına düşən mənfəət nefti) Azərbaycan və Gürcüstan Respublikasının təyin etdiyi tarifi və boru kəmərinin ümumi fəaliyyət xərclərini (əməliyyat və kapital xərcləri) Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə (ABƏŞ) ödəyir. Əməliyyatın xüsusiyyətinə görə bu fərq daimidir.

- ***Əlavə dəyər vergisi***

Əlavə dəyər vergisinin cəmi fərqi 6,747 mln ABŞ dolları təşkil etmişdir. Cəmi ƏDV üzrə müvafiq şirkətlərin təqdim etdiyi rəqəmlər aşağıdakı cədvəldə göstərilmişdir:

**(milyon ABŞ dolları)**

| Xarici hasilat sənayesi şirkətləri | Şirkətlər üzrə | | | Dövlət üzrə | | | Yekun fərq |
|---|---|---|---|---|---|---|---|
| | **İlkin** | **Düzəliş** | **Yekun** | **İlkin** | **Düzəliş** | **Yekun** | |
| Bahar Energy Limited | 6,747 | (6,747)* | - | - | - | - | - |
| SOCAR | 162,310 | - | 162,310 | 162,310 | - | 162,310 | - |
| **Cəmi** | **169,057** | **(6,747)** | **162,310** | **162,310** | **-** | **162,310** | **-** |

* Bahar Energy Limited şirkəti tərəfindən 6,747 milyon ABŞ dolları dəyərində ödəmə mənbəyindən ödənilən vergi məbləği səhvən hesabata ƏDV kimi daxil edilmişdir.

- ***Mənfəət vergisi***

Mənfəət vergisi üzrə fərq 0,412 milyon ABŞ dolları məbləğində olmuşdur. Cəmi mənfəət vergisi üzrə müvafiq şirkətlərin təqdim etdiyi rəqəmlər aşağıdakı cədvəldə göstərilmişdir:

**(milyon ABŞ dolları)**

| Xarici hasilat sənayesi şirkətləri | Şirkətlər üzrə | | | Dövlət üzrə | | | Yekun Fərq |
|---|---|---|---|---|---|---|---|
| | **İlkin** | **Düzəliş** | **Yekun** | **İlkin** | **Düzəliş** | **Yekun** | |
| Azen Oyl Kompani B.V. | 0,200 | - | 0,200 | 0,200 | - | 0,200 | - |
| Azərbaycan (EYSC) Limitid | 73,020 | 0,003* | 73,023 | 73,023 | - | 73,023 | - |
| BP Eksploreyşn (Kaspian Si) Limited | 118,788 | - | 118,788 | 118,788 | - | 118,788 | - |
| Si En Pi Si İnternəşnl (Kura) Limited | 2,010 | - | 2,010 | 2,010 | - | 2,010 | - |
| Ekson Azərbaycan Limited | 20,306 | - | 20,306 | 20,306 | - | 20,306 | - |
| Fortunate Assets Limited | 2,217 | - | 2,217 | 2,217 | - | 2,217 | - |
| Inpex Southwest Caspian Sea, Ltd. | 24,773 | - | 24,773 | 24,773 | - | 24,773 | - |
| İtoçu Oyl Eksploreyşn (Azərbaycan) Inc. | 18,096 | - | 18,096 | 18,096 | - | 18,096 | - |
| Novatis Oil F.Z.E. | 1,177 | - | 1,177 | 1,177 | - | 1,177 | - |
| ONGC Videş Limited | 10,723 | - | 10,723 | 10,723 | - | 10,723 | - |
| Statoil Absheron A.S | 39,395 | - | 39,395 | 39,395 | - | 39,395 | - |
| Şevron Xəzər, Ltd. | 36,880 | - | 36,880 | 36,880 | - | 36,880 | - |
| Türkiyə Petrolleri Anonim Ortaqlığı | 24,553 | - | 24,553 | 24,553 | - | 24,553 | - |
| UGE-LANCER PTE.LTD | 6,123 | - | 6,123 | 6,123 | - | 6,123 | - |
| Əli-Bayramlı Neft MMC | 0,415 | - | 0,415 | 0,415 | - | 0,415 | - |
| Salyan Neft MMC | 0,470 | - | 0,470 | 0,470 | - | 0,470 | - |
| Karasu Development Kompani | 0,415 | (0,415)* | - | - | - | - | - |
| **Cəmi** | **379,561** | **(0,412)** | **379,149** | **379,149** | **-** | **379,149** | **-** |

| Yerli hasilat sənayesi şirkətləri | Şirkətlər üzrə | | | Dövlət üzrə | | | Yekun Fərq |
|---|---|---|---|---|---|---|---|
| | **İlkin** | **Düzəliş** | **Yekun** | **İlkin** | **Düzəliş** | **Yekun** | |
| SOCAR | 9,287 | - | 9,287 | 9,287 | - | 9,287 | - |
| **Cəmi** | **9,287** | | **9,287** | **9,287** | **-** | **9,287** | **-** |

* 0,003 milyon ABŞ dolları məbləğində olan fərq Azərbaycan (EYSC) Limitid sirkəti tərəfindən hesabata daxil edlən məbləğin düzgün yuvarlaqlaşdırmaması zamanı yaranmışdır.

* 0,415 milyon ABŞ dolları məbləğində olan fərq Karasu Development Kompani şirkəti tərəfindən “Əli-Bayramlı Neft” MMC şirkəti əvəzinə ödənilmiş mənfəət vergisini texniki səbəbdən hesabatda göstərilməsindən yaranmışdır. Müstəqil auditor yaranan fərqə əmin olmaq üçün müvafiq ödəniş sənədlərini əldə etmişdir.

### 7.3.2 Natura şəklində edilən köçürmələrə dair düzəlişlər

***Natura şəklində edilən köçürmələrə dair düzəlişlər***

- ***Səmt qazı***

Səmt qazına aid yaranmış fərq 163 209,279 min m³ təşkil etmişdir. Cəmi səmt qazı üzrə müvafiq şirkətlərin təqdim etdiyi rəqəmlər aşağıdakı cədvəldə göstərilmişdir:

| Xarici hasilat sənayesi şirkətləri | Şirkətlər üzrə (min m³) | | | Dövlət üzrə (min m³) | | | Yekun məbləğ |
|---|---|---|---|---|---|---|---|
| | İlkin | Düzəliş | Yekun | İlkin | Düzəliş | Yekun | |
| Apşeron İnvestments Limited | 30 941,511 | | 30 941,511 | 30 941,511 | - | 30 941,511 | - |
| Azen Oyl Kompani B.V. | 2 735,330 | | 2 735,332 | 2 735,332 | - | 2 735,332 | - |
| Bahar Energy Limited | 656,870 | | 656,870 | 656,870 | - | 656,870 | - |
| BP Eksploreyşn (Kaspian Si) Limited | 2 733 130,172 | 163 209,279* | 2 896 339,451 | 2 896 339,451 | - | 2 896 339,451 | - |
| Si En Pi Si İnternəşnl (Kura) Limited | 38 620,446 | | 38 620,446 | 38 620,446 | - | 38 620,446 | - |
| Karasu Development Kompani | 1 465,000 | | 1 464,661 | 1464,661 | - | 1464,661 | - |
| Novatis Oil F.Z.E. | 4 155,388 | | 4 155,388 | 4 155,388 | - | 4 155,388 | - |
| Shirvan Investments Limited | 9 625,590 | | 9 625,590 | 9 625,590 | - | 9 625,590 | - |
| UGE-LANCER PTE Ltd. | 9 429,869 | | 9 429,869 | 9 429,869 | - | 9 429,869 | - |
| **Cəmi** | **2 830 760,176** | **163 209,279** | **2 993 969,118** | **2 993 969,118** | **-** | **2 993 969,118** | **-** |

* SOCAR-dan alınan məlumata əsasən 2017-ci il üzrə Azəri-Çıraq-Günəşli (“Çıraq”) yatağından hasil olunan səmt qazı 2 896 339,451 min kub metr həcmində SOCAR tərəfindən qəbul edilmiş, lakin 2 803 821,745 min kub metr həcmində Dövlətə təhvil verilmişdir. Aradakı fərq SOCAR-ın öz daxili ehtiyaclarına sərf edilmişdir. Yerdə qalan 70 691 min kub metr fərqin açıqlaması aşağıda qeyd olunmuşdur. “Qaz ixrac” İdarəsi BP tərəfindən verilən səmt qaz həcmlərini iki məntəqədə, Səngəçal baş qurğularında (SBQ) və Neft daşları QSM-də qəbul edir. 2017-ci il ərzində SBQ-də ACG yatağı üzrə T=150C şəraitdə 2 347 337 min kub metr, T=200C şəraitdə (ölçü qovşağının 0,5% xəta əmsalı çıxıldıqdan sonra) 2 376 127 min kub metr qaz təhvil alınmışdır. Müqavilə üzrə “Qaz İxrac” İdarəsinə “Çıraq” yatağından hasil olunan səmt qaz həcmləri Neft daşları QSM-də təhvil verilir. 2017-ci il ərzində “Çıraq”-dan T=150C şəraitdə 511 441 min kub metr T= 200C şəraitdə 520 211 min kub metr (nəmlik əmsalı tədbiq edildikdən sonra) qaz təhvil alınmışdır. Ümumilikdə 2017-ci il üzrə ACG və “Çıraq” yataqlarından T=150C şəraitdə 2 858 778 min kub metr, T= 200C şəraitdə 2 896 339 min kub metr qaz təhvil verilmişdir. 2017-ci il üzrə təhvil verilmiş səmt qazına dair BP təfərindən verilən məlumatda qeyd olunmuş 2 733 130 min kub metr qazın, 2 347 337 min kub metri ACG, 535 869 min kub metri isə “Çıraq” yatağından təhvil verilən səmt qaz həcmləridir ki, bunlarında cəmi T=00C şəraitdə (əmsal 1,05491) 2 733 130 min kub metr təşkil edir. “Qaz ixrac” idarəsinə 2017-ci il ərzində T=150C şəraitdə təhvil verilmiş 2 858 778 min kub metr səmt qazını T=00C şəraitə çevirdikdə 2 709 973 min kub metr təşkil edir. Yaranmış 23 157 min kub metr fərq, “Çıraq” platformasından Neft daşlarına qazın nəqli zamanı yaranmış itkilərdir. Bu itkilər nəql və təhvil ölçü cihazlarının buraxıla bilən xəta əmsalı, qazın qəbulu və uzunluğu 51 km diametri 400 mm olan sualtı qaz kəmərində yaranan nəql itkiləridir.

- ***Təbii qaz***

Təbii qazın cəmi fərqi 0,03 min kub metr təşkil etmişdir. Cəmi təbii qaz üzrə müvafiq şirkətlərin təqdim etdiyi rəqəmlər aşağıdakı cədvəldə göstərilmişdir:

| Xarici hasilat sənayesi şirkətləri | Şirkətlər üzrə (min m³) | | | Dövlət üzrə (min m³) | | | Yekun fərq |
|---|---|---|---|---|---|---|---|
| | İlkin | Düzəliş | Yekun | İlkin | Düzəliş | Yekun | |
| Bahar Energy Limited | 6 301,823 | 0,030* | 6 301,853 | 6 301,853 | - | 6 301,853 | - |
| **Cəmi** | **6 301,823** | **0,030** | **6 301,853** | **6 301,853** | **-** | **6 301,853** | **-** |

* 0,03 min kub metr olan fərq Bahar Energy Limited şirkəti tərəfindən hesabata daxil edilən rəqəmin düzgün yuvarlaqlaşdırmaması nəticəsində yaranmışdır

- ***Xam neft***

Təbii qazın cəmi fərqi 0,011 milyon barel təşkil etmişdir. Fərq əsasən Zenith Aran Oil Company Limited şirkətinin əməliyyat şirkəti olan Aran Oil Operating Company Limited tərəfindən podratçı tərəfə təhvil verilən 0,008 milyon barel kompensassiya neftinin yalnışlıqla Dövlətə verilən xam neft kimi göstərilməsindən yaranmışdır. Yerdə qalan 0,003 milyon barel fərq isə SOCAR-ın nümayəndəsi tərəfindən verilən məlumata görə rəqəmin düzgün yuvarlaqlaşdırılmaması nəticəsində yaranmışdır.

## 8. XÜSUSİ YOXLAMA PROSEDURLARI

Xüsusi yoxlama prosedurları üzləşmə prosesində iştirak edən şirkətlərin hesabatları barədə əminlik əldə etmək məqsədilə həyata keçirilmişdir. Xüsusi yoxlama proseduru şirkətlər tərəfindən təqdim edilən hesabatlarda göstərilən köçürmələrin seçilib yoxlanmasından ibarətdir. Bu prosedurlar seçmə üsulu ilə həyata keçirilir.

Seçmə üsulu ilə yoxlamanı həyata keçirmək üçün bir sıra metodlar mövcuddur:

- Bütün mövcud göstəricilərin seçilməsi (100% yoxlama);
- Müvafiq xüsusiyyətlərinə görə göstəricilərin seçilməsi; və
- Statistik və qeyri-statistik seçim.

***100% yoxlama***:

